RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 147 (10167) 18 avqust 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# NİDADAN SONRA VERGÜL QOYULMUR

Ermənilər nə vaxtsa Azərbaycanın silaha əl atacağını yaxşı bilirdilər.

Odur ki, "dost"larının köməyi ilə daim müharibəyə hazırlaşırdılar.

Özü də 90-cı illərin müharibəsinə!

Heç vaxt ağıllarına gətirmirdilər ki, Azərbaycan yeni müharibə aparar, ən yeni silahlar, fərqli taktika tətbiq edər.

Həm də əsas hücumu mərkəzdən, Ağdam istiqamətindən gözləyirdilər.

Burada isə Rusiyanın və İranın köməyi sayəsində altıqat müdafiə xətti - bu gün Hərbi Qənimətlər Parkında açıq nümayiş olunan - səngərlər, zirehli texnikanın keçə bilməməsi üçün dərin xəndəklər qazmış, "ohanyan xətti", minalanmış sahələr, tikanlı məftil sədləri, kameralarla təchiz edilmiş atəş nöqtələri qurmuş, şəxsi heyətin qorunması üçün dağların altında beton bunkerlər tikmişdilər.

Mürəkkəb relyef şəraiti də düşmənin xeyrinə işləyirdi!

Düşmənlərimiz hər şeyi hesablamışdılar!

Bircə məqamdan başqa:

İlham Əliyev zəkası, iradə və qətiyyətini, sərkərdəlik məharətini və bir də nəyi nə vaxt və necə etmək qabiliyyətini!

Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibələr tarixində yeni səhifə sayılan Vətən müharibəsinə başladı!

* Bu müharibədə ən yeni taktika və strategiya tətbiq olundu.

* Bu müharibədə Azərbaycan Ordusu əvvəldən axıradək hücumda oldu, bir-birinin ardınca strateji mövqeləri və yaşayış məntəqələrini ələ keçirdi!

* Bu müharibədə bir zamanlar özlərini "məğlubedilməz xalq", "məğlubedilməz ordu" adlandıranların 12 min əsgər və zabiti döyüş meydanından qaçaraq fərariyə çevrildi.

* Bu müharibədə Azərbaycan xüsusi təyinatlıları qeyri-adi qəhrəmanlıqlar göstərərək Şuşanı yalın əllə geri aldılar!

* Bu müharibədə düşmən 44 gün ərzində diz çökdürülərək kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzaladı.

* Bu müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın təkcə hərb meydanında deyil, diplomatiya və informasiya sahəsində də tam qələbəsini təmin etdi.

* Bu müharibə, əslində, bütün dünya üçün nümunəvi müharibəyə çevrildi, hamı bu təcrübədən öyrənməyə və hərb elmində onun elementlərinin tətbiqinə başladı!

Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı hərbi möcüzələr bununla bitmədi!

4

# Prezident İlham Əliyev Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko ilə görüşüb



**Azərbaycan Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenko ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə dövlətimizin başçısının "X" sosial şəbəkə hesabında bildirilib.

Paylaşımda həmçinin qeyd olunub: "20 ildən artıq davam edən tanışlığımız əsnasında xoş xatirələrimizi bölüşdük, Azərbaycan-Ukrayna münasibətlərinin möhkəmləndirilməsi istiqamətində gördüyümüz birgə işləri xatırladıq və əlaqələrin gələcək perspektivləri barədə fikir mübadiləsi apardıq.

Görüş zamanı Ukraynanın Azərbaycandakı səfiri tərəfindən mənə "İrpen şəhərinin fəxri vətəndaşı" vəsiqəsi təqdim edildi".

# Azərbaycan-İndoneziya dostluğu və əməkdaşlığı xalqlarımızın rifahı naminə möhkəmlənəcək

## İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Prabovo Subiantoya

Hörmətli cənab Prezident!

17 Avqust - İndoneziya Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Hazırda Azərbaycan ilə İndoneziya arasında qarşılıqlı maraq doğuran bir sıra sahələr, xüsusilə də iqtisadiyyat, qarşılıqlı investisiya qoyuluşu, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığımızın əhatə dairəsinin daha da genişləndirilməsi üçün yaxşı imkanlar vardır.

Əminəm ki, Azərbaycan-İndoneziya dostluğu və əməkdaşlığının xalqlarımızın rifahı naminə möhkəmlənməsinə nail olacağıq.



Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, dost İndoneziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# Qlobal nüfuzun təzahürü

## G20 sammitinə Azərbaycan Prezidentinin dəvət olunması Bakının qlobal siyasət və iqtisadiyyat xəritəsindəki yerini göstərir

Ölkəmizin Böyük İyirmiliyə dəvəti təsadüfi diplomatik jest deyil. Vətən müharibəsində ərazi bütövlüyünü və suverenliyini bərpa edərək yeni geosiyasi reallıq yaradan Azərbaycan regiona davamlı sülh və qarşılıqlı iqtisadi inteqrasiya modeli gətirib.

Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanması, Birgə Bəyannamənin imzalanması Cənubi Qafqazda onilliklər sürən münaqişəyə son qoydu.

ABŞ-nin də fəal dəstəklədiyi regional bağlantı layihəsi TRIPP marşrutu üzrə (Zəngəzur dəhlizi) Azərbaycan ərazisindəki nəqliyyat infrastrukturunun qurulması ilə bağlı işlər artıq yekunlaşmaq mərhələsindədir. Bu marşrut "Şərq-Qərb" ticarət dövriyyəsində ölkəmizi əvəzolunmaz edir.

Cari il avqustun 8-də Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında baş tutan telefon danışığı da bu tarixi dönüşün rəsmi təsdiqi oldu.

6

# “Azərbaycan sərhədçisi qalib dövlətin sərhədlərini qorumağın şərəfini və məsuliyyətini daşıyır"

Azərbaycanın dövlətçilik tarixində sərhəd anlayışı hər zaman xüsusi məna daşıyıb. Sərhəd yalnız dövlətləri bir-birindən ayıran coğrafi xətt deyil. Sərhəd müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və milli təhlükəsizliyin təcəssümüdür. Dövlətin qüdrəti onun sərhədlərinə nəzarət etmək, onları qorumaq və hər bir təhdiddən etibarlı müdafiə etmək imkanları ilə də ölçülür.

1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən ölkə ərazisində 99 sərhəd-mühafizə postunun yaradılmasını nəzərdə tutan qanunun qəbul edilməsindən 107 il ötür. Bu illər ərzində Azərbaycan sərhədçisi müxtəlif tarixi mərhələlərdən keçib, böyük çətinliklərlə üzləşib, lakin Vətənin hüdudlarını qorumaq kimi müqəddəs missiyaya daim sədaqətlə xidmət edib.

Bu gün Azərbaycan Sərhəd Mühafizəsi özünün 107-ci ildönümünü tamamilə fərqli siyasi və hərbi reallıqlar şəraitində qarşılayır. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qalib dövlətdir. Bir vaxtlar işğal altında olan sərhədlərimizdə bu gün üçrəngli Dövlət bayrağımız dalğalanır, sərhədçilərimiz həmin ərazilərdə Vətənin keşiyini çəkirlər.

5

# Süni intellekt və milli mədəniyyət

## Bu gün milli mədəniyyətin vəzifəsi keçmişi qorumaq və milli yaddaşı gələcəyin texnologiyasına çevirməkdir

Azərbaycan mədəniyyətinin süni intellekt vasitəsilə qorunması baxımından milli musiqi irsimiz, ələlxüsus muğam xüsusi nümunədir. Muğamın zəngin melodik strukturu, improvizasiya imkanları, ifaçılıq məktəbləri və emosional xüsusiyyətləri onu mürəkkəb musiqi sistemi kimi xarakterizə edir.

Süni intellekt vasitəsilə böyük həcmdə musiqi yazılarının və audiomaterialların təhlil edilərək müxtəlif ifaçıların üslub fərqlərinin, melodik quruluşların və ritmik xüsusiyyətlərin tam dəqiqləşdirilməsi mümkündür. Bu, musiqişünaslıq üçün yeni imkanlar yaradır. Lakin burada mühüm bir sərhəd də mövcuddur. Muğam yalnız notlardan, ritmlərdən və melodik ardıcıllıqlardan təşkil olunmayıb.



Muğam ifaçının emosional vəziyyəti, improvizasiya qabiliyyəti, dinləyici ilə əlaqəsi və konkret tarixi-mədəni mühitlə bağlıdır.

8

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338; 2025, № 4 (I kitab), maddə 315,№ 7, maddələr 610, 631, № 8, maddələr 738, 744; Azərbaycan Respublikasının 2026-cı il 12 iyun tarixli 420-VIIQD nömrəli Qanunu) 90-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş torpağın dövlət ehtiyacları üçün alınmasına əsas verən hallar, habelə qanunla özəlləşdirilməsi qadağan olunan və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri istisna olmaqla, dövlət mülkiyyətində olan torpaq sahələri qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan torpaq sahələri ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə dəyişdirilir.

Dövlət mülkiyyətində olan torpaq sahəsinin xüsusi mülkiyyətdə olan torpaq sahəsi ilə dəyişdirilməsi, habelə dəyişdirilən torpaq sahələrinin qiymətləndirilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 155.5-ci maddəsinə uyğun olaraq həyata keçirilir.";

1.2. 2-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Torpaq sahələrinin dəyişdirilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyinə uyğun olaraq tənzimlənir.";

1.3. 3-cü hissə ləğv edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744, № 11, maddə 1004; 2026, № 1, maddə 2, № 3, maddə 208; Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 413-VIIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 155.5-ci maddə əlavə edilsin:

"155.5. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş torpağın dövlət ehtiyacları üçün alınmasına əsas verən hallar, habelə qanunla özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri istisna olmaqla, dövlət mülkiyyətində olan əmlak, o cümlədən torpaq sahəsi qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə dəyişdirilir.

Dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi əmlakların (torpaq sahələrinin) alqı-satqısı zamanı təşəkkül tapan bazar qiyməti nəzərə alınmaqla "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.

Dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahəsinin qarşılıqlı razılıq əsasında müvafiq olaraq xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə dəyişdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**Maddə 3.** "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1622 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1.5-ci maddəyə ikinci halda "olan" sözündən sonra "dövlət orqanı (qurumu), bələdiyyə," sözləri əlavə edilsin;

3.2. 9.1.4-cü maddəyə "sifarişçi" sözündən sonra "dövlət orqanı (qurumu), bələdiyyə və ya" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında hər üç halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında ikinci halda "orqan (qurum)"dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında üçüncü halda "orqan (qurum)"dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında birinci halda"orqan (qurum)"dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Əmlak Məsələləri Dövlət Xidməti qismində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 155.5-ci maddəsinin birinci (hər üç halda) və üçüncü abzaslarında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında ikinci halda "orqan (qurum)"dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.7. həmin Məcəllənin 155.5-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.8. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında üçüncü halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.9. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında birinci halda "orqan (qurum)"dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Əmlak Məsələləri Dövlət Xidməti qismində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1.Azərbaycan Respublikası Mülki Məcəlləsinin 155.5-ci maddəsinin üçüncü abzasına uyğun olaraq, dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahəsinin qarşılıqlı razılıq əsasında müvafiq olaraq xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə dəyişdirilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla beş ay müddətində təsdiq etsin;

2.2."Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 459-VIIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 176 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 486 (Cild I); 2024, № 7, maddə 823; 2025, № 8, maddə 750; 2026, № 4, maddə 304) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə üçüncü halda "və" sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə "ikinci cümlələrində" sözlərindən sonra "və 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında (hər üç halda)" sözləri əlavə edilsin;

3.2. 2.1-1-ci bəndə "cümləsində" sözündən sonra "və 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında (ikinci halda)" sözləri əlavə edilsin;

3.3. 2.1-6-cı bənd 2.1-7-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.1-6-cı bənd əlavə edilsin:

"2.1-6. həmin Məcəllənin 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında üçüncü halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

3.4. 2.3-cü bənddə ikinci halda "2-ci hissəsində" sözləri "2-ci hissəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.5. 2.10-1-ci bəndə "hissəsində" sözündən sonra "və 90-cı maddəsinin 1-1-ci hissəsinin birinci abzasında (birinci halda)" sözləri əlavə edilsin.

4. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746, № 11, maddə 1035; 2026, № 1, maddə 24; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 24 iyun tarixli 695 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-ci bənddə "və 1076-6.7-ci maddələrində" sözləri "maddəsində, 155.5-ci maddəsinin birinci (hər üç halda) və üçüncü abzaslarında, 1076-6.7-ci maddəsində" sözləri ilə əvəz edilsin;

4.2. 3.1-1-ci bənd 3.1-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 3.1-1-ci, 3.1-3-cü və 3.1-4-cü bəndlər əlavə edilsin:

"3.1-1. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında ikinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

"3.1-3. həmin Məcəllənin 155.5-ci maddəsinin üçüncü abzasında nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.1-4. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında üçüncü halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.3. aşağıdakı məzmunda 3.9-1-ci bənd əlavə edilsin:

"3.9-1. həmin Məcəllənin 155.5-ci maddəsinin birinci abzasında birinci halda "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Əmlak Məsələləri Dövlət Xidməti qismində Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;".

5. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26, № 4 (I kitab), maddə 333, № 12 (I kitab), maddə 1136; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 5 avqust tarixli 753 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı"nın 5.6-cı bəndinə "özəlləşdirilməsini" sözündən sonra ", dəyişdirilməsini" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2026-cı il*

# "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 102 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 85 (Cild I) ilə təsdiq edilmiş "İstifadəyə verilən yer təki sahələri haqqında geoloji informasiyanın və faydalı qazıntı ehtiyatlarının dövlət geoloji ekspertizasının keçirilməsi Qaydaları"nın 5.7-ci bəndinin birinci cümləsindən "və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət geoloji informasiya fonduna" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 293 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 160 (Cild I) ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının dövlət balansının aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bəndin birinci cümləsinə "Fonduna" sözündən sonra "daxil edilməsi üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə (bundan sonra - Agentlik)" sözləri əlavə edilsin;

2.2. III hissə üzrə:

2.2.1. 3.3-cü bəndin ikinci cümləsində"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət Geologiya İnformasiya Fonduna" sözləri "Dövlət Geoloji İnformasiya Fonduna daxil edilməsi üçün Agentliyə" sözləri ilə əvəz edilsin;

2.2.2. 3.4-cü bənddə "Dövlət Geologiya İnformasiya Fondu" sözləri "Agentlik" sözü ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 973 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, №10, maddə 578 (Cild I) ilə təsdiq edilmiş "Faydalı qazıntı ehtiyatlarının təsdiq edilməsi və silinməsi Qaydaları"nın 2.5-ci bəndinin birinci cümləsinə "Fonduna" sözündən sonra "daxil edilməsi üçün Agentliyə" sözləri əlavə edilsin.

4. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında"Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 may tarixli 89 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 957 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci və 3-cü hissələr ləğv edilsin;

4.2. 8-ci hissədən "və Mərkəzin saxlanılması üçün tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238 (Cild I); 2024, № 3, maddə 262, № 5 (I kitab), maddə 515, № 7, maddə 809, № 8, maddələr 943, 948, № 11, maddə 1199, № 12 (II kitab), maddə 1364; 2025, № 3, maddə 224, № 4 (I kitab), maddə 330, № 5, maddə 459, № 6, maddə 541, № 8, maddə 771, № 11, maddələr 1018, 1025, № 12 (I kitab), maddə 1152) ilə təsdiq edilmiş "Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı"nın 9-cu hissəsində "Göstərdiyi xidmətlər" sütununun 4-cü bəndində "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs" sözləri "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" sözləri ilə əvəz edilsin.

6. "Yerin təkindən istifadə olunmasının, onun mühafizəsi və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 205 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1491 (Cild I) 2-ci və 3-cü hissələri ləğv edilsin.

7. "Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 9 aprel tarixli 613 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 613 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddə 259) 1-ci hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki Tərəvəzçilik Elmi Tədqiqat İnstitutunun fəaliyyətinin təkmilləşdirilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 20 iyun tarixli 748 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1040 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 4.1-ci bənd ləğv edilsin;

8.2. 5.2-ci bənddən "və həmin publik hüquqi şəxsin saxlanılması üçün tələb olunan vəsaiti növbəti illərdə dövlət büdcəsinin layihəsində nəzərdə tutsun" sözləri çıxarılsın.

9. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 251 (Cild I); 2024, № 2, maddə 147, № 3, maddələr 259, 262, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 8, maddə 944, № 12 (II kitab), maddə 1359; 2025, № 6, maddə 541, № 10, maddə 900; 2026, № 2, maddə 123, № 4, maddə 304) ilə təsdiq edilmiş "Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.23-1-ci yarımbənd əlavə edilsin:

"3.1.23-1. "Rəqəmsal ekologiya" informasiya sisteminin operatoru funksiyalarını həyata keçirmək, sistemin dayanıqlı və fasiləsiz fəaliyyətinin, informasiya təhlükəsizliyinin təmin edilməsi, sistemin idarə olunması, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində normativ hüquqi aktlara uyğun olaraq tədbirlər görmək;".

10. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948; 2025, № 1, maddə 29, № 3, maddə 224, № 7, maddə 662, № 11, maddə 1018; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 iyun tarixli 697 nömrəli, 22 iyul tarixli 730 nömrəli və 30 iyul tarixli 746 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 18-ci, 19-cu, 35 - 35-2-ci və 40-1-ci hissələri ləğv edilsin.

11. "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 dekabr tarixli 1505 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1370 (Cild I); 2025 № 2, maddə 109, № 4 (I kitab), maddə 330) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 2.1-ci bənddə "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs" sözləri "Aqrar Tədqiqatlar və İnkişaf Mərkəzi" sözləri ilə əvəz edilsin;

11.2. həmin Fərmanla təsdiq edilmiş "Aqroparklar haqqında Nümunəvi Əsasnamə"nin 1.3.2-ci yarımbəndində "publik hüquqi şəxs" sözləri "qurum" sözü ilə əvəz edilsin.

12. "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 aprel tarixli 1670 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 331 (Cild I) 2-ci hissəsi və 5.2-ci bəndi ləğv edilsin.

13. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205; 2025, № 2, maddə 129, № 4 (I kitab), maddə 343, № 10, maddə 900; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 iyul tarixli 746 nömrəli Fərmanı) 6.4-cü və 6.6-cı bəndləri ləğv edilsin.

14. "Rəqəmsal ekologiya" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 282 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 22; 2026, № 4, maddə 313; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 6 iyul tarixli 710 nömrəli Fərmanı) 3.2-ci bəndində "Geodeziya və Kartoqrafiya" sözləri "Dövlət Ekoloji Ekspertiza" sözləri ilə əvəz edilsin.

15. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 190 (Cild I); 2025, № 8, maddə 751) aşağıdakı dəyişikliklər edilsin:

15.1. həmin Sərəncamla təsdiq edilmiş "Dövlət Geoloji İnformasiya Fondunun yaradılması və aparılması Qaydaları" üzrə:

15.1.1. 1.4-cü bəndin birinci cümləsində "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyindəki Dövlət Geoloji İnformasiya Fonduna (bundan sonra Fond) verilir" sözləri "Dövlət Geoloji İnformasiya Fonduna (bundan sonra - Fond) daxil edilməsi üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə təqdim edilir" sözləri ilə əvəz edilsin;

15.1.2. II hissə üzrə:

15.1.2.1. adında **"YERİN TƏKİ HAQQINDA DÖVLƏT GEOLOJİ İNFORMASİYA FONDUNUN"** sözləri **"FONDUN"** sözü ilə əvəz edilsin;

15.1.2.2. 2.1-ci bənddə "Dövlət Geoloji İnformasiya Fondu" sözləri "Fond" sözü ilə əvəz edilsin;

15.1.3. III hissə üzrə:

15.1.3.1. adında **"YERİN TƏKİ HAQQINDA DÖVLƏT GEOLOJİ İNFORMASİYA FONDUNUN"** sözləri **"FONDUN"** sözü ilə əvəz edilsin;

15.1.3.2. birinci abzasda "Yerin təki haqqında Dövlət Geoloji İnformasiya Fondunun" sözləri "Fondun" sözü ilə əvəz edilsin;

15.1.4. IV hissə üzrə:

15.1.4.1. adında **"YERİN TƏKİ HAQQINDA DÖVLƏT GEOLOJİ İNFORMASİYA FONDUNUN"** sözləri **"FONDUN"** sözü ilə əvəz edilsin;

15.1.4.2. 4.1-ci bəndin birinci abzasında "Geoloji İnformasiya Fondu" sözləri "Fond" sözü ilə əvəz edilsin;

15.2. həmin Sərəncamla təsdiq edilmiş "İstifadəyə verilən yer təki sahələrinin və onlarla əlaqədar işlərin dövlət qeydiyyatı və dövlət uçotunun aparılması Qaydaları" üzrə:

15.2.1. 3.11-ci bənddə "Dövlət Geoloji İnformasiya Fondunun rəisi" sözləri "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin sədri" sözləri ilə əvəz edilsin;

15.2.2. 4.3-cü bəndin birinci abzasında "Dövlət Geoloji İnformasiya Fondu" sözləri "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi" sözləri ilə əvəz edilsin.

16. "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dövlət sərhədinin demarkasiyası üzrə Dövlət Komissiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyun tarixli 965 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 372 (Cild I); 2025, № 11, maddə 1041)1-ci hissəsində "Geodeziya və Kartoqrafiya Agentliyi" publik hüquqi şəxsin İdarə Heyətinin" sözləri "Geodeziya və Kartoqrafiya Agentliyinin" sözləri ilə əvəz edilsin.

17. "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 yanvar tarixli 3596 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 97 (Cild I) 2 nömrəli Əlavənin - "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin balansından Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin balansına verilən laboratoriyaların Siyahısı"nın 1-ci hissəsində "Baytarlıq Elmi-Tədqiqat İnstitutu" sözləri "Baytarlıq Elmi-Tədqiqat İnstitutunun laboratoriyası" sözləri ilə əvəz edilsin.

18. Bu Fərman "Bir sıra dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 599 nömrəli Fərmanının 1-ci və 2-ci hissələrinə əsasən yaradılan müvafiq büdcə təşkilatlarının əsasnamələri (nizamnamələri), strukturu və əməyin ödənilməsi sistemi müəyyən edildiyi gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2026-cı il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**"general-leytenant" ali hərbi rütbəsi**
general-mayor Babək Mürsəl oğlu Ələkbərova
general-mayor Aqşin Ramiz oğlu Məhərrəmova
general-mayor Faiq Həmzəağa oğlu Məmmədova
**"general-mayor" ali hərbi rütbəsi**
polkovnik Elfan Şakir oğlu Quliyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2026-cı il*

## Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında və dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı şəhid olmuş Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçisinin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında və dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları icra edərkən vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçisi ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsinlər:

Nəzirov Emil Nəzir oğlu - polkovnik
Baxışlı Baxış Elşən oğlu - mayor
Əhmədov Elbrus Səmrəddin oğlu - mayor
Əliyev Emil Elman oğlu - mayor
Mayılov Emil Şahid oğlu - mayor
Məmmədov Murad Yaşar oğlu - mayor
Bayramlı Cavid Əhliman oğlu - kapitan
Əhmədxanov Ceyhun Xanlar oğlu - tibb xidməti kapitanı
Qaraisayev Teymur Ənvər oğlu - kapitan
Meydanov Elməddin Bahəddin oğlu - kapitan
Muxtarov Sərxan İlqar oğlu - kapitan
Eyvazov Samir Elmar oğlu - baş leytenant
Nağıyev Fərid Təyyar oğlu - baş leytenant
Süleymanov Abdulla Telman oğlu - leytenant
Alimov Fərid Elçin oğlu - gizir
Abasov Davud Yalçın oğlu - kiçik gizir
Bağırlı Mirsədi Mircəfər oğlu - kiçik gizir
Hüseynov İmamalı Cəlil oğlu - kiçik gizir
İbrahimov Elnur Dönməz oğlu - kiçik gizir
İbrahimov Sultan Mikayıl oğlu - kiçik gizir
Qasımov Xalid Rafik oğlu - kiçik gizir
Quliyev Fərid Ayazxan oğlu - kiçik gizir
Məmmədli Əşrəf Elman oğlu - kiçik gizir
Məmmədov Əli Zeynal oğlu - kiçik gizir
Mustafayev Əkbər Natiq oğlu - kiçik gizir
Namazov Elcan Hidayət oğlu - kiçik gizir
Paxırov Elsevər Eyvaz oğlu - kiçik gizir
Ramazanlı Əlizamin Umud oğlu - kiçik gizir
Şükürov Alim Davud oğlu - kiçik gizir
Tağıyev Şahin Rəhim oğlu - kiçik gizir
Əliyev Rəvan Yusif oğlu - əsgər
Fərzəliyev Fərzalı Əlimövsüm oğlu - əsgər
Hüseynov Vusal Yəhya oğlu - əsgər
İsgəndərli Səbuhi Yaşar oğlu - əsgər
Qalayçiyev Faiq İsrafil oğlu - əsgər
Qasımov Mürtaza Elman oğlu - əsgər
Quliyev Mehtab Ənvər oğlu - əsgər
Nağıyev Əli Elşən oğlu - əsgər
Paşazadə Orxan Nazim oğlu - əsgər
Vəliyev İbrahim Ələmşah oğlu - əsgər
Nəbiyev Elçin Fikrət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**2-ci dərəcəli "Rəşadət" ordeni ilə**
Hüseynov Naseh İbrahim oğlu - polkovnik
**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Mehdiyev İlham İsmayıl oğlu - general-leytenant
Nağıyev Əfqan Vəli oğlu - general-leytenant
Rəhimov Rəşad Manaf oğlu - polkovnik
**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Abdayev Seymur Nurəddin oğlu - 1-ci dərəcəli kapitan
Mirzəyev Mirzə Adil oğlu - polkovnik
Şükürov Pənah Osman oğlu - polkovnik
Tağıyev Bəhruz Sabir oğlu - polkovnik
Hüseynquliyev Şahin Yusif oğlu - polkovnik-leytenant
**"Vətən uğrunda" medalı ilə**
Qurbanov Natiq Nadir oğlu - 1-ci dərəcəli kapitan
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Nağıyev Murad Tofiq oğlu - polkovnik
Səlimov Elvin Vahub oğlu- polkovnik
Şükürov Mahmud Sabir oğlu- polkovnik
Ağayev Rasim Yunis oğlu - polkovnik-leytenant
Allahverdiyev Fərzənd Allahqulu oğlu - polkovnik-leytenant
Cahidzadə Nicat Etibar oğlu - polkovnik-leytenant
Əsədov Elməddin Kərim oğlu - 2-ci dərəcəli kapitan
Əsədov Yusif Vaqif oğlu - polkovnik-leytenant
Nəsibov Teymur Xəlil oğlu - polkovnik-leytenant
Rzayev Elvin Qalib oğlu - polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu- mayor
**"İgidliyə görə" medalı ilə**
Behbudov Allahverdi Şahlar oğlu - polkovnik
Əliyev Elnur Abutalıb oğlu- polkovnik
Əsədov Hüseyn Aftandil oğlu- polkovnik
**"Hərbi xidmətlərə görə" medalı ilə**
Bayramov Teyyub Nurəli oğlu - polkovnik
Eyvazov Şükür Məhəmməd oğlu - tibb xidməti polkovniki
Əliyev Zəfər Başir oğlu - polkovnik
Əmirov Ceyhun Cəbrail oğlu - polkovnik
Heydərov İsmayıl Qəhrəman oğlu - tibb xidməti polkovniki
Həmzəyev Muxtar İsmayıl oğlu - polkovnik
Quliyev İlqar Vaqif oğlu - ədliyyə polkovniki
Süleymanov Rəsul Təvəkkül oğlu - polkovnik
Abdullayev Anar Arif oğlu - polkovnik-leytenant
Allahverdiyev Saleh Sabir oğlu - polkovnik-leytenant
Aslanov Vüsal Sayad oğlu - polkovnik-leytenant
Bayramov Ramin Bəkir oğlu - polkovnik-leytenant
Dadaşov Rahid Balağa oğlu - polkovnik-leytenant
Əliyev Rövşən İskəndər oğlu - polkovnik-leytenant
Əmrahov İlqar Eldar oğlu - tibb xidməti polkovnik-leytenantı
Mahmudov Ramin Əli oğlu - 2-ci dərəcəli kapitan
Məhərrəmov Fərhad Əli oğlu - polkovnik-leytenant
Sadıqov Sadiq Saleh oğlu - polkovnik-leytenant
Abbasov Rafael Elxan oğlu - mayor
Abışov Səbuhi Nadir oğlu - mayor
Bəşirov Nazir Xosrov oğlu - mayor
Cəfərli Azad Adil oğlu - 3-cü dərəcəli kapitan
Əhmədov Qurban Əhməd oğlu - mayor
Əliyev Bəhruz Qəhraman oğlu - mayor
Ərəbova Dosxanım Arif qızı - mayor
Hüseynov Orxan Əjdər oğlu - mayor
İsgəndərov Cabir Hüseyn oğlu - mayor
Kərimov Nihad Həsənqulu oğlu - mayor
Qəhrəmanov Pərviz Azim oğlu - mayor
Quluzadə Ramil Əli oğlu - mayor
Mahmudov Kənan Həsən oğlu - mayor
Misgərli Sima Rahil qızı - tibb xidməti mayoru
Mustafazadə Samir Sadiq oğlu - 3-cü dərəcəli kapitan
Nəcəfov Vüqar Qüdrət oğlu - mayor
Orucəliyev Rac Əyyar oğlu - mayor
Zaidov Üzeir Ələsgər oğlu - mayor
Zeynalov Sabir Qurban oğlu - mayor
Bayramlı Seymur İntiqam oğlu - kapitan
Həziyev Rəşad Nüsrəddin oğlu - kapitan
İslamov Mirzə Rəşid oğlu - kapitan
Mahmudova Samirə İxtiyar qızı - kapitan
Mehtiyev Məzahir Ayaz oğlu - kapitan
Muradov Valeh Nizaməli oğlu - kapitan-leytenant
Rzayev Emin Salam oğlu - kapitan
Sadıqov Səməd Şahin oğlu - kapitan-leytenant
Salayev Rahib Hümbət oğlu- kapitan
Seyidli Mirvasif Mirsətdar oğlu - kapitan
Abdullayev Qəhrəman Allahyar oğlu - baş gizir
Eyvazov Orxan Eyvaz oğlu - baş miçman
İsgəndərov Daşdəmir Nizami oğlu - baş gizir
Qasımova Sevda İlham qızı - baş gizir
Şirəliyeva Ülkər Eldar qızı - baş gizir
Göyüşov Nemət Tələt oğlu - gizir
Məhərrəmov Asif Arif oğlu - gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2026-cı il*

# Azərbaycanın G20-yə dəvət olunması ölkəmizin dünyada yüksələn nüfuzundan xəbər verir

**Son illər Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi təkcə regionda baş verən proseslərə təsir imkanları ilə deyil, getdikcə daha çox qlobal gündəliyin formalaşmasında iştirakı ilə müəyyən olunur. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən G20 Liderlər Sammitinə dəvət olunması xüsusi siyasi və iqtisadi məna daşıyır.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, avqustun 8-də Azərbaycan və ABŞ prezidentləri arasında keçirilən telefon danışığı zamanı dövlətimizin başçısı G20-yə dəvətə görə Donald Trampa təşəkkürünü bildirib və bu addım ölkəmizə göstərilən xoş münasibətin təzahürü kimi qiymətləndirilib. Telefon danışığında Azərbaycan-ABŞ münasibətlərinin artıq keyfiyyətcə yeni mərhələyə yüksəldiyi, strateji xarakter aldığı xüsusi vurğulanıb. "2026-cı ildə G20-yə ABŞ sədrlik edir və Liderlər Sammitinin dekabrın 14-15-də Mayamidə keçirilməsi nəzərdə tutulur. G20-nin iştirakçıları dünya ümumi daxili məhsulunun təxminən 85 faizini və dünya əhalisinin üçdəikisini təmsil edir. Başqa sözlə, söhbət müasir dünya iqtisadiyyatında əsas qərarların, inkişaf tendensiyalarının və uzunmüddətli prioritetlərin müzakirə edildiyi ən nüfuzlu platformalardan birindən gedir. Bu mənada Azərbaycanın G20 Sammitinə dəvətini yalnız diplomatik protokol hadisəsi kimi qiymətləndirmək doğru olmazdı. Bu dəvət son illərdə ölkəmizin əldə etdiyi siyasi, iqtisadi və geostrateji çəkisinin beynəlxalq səviyyədə qəbul edilməsinin növbəti göstəricisidir", - deyə o əlavə edib.

Deputat bildirib ki, müstəqil xarici siyasət həyata keçirən Azərbaycan bu gün müxtəlif güc mərkəzləri ilə bərabərhüquqlu və qarşılıqlı maraqlara əsaslanan münasibətlər qurmağı bacaran azsaylı dövlətlərdən biridir. Ölkəmiz bir tərəfdən, Avropa üçün mühüm enerji tərəfdaşıdır, digər tərəfdən, Mərkəzi Asiyanı Qərblə birləşdirən nəqliyyat-logistika sisteminin əsas həlqələrindən birinə çevrilib. Eyni zamanda Azərbaycan türk dünyasının inteqrasiyasında, İslam əməkdaşlığı məkanında, Qoşulmama Hərəkatında və qlobal iqlim diplomatiyasında özünəməxsus mövqeyə malikdir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Qoşulmama Hərəkatına uğurlu sədrliyi, COP29-a, daha sonra Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına - WUF13-ə evsahibliyi etməsi ölkənin qlobal proseslərdə artan rolunun ayrı-ayrı mərhələləridir.

S.Fətəliyeva qeyd edib ki, G20-yə dəvət isə bu ardıcıllığın davamı kimi qiymətləndirilə bilər: "Burada mühüm məqam ondan ibarətdir ki,



Azərbaycan G20-nin daimi üzvü olmasa da, dünyanın aparıcı iqtisadi güclərinin müzakirə platformasına xüsusi dəvət alır. Bu, ölkəmizin iqtisadi ölçülərindən daha geniş geosiyasi əhəmiyyətə malik olduğunu göstərir. Azərbaycanın G20 müzakirələrinə verə biləcəyi töhfələrin mühüm istiqamətlərindən biri enerji təhlükəsizliyidir. Uzun illər ərzində Bakı enerji resurslarının etibarlı təchizatçısı kimi özünü təsdiqləyib. "Cənub qaz dəhlizi" və onun tərkib hissələri artıq yalnız Azərbaycan iqtisadiyyatının ixrac imkanları ilə deyil, Avropanın enerji təhlükəsizliyinin mühüm elementlərindən biri kimi qəbul olunur. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfəsi bundan sonra daha da artacaq. Lakin yeni mərhələdə söhbət yalnız neft və qazdan getmir. Azərbaycan artıq ənənəvi enerji ehtiyatları ilə yanaşı, bərpaolunan enerji və "yaşıl enerji"nin Avropaya ötürülməsi üçün yeni transregional sistemlərin yaradılmasında iştirak edir. Xəzər-Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizi, həmçinin Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının Azərbaycan vasitəsilə Avropa bazarlarına çıxarılması perspektivi ölkəmizin enerji xəritəsində funksiyasını dəyişir. Azərbaycan artıq yalnız enerji istehsal və ixrac edən dövlət deyil, Avrasiyanın müxtəlif regionlarını birləşdirən enerji qovşağına çevrilir. Məhz enerji təhlükəsizliyinin, enerji keçidinin, yeni texnologiyalar və dayanıqlı iqtisadi inkişafın G20 gündəliyinin əsas mövzuları sırasında olması Azərbaycanın bu formatda iştirakını xüsusilə aktual edir".

Deputat bildirib ki, Azərbaycanın G20 üçün əhəmiyyətini artıran ikinci mühüm istiqamət qlobal nəqliyyat və təchizat zəncirləridir. Son illərdə dünyada baş verən geosiyasi böhranlar ənənəvi yükdaşıma marşrutlarının həssaslığını üzə çıxarıb. Alternativ, təhlükəsiz və şaxələndirilmiş logistika xətlərinin yaradılması artıq yalnız regional deyil, qlobal iqtisadi təhlükəsizlik məsələsinə çevrilib. Bu kontekstdə Orta dəhlizin əhəmiyyəti sürətlə artır. Azərbaycan Xəzərin şərqindən - Mərkəzi Asiya və Çindən gələn yükləri Gürcüstan, Türkiyə və Avropaya çatdıran bu xəttin əsas coğrafi və infrastruktur mərkəzlərindən biridir. Beynəlxalq ekspert qiymətləndirmələrində də Azərbaycanın strateji yerləşməsinin onu Çin-Avropa yük axınlarının əsas nəqliyyat qovşaqlarından birinə çevirdiyi vurğulanır. Naxçıvan istiqamətində yeni nəqliyyat kommunikasiyalarının açılması və TRIPP layihəsinin reallaşdırılması isə bu imkanları daha da genişləndirə bilər. Beləliklə, bu proses Azərbaycanı Şərq-Qərb xətti boyunca, sadəcə, tranzit ölkədən yeni Avrasiya bağlantı arxitekturasını formalaşdıran əsas iştirakçılardan birinə çevirir. Bu baxımdan, Azərbaycanın G20-də iştirakı həm də ölkəmizə qlobal təchizat zəncirlərinin gələcəyi, nəqliyyat infrastrukturuna investisiyalar və regional bağlantıların inkişafı ilə bağlı öz baxışını birbaşa təqdim etmək imkanı verəcək.

O deyib ki, son dövrlərdə Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə əlaqələrinin yeni keyfiyyət mərhələsinə yüksəlməsi də xüsusi diqqət çəkir: "Azərbaycan coğrafi baxımdan Cənubi Qafqaz ölkəsi olsa da, onun siyasi, iqtisadi, nəqliyyat və mədəni əlaqələri Mərkəzi Asiya ilə vahid strateji məkan formalaşdırır. Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlıq mexanizmlərində fəallığının artması, nəqliyyat, enerji və investisiya layihələrinin genişlənməsi Xəzər hövzəsini, bütövlükdə yeni geoiqtisadi mərkəzə çevirir. Bu istiqamətdə Orta dəhliz, "yaşıl enerji" layihələri və rəqəmsal bağlantılar əsas rol oynayır. Məhz buna görə Azərbaycan G20 platformasında təkcə öz milli maraqlarını deyil, daha geniş coğrafiyanın - Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiyanın iqtisadi imkanlarını dünya iqtisadiyyatının aparıcı aktorlarına təqdim edə biləcək nadir ölkələrdən biridir. Bu, Bakının beynəlxalq rolunda baş verən mühüm transformasiyanı göstərir: ayrı-ayrı coğrafi məkanların kəsişmə nöqtəsi olmaqla kifayətlənməyən Azərbaycan onları siyasi və iqtisadi baxımdan bir-birinə bağlayan aktora çevrilir".

Deputatın fikrincə, Azərbaycanın G20-yə dəvət olunmasının ABŞ-Azərbaycan münasibətləri kontekstində ayrıca siyasi əhəmiyyəti var. Belə ki, avqustun 8-də Prezident İlham Əliyev ilə Prezident Donald Tramp arasında telefon danışığında iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı, Vaşinqton Sülh Sammitinin nəticələri, Azərbaycan-Ermənistan sülh prosesi və TRIPP layihəsi müzakirə olunub. Tərəflər Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsini məmnunluqla qeyd ediblər. Bunun fonunda ABŞ Prezidentinin Azərbaycan liderini G20 Sammitinə dəvət etməsi iki ölkə arasında formalaşan yeni qarşılıqlı etimadın konkret təzahürü hesab oluna bilər. Ekspertlər də bu dəvəti Bakı-Vaşinqton münasibətlərində yeni dinamikanın və Azərbaycanın ABŞ üçün artan strateji əhəmiyyətinin göstəricilərindən biri kimi qiymətləndirirlər. Əlbəttə, burada məsələ yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmır. ABŞ-nin 2026-cı ildə G20-yə sədrliyi çərçivəsində iqtisadi artımın sürətləndirilməsi, innovasiyaların təşviqi və iqtisadi tərəfdaşlıqların genişləndirilməsini prioritet kimi müəyyənləşdirməsi də Azərbaycanın mövcud iqtisadi və geostrateji imkanları ilə üst-üstə düşür.

Sevinc Fətəliyeva onu da qeyd edib ki, G20-də iştirak Azərbaycanın qarşısında bir neçə mühüm imkan açır: "İlk növbədə bu, dünya iqtisadiyyatının əsas güc mərkəzlərinin rəhbərləri ilə bir platformada birbaşa dialoq imkanını genişləndirir. Belə formatlarda yalnız rəsmi plenar müzakirələr deyil, ikitərəfli təmaslar və qeyri-formal siyasi dialoq da xüsusi əhəmiyyət daşıyır. İkincisi, Azərbaycan öz enerji, nəqliyyat, rəqəmsal bağlantı, yaşıl keçid və investisiya layihələrini dünyanın ən böyük iqtisadiyyatlarının diqqətinə çatdırmaq imkanı əldə edir. Üçüncüsü, G20 platformasında iştirak Azərbaycanın Cənubi Qafqazda yaranmış yeni reallıqları, regional sülhün iqtisadi dividendlərini və yeni kommunikasiyaların, bütövlükdə Avrasiyaya verə biləcəyi faydaları daha geniş beynəlxalq auditoriyaya təqdim etməsi baxımından əhəmiyyətlidir. Nəhayət, bu dəvət Azərbaycanın son illərdə həyata keçirdiyi xarici siyasətin mühüm nəticəsini bir daha göstərir: ölkəmizin beynəlxalq əhəmiyyəti onun ərazi ölçüsü və ya əhalisinin sayı ilə deyil, həyata keçirdiyi siyasətin nəticələri, yaratdığı bağlantılar, etibarlı tərəfdaş kimi qazandığı reputasiya və regional prosesləri qlobal maraqlarla uzlaşdırmaq qabiliyyəti ilə müəyyən olunur".

Bu gün dünya siyasətində "orta güc" dövlətlərin rolunun artdığını deyən deputatın sözlərinə görə, böyük güclər arasında rəqabətin dərinləşdiyi şəraitdə müstəqil siyasət aparan, müxtəlif siyasi və iqtisadi mərkəzlərlə işləyə bilən, enerji, logistika və diplomatiya sahəsində real resurslara malik olan ölkələrə ehtiyac daha da artır. Azərbaycan məhz belə dövlətlərdən biridir. G20-yə dəvət də, əslində, bu yeni reallığın beynəlxalq səviyyədə qəbul edilməsinin göstəricisidir. "Azərbaycan bu platformaya yalnız öz mövqeyini çatdırmaq üçün deyil, Şərqlə Qərb, Mərkəzi Asiya ilə Avropa, ənənəvi enerji ilə "yaşıl enerji", regional sülhlə qlobal iqtisadi əməkdaşlıq arasında formalaşdırdığı əlaqələrə əsaslanan konkret gündəliklə gedir. Bu isə G20-də iştirakın Azərbaycan üçün, sadəcə, yüksəksəviyyəli beynəlxalq tədbir deyil, ölkəmizin qlobal siyasi və iqtisadi sistemdə artan çəkisinin növbəti təsdiqi olduğunu deməyə əsas verir", - deyə Sevinc Fətəliyeva vurğulayıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "TRIPP Orta dəhlizin potensialını və dayanıqlılığını artıra biləcək mühüm bağlantıdır"

**"Zəngəzur dəhlizinin (TRIPP) həyata keçirilməsi Azərbaycan ilə Naxçıvan arasında yalnız fasiləsiz nəqliyyat əlaqəsinin yaradılması demək deyil. Bu layihə Cənubi Qafqazın nəqliyyat arxitekturasının yenidən formalaşdırılması və Orta Dəhlizin daha geniş Avrasiya nəqliyyat əlaqə sisteminə çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır. Xüsusilə son illərdə qlobal ticarət yollarında baş verən geosiyasi qırılmalar ölkələrin yalnız bir marşrutdan asılı qalmaq əvəzinə alternativ, təhlükəsiz və bir-birini tamamlayan nəqliyyat xətlərinə malik olmasının əhəmiyyətini ortaya qoyub. Bu baxımdan TRIPP Orta dəhlizin potensialını artıra və marşrut müxtəlifliyini gücləndirə biləcək mühüm tamamlayıcı element kimi qiymətləndirilə bilər".**



AZƏRTAC xəbər verir ki, bunu beynəlxalq münasibətlər üzrə türk ekspert Mehmet Gökhan Özçubukçu deyib.

Ekspert bildirib ki, Naxçıvan uzun illər ərzində Azərbaycanın əsas ərazisindən ayrı olması səbəbindən geosiyasi və iqtisadi baxımdan mühüm dezavantajla üzləşib. Lakin bu gün eyni coğrafi mövqe regional əlaqələrin inkişafı ilə birlikdə üstünlüyə çevrilməyə başlayır. Çünki Naxçıvan Türkiyə, Azərbaycan və İran arasında yerləşən mövqeyi ilə yalnız Cənubi Qafqazın deyil, Avropa ilə Asiya arasındakı daha geniş iqtisadi və nəqliyyat şəbəkələrinin də kəsişmə nöqtələrindən birinə çevrilmək potensialına malikdir.

"Prezident İlham Əliyevin Naxçıvanın strateji mövqeyi ilə bağlı qiymətləndirmələrində bu məqamın ön plana çıxdığını görürük. Naxçıvan getdikcə Azərbaycanın daha geniş nəqliyyat, enerji və iqtisadi bağlantı strategiyasının mühüm elementlərindən biri kimi qəbul edilir. Çünki regionun geosiyasi dəyəri yalnız onun coğrafi sərhədləri ilə deyil, müxtəlif iqtisadi və siyasi məkanları bir-biri ilə əlaqələndirmək qabiliyyəti ilə ölçülür. TRIPP bu mənada Orta dəhlizə yeni bir bağlantı və alternativ marşrut təmin edə bilər. Çindən başlayan və Mərkəzi Asiya üzərindən Xəzər dənizinə, oradan isə Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan Orta dəhlizin gələcəkdə daha çox yük daşıya bilməsi üçün yalnız mövcud marşrutların tutumunun artırılması kifayət deyil. Dəhlizin müxtəlif bağlantılarla dəstəklənməsi, nəqliyyat sisteminin daha çevik və dayanıqlı hala gətirilməsi zəruridir. Azərbaycanın əsas ərazisindən Naxçıvana, oradan isə Türkiyəyə uzanan əlaqənin gücləndirilməsi Şərq ilə Qərb arasındakı nəqliyyat şəbəkəsinin daha da şaxələndirilməsinə töhfə verəcək. Burada etibarlılıq məsələsi də mühüm əhəmiyyət daşıyır. Müasir dövrdə beynəlxalq ticarət baxımından bir marşrutun qısa olması qədər, onun siyasi baxımdan sabit, iqtisadi cəhətdən proqnozlaşdırıla bilən və texniki baxımdan etibarlı olması da əhəmiyyətlidir. TRIPP-ın həyata keçirilməsi və Azərbaycan-Ermənistan sülh prosesinin davamlı əsaslar üzərində möhkəmlənməsi Cənubi Qafqazın uzun illər ərzində münaqişə və geosiyasi rəqabət səbəbindən lazımi səviyyədə istifadə olunmayan nəqliyyat potensialının üzə çıxmasına imkan yaradacaq", - deyə türk ekspert bildirib.

O hesab edir ki, TRIPP-ın uğuru yalnız yol və ya dəmir yolu layihəsinin tamamlanması ilə deyil, Cənubi Qafqazın münaqişə məkanından iqtisadi əməkdaşlıq məkanına çevrilməsi ilə ölçülməlidir. Bundan Azərbaycan və Naxçıvanla yanaşı, Türkiyə, Mərkəzi Asiya və Avropa da faydalana bilər.

M.G.Özçubukçu Naxçıvanın Avropa ilə Asiya arasında yerləşməsini, Türkiyə ilə Azərbaycan arasında strateji bağlantı yaratmasını və İranla sərhədinin olmasını mühüm geosiyasi üstünlük kimi qiymətləndirib. O bildirib ki, yeni nəqliyyat layihələri bu üstünlükləri iqtisadi imkanlara çevirə bilər.

Ekspert "Naxçıvanın bölgənin Dubayı"na çevrilməsi fikrinə münasibət bildirərək vurğulayıb ki, bunun üçün yalnız tranzit infrastrukturunun yaradılması kifayət deyil. Logistika mərkəzləri, anbarlar, gömrük və paylama məntəqələri, sənaye parkları və ixracyönümlü müəssisələrin yaradılması vacibdir. Beləliklə, Naxçıvan tranzit məntəqəsindən əlavə dəyər yaradan logistika mərkəzinə çevrilə bilər.

"Naxçıvanın Türkiyə üzərindən Aralıq dənizi limanlarına və Avropa bazarlarına çıxışının gücləndirilməsi, həmçinin Mərkəzi Asiya ölkələrinin Avropaya çıxışında bu marşrutdan istifadə etməsi bölgənin geoiqtisadi əhəmiyyətini artıracaq. Naxçıvanın gələcək inkişafının üç əsas amildən - coğrafi mövqe, nəqliyyat əlaqələri və Azərbaycanın strateji vizyonundan asılıdır. TRIPP-ın reallaşması ilə Naxçıvan Avropa ilə Asiya arasında ticarət, logistika və investisiyaların kəsişdiyi regional mərkəzə çevrilə bilər", - deyə Özçubukçu vurğulayıb.




# NİDADAN SONRA VERGÜL QOYULMUR

*Həyatda heç nə əbədi deyil!*

*Hər şey inkişaf edir, hər şey dəyişir...*

Dəyişikliklər uğura da apara bilir, iflasa da!

Güclülər həmişə güclü qalmırlar!

Zəiflər də nə vaxtsa güclənə, haqlarını qoruya bilirlər.

Dünya tarixində deyilənlərlə bağlı çoxsaylı misallar var!

Tarixdə şəxsiyyətlərin də rolu danılmazdır!

Tarixin gedişinə təsir göstərən İskəndər, Teymurləng kimi sərkərdələr də olur, dövlətinə, xalqına bəlalar yaşadan Hitler kimi faşistlər də!

**Amma dünya sülh içində yaşayanda, dövlətlər bir-biri ilə əməkdaşlıq quranda Yer üzündə insanlar daha xoşbəxt və firavan olurlar.**

*Xoşbəxt o xalqdır ki, onun müdrik, uzaqgörən, iradəli rəhbəri olur.*

Bədbəxt o millətdir ki, özü xülyalarla yaşayır, rəhbəri isə özgələrə güvənir, mövcud reallıqları dərk etmir, dövlətini yox, özünün var-dövlətini düşünür!

*Nə yaxşı ki, bələlərini ağıllandıran, xam xəyallardan və illüziyalardan qurtaran möhtəşəm "dəmir yumruq" da vardır!*

❖ ❖ ❖

Dünya yay istirahəti edir!

Həm də növbəti mərhələlər üçün güc toplayır.

Builki yay əvvəlkilərdən bir qədər fərqlənir.

**Əvvəla, 4 ildən çoxdur davam edən Rusiya-Ukrayna müharibəsinə daha biri - İran-ABŞ-İsrail müharibəsi də əlavə olunub.**

*Rusiya-Ukrayna müharibəsi "dartma, yaxam cırıldı" prinsipi ilə gedir!*

*Eyni kökdən, eyni dindən olan, uzun illər "qardaş" sayılan iki xalq bir-birinə daha çox ziyan vurmaq üçün əllərindən gələni edirlər!*

Gecə-gündüz bilmədən raketlər, dronlar müxtəlif səmtlərə uçaraq atmosferi çömçə kimi qarışdırır.

ABŞ-İran müharibəsi isə fasilələrlə davam edir!

Danışırlar, razılaşırlar, dayanırlar, sonra yenə də dediklərinə əməl etməyərək gücü raketlərə verirlər.

NƏTİCƏDƏ:

* Mülki əhaliyə ciddi ziyanlar dəyir;

* Hörmüz boğazı bağlandığından neft qıtlığı yaranır, dünya bazarında təkcə neftin deyil, digər malların da qiymətləri qalxır;

* Atmosfer çalxalandığından leysan yağışları və doluvurmalar ara vermir;

* Sel suları böyük fəsadlar törədir;

* Üstəlik, zəlzələlər və meşə yanğınları da təkcə maddi deyil, insan tələfatına da səbəb olur!

*Rusiya ilə Ukrayna nə vaxt sülhə gələcək - bilinmir!*

*ABŞ-İran razılaşması haçan başa çatacaq - o da bəlli deyil!*

Görünən odur ki, M.Ə.Sabir demiş, "dünya çalxalanır, dünya bulanır", hətta bu bəzilərinə sərf də edir!

**Xoşbəxtlikdən Azərbaycan bu təlatümlərdən kənarda duraraq nəhəng, özünə və dünya dövlətlərinə faydalı olan layihələrini reallaşdırmaqla məşğuldur!**

❖ ❖ ❖

*Halbuki 5-6 il öncə Azərbaycan da qana bulaşmışdı!*

Amma müqəddəs qana!

30 ilədək işğalda qalan torpaqlarını azad etmək, 1 milyondan çox vətəndaşını əzablı Vətən həsrətindən qurtamaq üçün "dəmir yumruğ"u işə salmaq məcburiyyətində qalmışdı.

Səbəb sadə idi...

Ermənistan işğal etdiyi ərazilərimizdən könüllü surətdə çıxmaq istəmirdi.

BMT-nin Ermənistan qoşunlarının qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması barədə 4 qətnaməsini saya salan yox idi!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini "sülh yolu ilə" həll etmək üçün məxsusi yaradılan ATƏT-in Minsk qrupu isə yalançı danışıqlarla, "turist səfərləri" ilə məşğul idi.

Əslində, işğalı əbədiliyə çevirmək niyyətini güdürdü.

Beynəlxalq qurum və təşkilatlar isə açıq-aşkar erməni mövqeyini dəstəkləyir, bir dəfə də olsun obyektiv, həqiqətə xidmət edən sənəd və bəyanatlar qəbul etmir, beynəlxalq hüququn ayaqlar altında qaldığına göz yumurdular.

ATƏT-in həmsədr dövlətləri, eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri olan Rusiya, ABŞ və Fransa birtərəfli mövqe sərgiləməklə Ermənistana hərbi, maliyyə dəstəyi göstərir, həmin dövlətlərin parlamentləri isə Azərbaycan əleyhinə qərəzli, yalançı sənədlər və bəyanatlar qəbul edir, bizi işğalla barışmağa vadar etməyə çalışırdılar.

**Lakin həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev heç bir təsir və təzyiq cəhdləri qarşısında geri çəkilmədilər, Azərbaycana qarşı olan heç bir sənədə imza atmadılar, bir qarış torpağı belə düşmənə güzəştə getməyəcəklərini dəfələrlə bəyan etdilər!**

*Azərbaycana düşmən qüvvələr "Qarabağ münaqişəsinin hərbi yolla həlli variantı yoxdur" deməklə bizi işğala boyun əyməyə sövq edirdilər!*

Azərbaycan isə hər zaman hərbi variantın istisna edilmədiyini bildirirdi.

Əslində isə iqtisadi cəhətdən güclənərək özünə ordu yaradır, onu ən yeni texnologiyaya əsaslanan silah-sursatla təmin edirdi.

**Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı olan cənab İlham Əliyev 4 günlük Aprel döyüşlərində hərbi variantın mövcudluğunu, Azərbaycanın güclü ordu qurduğunu və "hərbi həll variantı"nın gündəlikdə olduğunu bütün dünyaya açıq şəkildə nümayiş etdirdi!**

*Amma Ermənistan və onun havadarları bu xəbərdarlıqdan da zəruri nəticə çıxarmadılar!*

❖ ❖ ❖

**3 milyonluq Ermənistan heç zaman 10 milyonluq Azərbaycana üstün gələ bilməz!**

*Azərbaycanda hakimiyyətsizlik və anarxiya mühitindən istifadə edərək Ermənistana silah və canlı qüvvə sarıdan kömək göstərən, hərbi əməliyyatlarda 366-cı polku ilə birbaşa iştirak edən Rusiya işğalın baş müəllifi idi!*

Məqsəd Azərbaycanı da Ermənistan kimi "qapazaltı" dövlətə çevirmək, onun yeraltı və yerüstü sərvətlərinə əvvəllərdə olduğu kimi sahiblik etmək, daim itaət boyunduruğunda saxlamaq, Türkiyəni hədəf edən 102-ci hərbi bazanı Ermənistanda daimi etmək və bu minvalla türk dövlətlərinin quru yolla əlaqələrini kəsərək onları bir-birindən ayrı vəziyyətdə saxlamaq idi.

**Rusiya heç zaman Azərbaycanın müstəqil dövlət olmasını istəməyib, daim imperiya ambisiyalarından çıxış edərək bizə "kiçik qardaş" kimi baxıb!**

*Ermənistan isə heç zaman "öz ağzı ilə hürməyib!"*

"dqr" və ya "artsax" adlı gülünc qurumlar yaradanda da, həmin ərazilərimizin Ermənistana birləşdirilməsi ilə bağlı qərar çıxaranda da havadarlarına arxalanıb!

**44 günlük Zəfər müharibəsi başlayanda isə heç kim harayına çata bilmədi!**

❖ ❖ ❖

Ermənilər nə vaxtsa Azərbaycanın silaha əl atacağını yaxşı bilirdilər.

Odur ki, "dost"larının köməyi ilə daim müharibəyə hazırlaşırdılar.

Özü də 90-cı illərin müharibəsinə!

Heç vaxt ağıllarına gətirmirdilər ki, Azərbaycan yeni müharibə aparar, ən yeni silahlar, fərqli taktika tətbiq edər.

Həm də əsas hücumu mərkəzdən, Ağdam istiqamətindən gözləyirdilər.

Burada isə Rusiyanın və İranın köməyi sayəsində altıqat müdafiə xətti - bu gün Hərbi Qənimətlər Parkında açıq nümayiş olunan - səngərlər, zirehli texnikanın keçə bilməməsi üçün dərin xəndəklər qazmış, "ohanyan xətti", minalanmış sahələr, tikanlı məftil sədləri, kameralarla təchiz edilmiş atəş nöqtələri qurmuş, şəxsi heyətin qorunması üçün dağların altında beton bunkerlər tikmişdilər.

Mürəkkəb relyef şəraiti də düşmənin xeyrinə işləyirdi!

*Düşmənlərimiz hər şeyi hesablamışdılar!*

Bircə məqamdan başqa:

**İlham Əliyev zəkası, iradə və qətiyyətini, sərkərdəlik məharətini və bir də nəyi nə vaxt və necə etmək qabiliyyətini!**

*Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibələr tarixində yeni səhifə sayılan Vətən müharibəsinə başladı!*

* Bu müharibədə ən yeni taktika və strategiya tətbiq olundu.

* Bu müharibədə Azərbaycan Ordusu əvvəldən axıradək hücumda oldu, bir-birinin ardınca strateji mövqeləri və yaşayış məntəqələrini ələ keçirdi!

* Bu müharibədə bir zamanlar özlərini "məğlubedilməz xalq", "məğlubedilməz ordu" adlandıranların 12 min əsgər və zabiti döyüş meydanından qaçaraq fərariyə çevrildi.

* Bu müharibədə Azərbaycan xüsusi təyinatlıları qeyri-adi qəhrəmanlıqlar göstərərək Şuşanı yalın əllə geri aldılar!

* Bu müharibədə düşmən 44 gün ərzində diz çökdürülərək kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzaladı.

* Bu müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın təkcə hərb meydanında deyil, diplomatiya və informasiya sahəsində də tam qələbəsini təmin etdi.

* Bu müharibə, əslində, bütün dünya üçün nümunəvi müharibəyə çevrildi, hamı bu təcrübədən öyrənməyə və hərb elmində onun elementlərinin tətbiqinə başladı!

**Lakin Müzəffər Ali Baş Komandan İlham Əliyevin yaratdığı hərbi möcüzələr bununla bitmədi!**

❖ ❖ ❖

*İlham Əliyev uzaqgörənliyi hadisələrin sonrakı inkişafında da özünü qabarıq göstərdi!*

Azərbaycan düşməni darmadağın etdikdən sonra hər bir imkanı və gücü olmasına baxmayaraq, sərhədləri aşmadı, bununla kifayətləndi.

Lakin Ermənistan yenə öz sözünün üstündə durmadı, imzasına hörmət qoymadı.

**Üçtərəfli Bəyanatın üç mühüm bəndini yerinə yetirmədi: silahlı qüvvələrinin tör-töküntülərini və terrorçu qruplaşmalarını ərazimizdən çıxarmaq istəmədi, Laçın dəhlizinin Azərbaycanın nəzarətinə verilməsini yubatdı və Zəngəzur dəhlizinin (TRIPP) açılmasını sanki unutdu!**

*Üçtərəfli Bəyanatın icrasına zəmanət verərək ona imza atan Rusiya da öhdəliklərin icrasına biganə yanaşdı!*

**"Dəmir yumruq" yenidən işə düşməli oldu!**

* Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə əvvəlcə 2023-cü ilin aprelində Həkəri çayı üzərindəki postda unikal əməliyyat keçirilərək Laçın dəhlizinə nəzarət Azərbaycana qaytarıldı.

* Həmin ilin 19-20 sentyabrında isə cəmi 23 saat davam edən antiterror tədbirləri nəticəsində düşmən ordusunun qalıqları və terrorçu dəstələr ağ bayraq qaldıraraq təslim oldular!

* Azərbaycan həm tərk-silah edilmiş hərbçilərin, həm də Azərbaycan qanunları əsasında yaşamaq istəməyən Ermənistan vətəndaşlarının sərbəst və sakit şəkildə ölkəmizi tərk etmələrinə şərait yaratdı.

*II Qarabağ müharibəsində Ermənistan Rusiyadan heç bir kömək ala bilmədi!*

*Əvvəla,* hərbi əməliyyatlar Azərbaycanın ərazisində getdiyinə görə öz nizamnaməsini əsas tutan KTMT (orada əsas söz sahibi Rusiyadır) hərbi əməliyyatlara qarışa bilmədi.

*İkincisi,* Rusiya müharibədən əvvəl və müharibə dövründə Ermənistana silah-sursat sarıdan hər cür kömək göstərsə də, Türkiyə amilinə görə açıq müdaxiləyə cürət etmədi.

* Hətta qarşılıqlı razılığa əsasən sülhməramlı qüvvələrini Azərbaycan ərazisindən birdəfəlik çıxardı.

*Ötən il avqustun 8-də ABŞ-də Prezident D.Trampın iştirakı ilə bir sıra mühüm sənədlər imzalandı və sülh sazişi layihəsi parafland.*

**44 günlük Zəfər müharibəsi və sonrakı addımları sayəsində işğala və Qarabağ münaqişəsinə birdəfəlik son qoyan Azərbaycan hazırda Orta dəhlizin və onun əsas elementlərindən biri sayılan TRIPP-ın (Zəngəzur dəhlizinin) işə salınması və keçmiş məcburi köçkünlərin sürətlə doğma yurd-yuvalarına qaytarılması ilə məşğuldur.**

❖ ❖ ❖

Növbəti parlament seçkilərindən sonra Ermənistanda vəziyyət "ruscadır!"

Rusiya bütün imkanlarını işə salsa da, R.Köçəryana, milyarder edərək əlaltısına çevirdiyi S.Karapetyana, Q.Sarukyana hərtərəfli dəstək versə də, üzünü Qərbə tərəf çevirən Paşinyanı hakimiyyətdən tam kənarlaşdıra bilmədi.

Əvəzində qisasçıları fəallaşdırdı...

Parlamentdə konstision çoxluğu qazana bilməyən Paşinyanın Azərbaycanın dəyişməz sülh şərtinin - Ermənistan konstitusiyasından ərazi iddialarının çıxarılması üçün yeni referendum keçirilməsi və bu məsələdə istəyinə nail olması bir o qədər də asan başa gəlməyəcəkdir!

*Zəfər qazanmış, düşməni diz üstə qoyaraq kapitulyasiya aktını imzalatdırmış Azərbaycanın sülh təklifi ilə çıxış etməsi, Ermənistanı blokadadan çıxarması Ermənistan dövləti və erməni xalqı üçün böyük bir şansdır.*

**Əgər bu imkanı əldən versə, "böyük Ermənistan" xülyasını başından çıxarmasa, real Ermənistanı da itirə bilər!**

Bunu Baş nazir N.Paşinyan yaxşı anlayır!

**Qisas müharibəsinə başlamaq niyyətinə düşdükləri təqdirdə isə...**

* 44 gündə ordularının necə darmadağın edildiyini;

* Hərbi əməliyyatların dayandırılması üçün neçə-neçə dövlət başçılarının dabanını yalayaraq Azərbaycana minnətçi saldıqlarını;

* Silah-sursatlarını, zirehli texnikalarını, gücləndirilmiş mövqelərini ataraq necə qaçdıqlarını;

* 12 min əsgər və zabitinin qorxaq fərariyə çevrildiyini;

* Alınmaz qalaya çevirdikləri Ağdam, Laçın və Kəlbəcər rayonlarını döyüşsüz geri qaytardıqlarını;

* "Yaşma" adı gələndə girməyə deşik axtardıqlarını;

* Azərbaycanın bütün şərtlərini qəbul edərək təslim aktını "qaranlıq bir yerdə" necə imzaladıqlarını;

HEÇ ZAMAN UNUTMASINLAR!

❖ ❖ ❖

**Orfoqrafiyanın pozulmaz qaydasıdır: nidadan sonra vergül qoyulmur!**

**Həyatda da belədir: o məsələyə ki, nida qoyulub, deməli bitib!**

Təzədən onu vergülə çevirmək, yenidən mübahisələndirmək mənasızdır!

Çünki nidanı, adətən, güclü tərəf qoyur!

İddialı tərəf isə nida qoyulanadək istəyini təmin etməlidir.

Əgər buna gücü və imkanı çatırsa!

*Əks halda, nəticə eyni olacaq: bir dəfə nida qoyan, ikinci dəfə istədiyini edərək məqsədinə çatacaqdır!*

İddiaçı tərəfə isə yenidən itkilər yaşamaq və daha bir məğlubiyyətə yuvarlanmaq nəsib olacaqdır!

**Həyatın daha bir pozulmaz qanunu var:**

**Yalnız arzu imkanla bir yerdə olanda istək gerçəkliyə çevrilir!**

*Təkcə arzuya arxalanaraq düşünülməmiş addım atanların isə başına faciə və müsibətlər gələr!*

Xüsusən də qarşında güclü və hər an sarsıdıcı zərbə endirməyə hazır vəziyyətdə gözləyən "dəmir yumruq" olduqda!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u kimi möhtəşəm və Vətən müharibəsində sınaqdan uğurla çıxmış "dəmir yumruq" olduqda!**

**Bəxtiyar SADIQOV**

# 107 İL SƏRHƏDLƏRİMİZİN KEŞİYİNDƏ

**Azərbaycanın dövlətçilik tarixində sərhəd anlayışı hər zaman xüsusi məna daşıyıb. Sərhəd yalnız dövlətləri bir-birindən ayıran coğrafi xətt deyil. Sərhəd müstəqilliyin, suverenliyin, ərazi bütövlüyünün və milli təhlükəsizliyin təcəssümüdür. Dövlətin qüdrəti onun sərhədlərinə nəzarət etmək, onları qorumaq və hər bir təhdiddən etibarlı müdafiə etmək imkanları ilə də ölçülür.**

**1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən ölkə ərazisində 99 sərhəd mühafizə postunun yaradılmasını nəzərdə tutan qanunun qəbul edilməsindən 107 il ötür. Bu illər ərzində Azərbaycan sərhədçisi müxtəlif tarixi mərhələlərdən keçib, böyük çətinliklərlə üzləşib, lakin Vətənin hüdudlarını qorumaq kimi müqəddəs missiyaya daim sədaqətlə xidmət edib.**

**Bu gün Azərbaycan Sərhəd Mühafizəsi özünün 107-ci ildönümünü tamamilə fərqli siyasi və hərbi reallıqlar şəraitində qarşılayır. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş qalib dövlətdir. Bir vaxtlar işğal altında olan sərhədlərimizdə bu gün üçrəngli Dövlət bayrağımız dalğalanır, sərhədçilərimiz həmin ərazilərdə Vətənin keşiyini çəkirlər.**

**Azərbaycan Sərhəd Mühafizəsinin keçdiyi tarixi yol, Ümummilli Lider Heydər Əliyevin milli sərhəd təhlükəsizliyi strategiyası, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə sərhəd mühafizəsinin inkişafı, Azərbaycan sərhədçilərinin Vətən müharibəsində qəhrəmanlığı, işğaldan azad olunmuş ərazilərdə dövlət sərhədinin mühafizəsinin təşkili, müasir çağırışlar və qarşıda duran vəzifələr barədə "Azərbaycan" qəzetinin suallarını Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Abbas XƏLİLOV cavablandırır.**



> **"İstənilən ölkənin təhlükəsizliyi onun sərhədlərinin təhlükəsizliyi ilə təmin olunur. Sərhədlər nə qədər etibarlı qorunarsa, o qədər də vətəndaşlarımız sülh və əmin-amanlıq şəraitində yaşayacaqdır. Buna görə biz Azərbaycanda sərhəd xidmətinin inkişafına böyük diqqət yetirmişik və yetirəcəyik".**
>
> ***İlham ƏLİYEV,***
> ***Azərbaycan Respublikasının Prezidenti,***
> ***Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı***

## "Azərbaycan sərhədçisi qalib dövlətin sərhədlərini qorumağın şərəfini və məsuliyyətini daşıyır"

### *Müsahibimiz Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Abbas XƏLİLOVDUR*

*- Cənab general-leytenant, Azərbaycan Sərhəd Mühafizəsinin 107-ci ildönümünü hansı hisslərlə qarşılayırsınız?*

- 18 avqust hər bir Azərbaycan sərhədçisi üçün son dərəcə əlamətdar, qürurlu və şərəfli gündür. 107 illik tarix, sadəcə, müəyyən bir zaman kəsiyi deyil. Bu tarix Azərbaycan dövlətçiliyinin, dövlət sərhədinin toxunulmazlığının təmin edilməsi uğrunda aparılmış mübarizənin, sərhədçi nəsillərin fədakar xidmətinin salnaməsidir.

1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin sərhəd mühafizəsinin təşkilinə dair qəbul etdiyi qərar milli sərhədçilik tariximizin mühüm başlanğıc nöqtəsidir. Azərbaycan Xalq Cümhuriyyətinin ömrü qısa olsa da, müstəqil dövlətin öz sərhədinə sahib olması və onu öz qüvvələri ilə qoruması ideyası milli dövlətçilik təfəkkürümüzə birdəfəlik həkk olunmuşdu.

Azərbaycan sərhədçisi bu illər ərzində müxtəlif tarixi mərhələlərdən keçib. Bu yolun ən böyük yüksəliş və intibah dövrü isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

İllərlə hər birimizin arzuladığı mənzərə bu gün reallıqdır: Azərbaycanın bütün sərhədlərində üçrəngli Dövlət Bayrağımız dalğalanır. Bundan böyük qürur yoxdur.

*- Azərbaycan Sərhəd Mühafizəsinin formalaşmasında və inkişafında Ümummilli Lider Heydər Əliyevin rolunu necə səciyyələndirərdiniz?*

- Azərbaycan Sərhəd Mühafizəsinin müasir inkişaf tarixini Ümummilli Lider Heydər Əliyevin adı olmadan təsəvvür etmək mümkün deyil. Ulu Öndər hələ sovet dövründə milli hərbi kadrların, o cümlədən sərhədçi zabitlərin hazırlanmasına strateji məsələ kimi yanaşırdı. Həmin illərdə Sərhəd Qoşunlarında azərbaycanlı zabitlərin sayının çox az olması onun diqqətindən yayınmırdı. Heydər Əliyevin təşəbbüsü və ardıcıl fəaliyyəti nəticəsində azərbaycanlı zabitlərin hərbi xidmətə cəlb edilməsi, onların peşəkar inkişafının təmin olunması və rəhbər vəzifələrə irəli çəkilməsi istiqamətində çox mühüm dəyişikliklər baş verdi.

1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması isə bütövlükdə milli hərbi kadr potensialımızın formalaşması baxımından tarixi hadisə oldu. Dahi Öndər həmin qərarla yalnız mövcud dövrün deyil, Azərbaycanın gələcəyinin hərbi kadr bazasının əsasını yaratdı.

Müstəqilliyimizin ilk illərində ölkədə hökm sürən mürəkkəb hərbi-siyasi vəziyyət sərhədlərin etibarlı mühafizəsinin təşkilinə ciddi maneələr yaradırdı. Lakin 1992-ci ildə Naxçıvanda baş verən proseslər bir daha Heydər Əliyevin siyasi iradəsinin, dövlətçilik düşüncəsinin və qətiyyətinin gücünü göstərdi. Naxçıvan Ali Məclisinin Sədri kimi onun qətiyyətli mövqeyi nəticəsində 1992-ci il avqustun 22-də Naxçıvan sərhəd dəstəsinin yaradılması elan edildi. Həmin ilin sentyabrında keçmiş sovet sərhədçiləri Naxçıvanı tərk etdilər və hərbi əmlakın, silah-sursatın ərazidə saxlanılması təmin olundu.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra dövlətin bütün sahələrində olduğu kimi, sərhəd mühafizəsində də əsaslı islahatlara başlanıldı. Sərhəd Qoşunlarının idarəetmə sistemi təkmilləşdirildi, yeni sərhəd dəstələri yaradıldı, maddi-texniki təminatı yaxşılaşdırıldı, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində sistemli tədbirlər görüldü.

Ulu Öndərin 2000-ci il avqustun 16-da imzaladığı fərmanla avqustun 18-nin Azərbaycan Respublikası Sərhəd Mühafizəsi Orqanları Əməkdaşlarının Peşə Bayramı Günü elan edilməsi isə milli sərhədçilik tariximizin varisliyinə verilmiş böyük qiymət oldu.

*- Azərbaycan Sərhəd Mühafizəsinin müasir çağırışlar fonunda inkişafını necə qiymətləndirirsiniz?*

- Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən olunmuş milli sərhəd təhlükəsizliyi strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni tarixi mərhələdə uğurla inkişaf etdirilib.



Son illərdə Dövlət Sərhəd Xidmətinin döyüş və texniki imkanları əsaslı şəkildə artırılıb, yeni hərbi hissələr, sərhəd zastavaları, sərhəd-döyüş məntəqələri, təlim mərkəzləri və digər mühüm infrastruktur obyektləri yaradılıb.

Sərhəd mühafizəsində ən müasir texnologiyaların tətbiqi genişləndirilib. Elektron-optik müşahidə vasitələri, radiolokasiya sistemləri, pilotsuz uçuş aparatları, müasir rabitə vasitələri, xüsusi təyinatlı nəqliyyat və mühəndis texnikası xidməti fəaliyyətimizin ayrılmaz hissəsinə çevrilib.

Dövlət Sərhəd Xidmətinin qarşısında duran mühüm vəzifələrdən biri istənilən relyef və hava şəraitində fasiləsiz sərhəd mühafizəsini təmin edə bilən mobil, yüksək döyüş hazırlıqlı və müasir texnologiyalarla təchiz edilmiş qüvvələrin formalaşdırılmasıdır.

2026-cı il üçün Dövlət Sərhəd Xidməti qarşısında müəyyənləşdirilmiş əsas istiqamətlər sırasında dövlət sərhədinin texniki vasitələrlə mühafizə və müdafiəsinin daha da gücləndirilməsi, çətin relyef və hava şəraitində tapşırıqları yerinə yetirə bilən hərbi qulluqçuların hazırlığının yüksəldilməsi, döyüş hazırlığının və hərbi intizamın daim yüksək səviyyədə saxlanılması xüsusi yer tutur.

Prezident cənab İlham Əliyevin Dövlət Sərhəd Xidmətinə göstərdiyi diqqət və yüksək etimad Azərbaycan sərhədçiləri tərəfindən böyük məsuliyyətlə qarşılanır.

*- Azərbaycan sərhəd mühafizəsinin dəniz imkanlarının genişlənməsi hansı əhəmiyyətə malikdir?*

- Azərbaycan Xəzəryanı dövlətdir və dəniz sərhədlərimizin etibarlı mühafizəsi milli təhlükəsizlik sistemimizin mühüm tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2005-ci il tarixli sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılması bu sahədə yeni inkişaf mərhələsinin əsasını qoydu.

Sonrakı illərdə Sahil Mühafizəsinin infrastrukturu əsaslı şəkildə inkişaf etdirildi, texniki-müşahidə imkanları genişləndirildi, müasir kater və sərhəd gəmilərinin istifadəyə verilməsi təmin edildi.

Dövlət Sərhəd Xidmətinin Gəmi İnşası və Təmiri Mərkəzinin yaradılması isə Azərbaycan sərhəd mühafizəsinin dəniz imkanlarını keyfiyyətcə yeni mərhələyə yüksəltdi.

Bu gün Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi Xəzər dənizinin Azərbaycan sektorunda dövlət sərhədinin mühafizəsi, sərhəd rejiminin təmin olunması, qanunsuz fəaliyyətlərin qarşısının alınması, strateji əhəmiyyətli enerji infrastrukturunun təhlükəsizliyinin təmin edilməsində üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir.

*- Peşəkar sərhədçi kadrların hazırlanması bu sistemdə hansı yeri tutur?*

- İstənilən müasir texnikanın arxasında onu idarə edən insan dayanır. Ən müasir silaha, müşahidə sisteminə və texnologiyaya sahib olmaq kifayət deyil. Əsas məsələ həmin vasitələrdən düzgün istifadə etməyi bacaran, yüksək intizama, möhkəm iradəyə və vətənpərvərlik hissinə malik peşəkar şəxsi heyətin yetişdirilməsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 iyun 2007-ci il tarixli sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin Akademiyasının yaradılması bu baxımdan tarixi əhəmiyyət daşıyır.

Akademiyada gələcəyin sərhədçi zabitləri həm nəzəri biliklərə, həm praktiki bacarıqlara, həm də müasir hərbi idarəetmə vərdişlərinə yiyələnirlər.

Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin fəaliyyəti də milli sərhədçi kadrların hazırlanması sisteminin mühüm hissəsidir. Məktəbin əsas missiyası Vətəninə, dövlətinə və xalqına sədaqətli, fiziki və mənəvi cəhətdən sağlam, yüksək intizamlı Azərbaycan gənclərinin yetişdirilməsidir.

Bizim üçün sərhədçi anlayışı yalnız müəyyən peşənin adı deyil. Sərhədçi olmaq xarakterdir. Sərhədçi ən çətin anda düzgün qərar verməyi, məsuliyyəti üzərinə götürməyi, dövlət maraqlarını hər şeydən üstün tutmağı bacarmalıdır. Azərbaycan sərhədçisinin ən mühüm silahlarından biri də onun Vətəninə sədaqətidir.

*- Vətən müharibəsi Azərbaycan sərhədçisinin döyüş tarixində hansı yeri tutur?*

- Vətən müharibəsi xalqımızın və dövlətimizin tarixində əbədi yaşayacaq möhtəşəm Zəfər salnaməsidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 ilə yaxın davam edən işğala son qoydu, tarixi ədaləti döyüş meydanında bərpa etdi. Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də müharibənin ilk günündən bütün qüvvə və vasitələri ilə qarşıya qoyulmuş tapşırıqların icrasına səfərbər olundu.

Azərbaycan sərhədçiləri Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində gedən döyüşlərdə, Hadrut və Şuşanın azad edilməsi uğrunda aparılan əməliyyatlarda qəhrəmanlıq və rəşadət nümayiş etdirdilər.

Xudafərin körpüsü üzərində üçrəngli Azərbaycan Bayrağının ucaldılması sərhədçilərimizin yaddaşında xüsusilə unudulmaz hadisədir. Ardınca Zəngilan şəhərində və Azərbaycanın Ermənistanla dövlət sərhədinin mühüm istiqamətlərində Dövlət Bayrağımızın ucaldılması illərlə həsrətində olduğumuz tarixi anlar idi.

Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələrinin, aviasiya və pilotsuz uçuş aparatları heyəti, eləcə də digər bölmələrin peşəkarlığı döyüş əməliyyatlarında özünü yüksək səviyyədə göstərdi. Azərbaycan sərhədçiləri sübut etdilər ki, onlar yalnız dövlət sərhədini mühafizə edən qüvvə deyil, Vətən qarşısında zərurət yarandıqda ən mürəkkəb döyüş tapşırığını yerinə yetirməyə qadir olan peşəkar hərbçilərdir.

Bu Zəfər, ilk növbədə, Azərbaycan xalqının birliyinin, dövlətimizin uzun illər ərzində məqsədyönlü şəkildə gücləndirdiyi hərbi potensialın və Müzəffər Ali Baş Komandanın qətiyyətli rəhbərliyinin nəticəsi idi.

Biz Vətən müharibəsində şəhid olmuş 47 sərhədçimizin əziz xatirəsini daim qəlbimizdə yaşadırıq. Onların hər biri Azərbaycan sərhədçisinin qəhrəmanlıq tarixinin əbədi səhifəsidir.

*- Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə sərhəd mühafizəsinin təşkili olduqca mürəkkəb vəzifə idi. Bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiniz?*

- Vətən müharibəsinin başa çatması Dövlət Sərhəd Xidməti üçün yeni və son dərəcə məsuliyyətli mərhələnin başlanğıcı oldu. İşğaldan azad edilmiş yüzlərlə kilometr dövlət sərhədinin qısa müddətdə mühafizəyə götürülməsi, həmin ərazilərdə sıfırdan müasir sərhəd infrastrukturlarının qurulması, hərbi hissələrin, sərhəd zastavalarının və sərhəd-döyüş məntəqələrinin yaradılması tələb olunurdu. Azərbaycan sərhədçiləri bu vəzifələrin öhdəsindən layiqincə gəldilər.

İran İslam Respublikası ilə işğaldan azad edilmiş dövlət sərhədində sərhəd zastavalarının fəaliyyəti bərpa edildi, Ermənistanla sərhədin Zəngilan, Qubadlı və Laçın istiqamətlərində yeni infrastrukturlar yaradıldı.

Bəzən bunun tarixi miqyasını gündəlik həyatda tam dərk etmirik.

Uzun illər Azərbaycan xalqı xəritədə öz dövlət sərhədinin müəyyən hissəsini gördü, lakin həmin ərazilərə faktiki nəzarət edə bilmirdi. Bu gün isə dövlət sərhədimizin həmin hissələrində Azərbaycan əsgəri dayanır. Bu, Vətən müharibəsində əldə edilmiş Qələbənin ən mühüm nəticələrindən biridir.

*- 23 aprel 2023-cü ildə "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması da müasir sərhədçilik tariximizin mühüm hadisələrindən hesab olunur.*

- Şübhəsiz! "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin yaradılması Azərbaycanın öz dövlət sərhədinə nəzarət imkanlarının təmin olunması baxımından mühüm tarixi hadisə idi.

23 aprel 2023-cü ildə Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında dövlət sərhədindən buraxılış məntəqəsi quruldu və Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldıldı. Dövlət sərhəd-buraxılış məntəqəsinin fəaliyyətə başlaması Azərbaycanın suveren hüquqlarının təmin olunması istiqamətində mühüm mərhələ oldu.

Daha sonra 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazisində dövlət suverenliyi tam təmin edildi. 2023-cü il oktyabrın 15-də Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağının ucaldılması, noyabrın 8-də isə Xankəndidə keçirilmiş hərbi parad hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq tarixi hadisələrdir.

Azərbaycan sərhədçisi bu gün məhz həmin qalib dövlətin sərhədlərini qoruyur.

*- 2024-cü ildə Qazax rayonunun dörd kəndinin ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması hansı tarixi əhəmiyyət daşıyır?*

- 24 may 2024-cü il sərhəd tariximiz üçün xüsusi əhəmiyyət kəsb edir. Həmin gün Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü və həmin ərazilərdə Dövlət Bayrağımız yüksəldi.

Burada xüsusilə mühüm məqam ondan ibarət idi ki, nəticə hərbi əməliyyat olmadan, delimitasiya prosesi çərçivəsində əldə edildi. Bu hadisə Azərbaycanın hərbi Qələbədən sonra yaratdığı yeni siyasi reallığın, dövlətimizin gücünün və diplomatik imkanlarının göstəricisi idi.

Dövlət sərhədinin müəyyənləşdirilməsi və onun mühafizəsinin təşkili uzunmüddətli sülhün də mühüm şərtlərindən biridir. Bu baxımdan, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri arasında keçirilmiş görüşün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması, həmçinin iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması mühüm siyasi mərhələ olmuşdur. 2026-cı ildə də sərhədlərin delimitasiyası prosesi davam etdirilir.

Sülhün möhkəm olması üçün dövlətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət etməsi əsas şərtdir. Azərbaycan sərhədçisinin missiyası da məhz dövlətimizin müəyyən edilmiş sərhədlərinin toxunulmazlığını etibarlı şəkildə qorumaqdır.

*- Müasir dövrdə sərhəd təhlükəsizliyinə qarşı hansı əsas təhdidlər mövcuddur?*

- Müasir dünyada sərhəd təhlükəsizliyi əvvəlki dövrlərlə müqayisədə daha mürəkkəb və çoxşaxəli xarakter daşıyır. Qeyri-qanuni miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq, transmilli mütəşəkkil cinayətkarlıq, terrorçuluq, saxta sənədlərdən istifadə və digər qanunsuz fəaliyyətlər sərhəd təhlükəsizliyinə qarşı əsas təhdidlər sırasındadır.

Texnologiyanın sürətli inkişafı cinayətkar qrupların istifadə etdiyi metodların da dəyişməsinə səbəb olur. Bu gün sərhədçilər təkcə ənənəvi sərhəd pozucusu ilə deyil, müasir texnoloji imkanlardan istifadə edən mütəşəkkil qruplarla da qarşılaşırlar. Son dövrdə narkotik vasitələrin qanunsuz daşınmasında pilotsuz uçuş aparatlarından istifadə hallarının qeydə alınması bunun bariz nümunəsidir. Ona görə sərhəd mühafizəsi sistemi daim yenilənməli, təhdiddən bir addım öndə olmalıdır.

2025-ci ildə Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədini pozduqlarına görə 516 nəfər, sərhəd rejimini pozduqlarına görə 1226 nəfər, hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 3922 nəfər saxlanılıb. İl ərzində DSX-nin struktur qurumları tərəfindən və digər hüquq-mühafizə orqanları ilə birgə 4 ton 311 kiloqram 864 qram narkotik vasitənin, 78 min 457 ədəd müxtəlif tərkibli həbin dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb.

Bu mübarizə 2026-cı ildə də eyni qətiyyətlə davam etdirilir. Belə ki, bu ilin ilk 6 ayı ərzində Dövlət Sərhəd Xidmətinin struktur qurumları tərəfindən həyata keçirilən məqsədyönlü və ardıcıl tədbirlər nəticəsində 1 ton 630 kiloqram 280 qram narkotik vasitə, 43 min 251 ədəd müxtəlif tərkibli həb aşkar edilərək qanunsuz dövriyyədən çıxarılmışdır. Bütün bunların arxasında sərhədçilərimizin sayıqlığı, peşəkarlığı və böyük əməyi dayanır.

*- Dövlət sərhədindən buraxılış məntəqələrində xidmətin təşkili də cəmiyyətin daha çox gördüyü fəaliyyət sahələrindəndir. Burada əsas prinsipiniz nədən ibarətdir?*

- Dövlət sərhədindən buraxılış məntəqəsi dövlətin qapısıdır. Ölkəmizə gələn əcnəbi vətəndaş çox vaxt Azərbaycan dövlətinin nümayəndəsi kimi ilk olaraq sərhədçini görür. Buna görə sərhəd nəzarətində təhlükəsizliklə yanaşı, xidmət mədəniyyəti və etik davranış da son dərəcə vacibdir. Əsas məqsəd dövlət təhlükəsizliyinə xələl gətirmədən sərhəddən keçid prosesini mümkün qədər operativ, şəffaf və rahat təşkil etməkdir.

Müasir informasiya sistemlərinin, biometrik texnologiyaların, elektron məlumat bazalarının tətbiqi sənədlərin yoxlanılması imkanlarını artırır və sərhəd nəzarətinin etibarlılığını daha da yüksəldir.

Saxta sənədlərin müəyyən edilməsi, axtarışda olan şəxslərin vaxtında aşkarlanması, ölkəyə girişi və ya ölkədən çıxışı məhdudlaşdırılmış şəxslərlə bağlı qanunvericiliyin tələblərinin icrası sərhəd nəzarətinin mühüm istiqamətləridir.

Sərhədçidən həm peşəkarlıq, həm yüksək diqqət, həm də mədəni davranış tələb olunur. Çünki sərhədçi həmin anda təkcə özünü deyil, Azərbaycan dövlətini təmsil edir.

*- Sərhədçi peşəsinin əsas xüsusiyyəti nədir?*

- Mən ilk növbədə Vətənə, xalqa və Ali Baş Komandana sədaqət deyərdim. Azərbaycan sərhədçisi bilməlidir ki, onun arxasında doğma şəhərlərimiz, kəndlərimiz, ailələrimiz və bütövlükdə Azərbaycan xalqı dayanır. O, gecə-gündüz, bayram və istirahət günü anlayışı olmadan xidmət edir ki, ölkə vətəndaşı öz gündəlik həyatını təhlükəsiz və əmin-amanlıq şəraitində yaşaya bilsin. Bu, görünməyən, lakin dövlət üçün əvəzsiz xidmətdir.

Digər mühüm xüsusiyyətlər isə məsuliyyət və sayıqlıqdır. Sərhədçi xidmət zamanı verdiyi qərarın arxasında dövlətin təhlükəsizliyinin dayandığını bilməlidir.

Sərhəd xəttində bəzən saniyələr ərzində qərar qəbul etmək tələb olunur. Həmin qərarın düzgün olması üçün isə illərlə formalaşan peşəkarlıq, təcrübə, intizam və hazırlıq lazımdır. Sərhəddə "əhəmiyyətsiz detal" anlayışı yoxdur. Bəzən ilk baxışdan adi görünən bir hərəkət böyük qanunsuz fəaliyyətin əlaməti ola bilər.

*- Bildiyimizə görə, şəhid sərhədçilərin ailələrinə və qazilərə münasibət Dövlət Sərhəd Xidmətində xüsusi ənənəyə çevrilib.*

- Şəhidlərimizin ailələrinin qayğısına qalmaq bizim üçün yalnız xidməti vəzifə deyil, mənəvi borcdur. Vətən müharibəsində və dövlət sərhədinin mühafizəsi zamanı canlarını fəda etmiş hərbi qulluqçularımızın hər biri bizim silahdaşımız, qardaşımızdır. Onların övladları bizim övladlarımızdır.

Şəhid ailələrinin daim diqqətdə saxlanılması, onların sosial problemlərinin həllinə kömək göstərilməsi, şəhidlərin doğum və anım günlərində ailələrinin və məzarlarının ziyarət edilməsi Dövlət Sərhəd Xidmətində formalaşmış ənənələrdəndir. Qazilərimizin sağlamlığının bərpasına, onların müalicəsinin təşkilinə və sosial təminat məsələlərinin həllinə də xüsusi diqqət göstərilir.

Azərbaycan sərhədçisi yaxşı bilir ki, bu gün onun xidmət etdiyi azad torpaqların hər qarışında şəhid qanı var. Biz şəhidlərimizi heç vaxt unutmayacağıq. Onların qəhrəmanlıq yolu gələcək sərhədçi nəsillərinin vətənpərvərlik məktəbidir.

*- Azərbaycan sərhədçisinin sosial və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin xidməti fəaliyyətə təsiri necədir?*

- Hərbi qulluqçunun döyüş hazırlığı ilə yanaşı, onun sosial təminatı, ailəsinin rifahı, yaşayış şəraiti və mənəvi-psixoloji vəziyyəti də böyük əhəmiyyət daşıyır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali diqqət və qayğısı nəticəsində bu istiqamətdə uzun illər ərzində böyük layihələr həyata keçirilib. Sərhədçilərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə çoxsaylı mənzillər və yaşayış komplekslər tikilib, xidməti mənzillər əsaslı təmir edilərək şəxsi heyətin istifadəsinə verilib. İşğaldan azad edilmiş ərazilərdə xidmət aparan şəxsi heyət üçün də müasir yaşayış və xidmət şəraitinin yaradılması istiqamətində geniş işlər görülüb.

Bunun çox böyük mənəvi əhəmiyyəti var. Dövlətin sərhədçiyə göstərdiyi etimad və qayğı bizim üçün həm böyük mənəvi dayaq, həm də əlavə məsuliyyətdir.

*- Sonsuz bir yolun 107-ci döngəsində bugünkü Azərbaycan Sərhəd Mühafizəsini bir neçə cümlə ilə necə xarakterizə edərdiniz?*

- Güclü dövlətin güclü sərhəd mühafizəsi var. Bu gün Azərbaycan Sərhəd Mühafizəsi öz tarixinin ən qüdrətli dövrlərindən birini yaşayır. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş qalib dövlətdir və Azərbaycan sərhədçisi ərazi bütövlüyü və suverenliyi tam olan dövlətimizin sərhədlərinin keşiyində dayanır. Bu gün sərhədçinin qarşısında yalnız bir məqsəd var: ona etibar edilmiş Vətən sərhədini göz bəbəyi kimi qorumaq.

Biz 107 illik tariximizi böyük qürurla xatırlayırıq. Lakin sərhədçi üçün keçmişlə fəxr etmək kifayət deyil. Hər yeni gün yeni məsuliyyət, yeni tapşırıq, yeni çağırış deməkdir.

Dünyada təhlükəsizlik mühiti dəyişir, yeni risk və təhdidlər meydana çıxır, texnologiyalar inkişaf edir. Biz də inkişaf etməli, daim öyrənməli, peşəkarlığımızı artırmalı və istənilən təhdidə hazır olmalıyıq. Azərbaycan sərhədçisi hər zaman dövrün çağırışından bir addım öndə olmalıdır.

*- Cənab general-leytenant, peşə bayramı münasibətilə dövlət başçısı tərəfindən dünən Dövlət Sərhəd Xidmətinin bir sıra hərbi qulluqçuları təltif edilmişlər. Bütün təltif olunanlara və ümumilikdə sərhədçilərə nə demək istərdiniz?*

- İlk növbədə qeyd etməliyəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmişə olduğu kimi bu xüsusi gündə də diqqət və qayğısını Dövlət Sərhəd Xidmətinin əməkdaşlarından əsirgəmədi. Bu təltiflər dövlətin yüksək qiymətinin bir təzahürüdür.

Fürsətdən istifadə edərək Azərbaycan Sərhəd Mühafizəsinin yaradılmasının 107-ci ildönümü və 18 avqust - sərhəd mühafizəsi orqanları əməkdaşlarının peşə bayramı münasibətilə təltif olunanları, eyni zamanda Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyətini, sərhədçi veteranlarımızı və onların ailə üzvlərini ürəkdən təbrik edirəm.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü, suverenliyi və dövlət sərhədlərinin toxunulmazlığı uğrunda canlarından keçmiş bütün şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edirəm. Qazilərimizə möhkəm cansağlığı arzulayıram.

Vətən sərhəddən başlayır və sərhəddə dalğalanan üçrəngli Dövlət Bayrağımız bizim qürurumuz, şəhidlərimizin bizə əmanəti, gələcək nəsillər qarşısında isə məsuliyyətimizdir.

Bu bayraq daim yüksəklərdə dalğalanacaq, Azərbaycan sərhədçisi isə onun keşiyində daim ayıq-sayıq dayanacaq!

***Müsahibəni apardı:***
***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***



# Qlobal nüfuzun təzahürü

## G20 sammitinə Azərbaycan Prezidentinin dəvət olunması Bakının qlobal siyasət və iqtisadiyyat xəritəsindəki yerini göstərir

**Azərbaycanın xarici siyasət kursu regional sərhədləri aşaraq qlobal miqyasda həlledici nüfuz qazanıb. Bu gün ölkəmiz yalnız Cənubi Qafqazın deyil, Avrasiyanın vacib nəqliyyat, enerji və "yaşıl keçid" qovşağı kimi qlobal siyasi masada aparıcı mövqeyə sahibdir. Bu nüfuzun ən bariz göstəricisi Azərbaycanın dünyanın ən nəhəng iqtisadiyyatlarını bir araya gətirən G20 sammitinə dəvət edilməsidir.**

### Azərbaycan modeli

ABŞ Prezidenti Donald Tramp tərəfindən Prezident İlham Əliyevin cari il dekabrın 14-15-də Mayamidə keçiriləcək G20 sammitinə dəvət olunması Bakının qlobal siyasət və iqtisadiyyat xəritəsindəki yerini köklü şəkildə dəyişən geostrateji hadisədir.

Mayamidə keçiriləcək G20 sammitinə Azərbaycanın dəvət olunması, sadəcə, növbəti tədbir deyil, ölkəmizin qlobal çəkisinin beynəlxalq səviyyədə qəbuludur.

G20 sammiti dünyanın ən böyük 20 iqtisadiyyatını qərarlar qəbul etdiyi platformadır. Bakının bura dəvəti göstərir ki, Vaşinqton və digər aparıcı paytaxtlar Azərbaycanı qlobal problemlərin həllinə töhfə verən güc mərkəzi kimi görürlər.

Həmçinin Birləşmiş Ştatların təşkilatçılığı ilə baş tutacaq bu sammitə məhdud sayda qonaq ölkənin nümayəndəsinin dəvət edilməsi Azərbaycanın regional çərçivədən çıxaraq qlobal miqyasda aparıcı aktora çevrildiyini nümayiş etdirir.

Ölkəmizin Böyük İyirmiliyə dəvəti təsadüfi diplomatik jest deyil. Vətən müharibəsində ərazi bütövlüyünü və suverenliyini bərpa edərək yeni geosiyasi reallıq yaradan Azərbaycan regiona davamlı sülh və qarşılıqlı iqtisadi inteqrasiya modeli gətirib.

Ötən il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sazişi mətninin paraflanması, Birgə Bəyannamənin imzalanması Cənubi Qafqazda onilliklər sürən münaqişəyə son qoydu.

ABŞ-nin də fəal dəstəklədiyi regional bağlantı layihəsi TRIPP marşrutu üzrə (Zəngəzur dəhlizi) Azərbaycan ərazisindəki nəqliyyat infrastrukturunun qurulması ilə bağlı işlər artıq yekunlaşmaq mərhələsindədir. Bu marşrut "Şərq-Qərb" ticarət dövriyyəsində ölkəmizi əvəzolunmaz edir.

Cari il avqustun 8-də Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında baş tutan telefon danışığı da bu tarixi dönüşün rəsmi təsdiqi oldu.

Söhbət zamanı Vaşinqton Zirvə görüşünün ildönümü münasibətilə məmnunluq ifadə olunub, Vaşinqton sülh zirvəsi və ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Birgə Bəyannamənin və Azərbaycanla Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulması ilə bağlı sazişin paraflanmasının regionda münaqişəyə son qoyduğu və sülhü təsbit etdiyi vurğulanıb.

Həmçinin TRIPP layihəsinin regional bağlantılar baxımından əhəmiyyəti vurğulanıb, Azərbaycan ərazisində nəqliyyat infrastrukturu işlərinin başa çatmaq mərhələsində olduğu bildirilib.

Donald Tramp sülh prosesində Prezident İlham Əliyevin rolunu yüksək qiymətləndirib.

Dövlətimizin başçısı G20-yə dəvətə görə ABŞ Prezidentinə təşəkkür edib. Bu, ölkəmizə olan xoş münasibətin təzahürü kimi qiymətləndirilib.

Bu ilin əvvəlində Azərbaycan ilə ABŞ arasında imzalanmış "Strateji Tərəfdaşlıq Xartiyası" iki ölkə münasibətlərini keyfiyyətcə yeni yüksək səviyyəyə qaldırıb. Ağ Evin Bakını qlobal iqtisadi platformaya dəvət etməsi bu strateji tərəfdaşlığın praqmatik müstəvidə təzahürüdür.

### Sülhü təmin edən ölkə

Azərbaycanın diplomatik uğurları illər boyu ardıcıllıqla həyata keçirilən məqsədyönlü xarici siyasət strategiyasının məntiqi nəticəsidir. Rəsmi Bakı BMT Təhlükəsizlik Şurasından başlayaraq, Qoşulmama Hərəkatı və D-8 kimi nəhəng platformalara qədər uzanan yolda özünü, sadəcə, fəal iştirakçı kimi deyil, qlobal problemlərin həllinə real töhfələr verən təşəbbüskar dövlət kimi təsdiqləyib. Təşkilatlara uğurlu sədrlik təcrübəsi, beynəlxalq hüququn aliliyini müdafiə edən qətiyyətli mövqe və qlobal böhranlar zamanı nümayiş etdirilən liderlik Azərbaycanı dünya siyasətinin etibarlı tərəfdaşına çevirib.

Xüsusilə Cənubi Qafqazda formalaşan yeni geostrateji reallıqlar ölkəmizin beynəlxalq müstəvidəki çəkisini köklü şəkildə artırıb. İşğala son qoyulması, ardınca isə Vaşinqton sülh prosesi çərçivəsində atılan tarixi addımlar göstərdi ki, Azərbaycan regionda təhlükəsizliyin və sabitliyin əsas təminatçısıdır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Cənubi Qafqaz qarşıdurma məkanından Şərqlə Qərb, Şimal ilə Cənub arasında mühüm iqtisadi-logistik əməkdaşlıq qovşağına transformasiya olunub.

Məhz bu regional liderlik, genişlənən nəqliyyat-enerji infrastrukturu və sülh gündəliyinə verilən strateji töhfələr ABŞ Prezidenti Donald Tramp tərəfindən Azərbaycanın G20 Mayami sammitinə dəvət edilməsini şərtləndirən başlıca amillərdir. Bu mötəbər platformaya dəvət göstərir ki, Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan müasir dünya nizamında rolu olan, şərtləri diktə edən və sülhü təmin edən aparıcı dövlətdir.

Mayami sammiti Azərbaycan üçün təkcə iqtisadi müzakirələr meydanı deyil, həm də Vaşinqton sülh gündəliyinin nəticələrini qlobal səviyyədə təqdim etmək və Trans-Xəzər geoiqtisadi layihələrini birbaşa dünyanın ən böyük iqtisadiyyatlarının gündəliyinə inteqrasiya etmək üçün unikal imkandır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Tarixi əhəmiyyətə malik səfər

## Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyur

**Qədim Naxçıvan diyarı əsrlər boyu böyük sivilizasiyaların, elm, mədəniyyət və memarlıq məktəblərinin mühüm mərkəzlərindən biri olub. Qədim Atabəylər dövlətinin paytaxtı kimi şöhrət qazanan, Əcəmi Naxçıvani irsi ilə Şərq memarlığına misilsiz incilər bəxş edən bu diyarımız həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə milli dövlətçiliyimizin və elmi-mədəni fikrimizin tərəqqisinə əvəzsiz töhfələr verib. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı, ağır sınaqlardan üzüağ çıxaraq yüksəlişə qovuşması məhz Ulu Öndər Heydər Əliyevin adı və uzaqgörən dövlətçilik strategiyası ilə sıx bağlıdır.**

1990-cı ildə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə Ümummilli Liderin reallaşdırdığı müdrik və qətiyyətli tədbirlər sayəsində qısa müddətdə muxtar respublikanın etibarlı müdafiəsi təmin edilmiş, ölkəmizin müstəqilliyi ilə bağlı mühüm addımlar atılmışdı. Bu tarixi reallıqları dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "O illərdə ancaq Ulu Öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu... Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".



Ulu Öndər Heydər Əliyevə sıx bağlılığı və dərin sədaqəti ilə seçilən naxçıvanlılar dahi şəxsiyyətin siyasi kursunu uğurla davam etdirən, müasir Azərbaycanın inkişafında misilsiz xidmətlər göstərən Prezident İlham Əliyevi hər zaman böyük sevgi və rəğbətlə qarşılayırlar. Bununla da dövlət başçısının həyata keçirdiyi daxili və xarici siyasətə dəstəklərini ifadə edirlər. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasına hər səfəri qədim diyarımızda böyük sevinc və bayram əhvali-ruhiyyəsi yaradır, mühüm hadisələrlə yadda qalır. Belə səfərlər zamanı Naxçıvanın sosial-iqtisadi inkişafını nümayiş etdirən mühüm obyektlər istifadəyə verilir, yeni layihələrin təməli qoyulur və qarşıdakı inkişaf mərhələsinin əsas istiqamətləri müəyyənləşdirilir.

Naxçıvan Muxtar Respublikası əsrlər boyu Azərbaycanın strateji qalası, zəngin mədəniyyət və dövlətçilik ənənələrinin mühüm mərkəzlərindən biri olub. Uzun illər mürəkkəb geostrateji şəraitdə və coğrafi təcrid vəziyyətində yaşamasına baxmayaraq, muxtar respublika öz potensialı ilə ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynayıb. Naxçıvan hazırda yeni inkişaf mərhələsinə qədəm qoyur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Naxçıvana səfəri muxtar respublika sakinləri üçün ilin ən əlamətdar hadisələrindən biri oldu. Dövlət tərəfindən həyata keçirilən məqsədyönlü proqramlar, nəhəng infrastruktur layihələri, idarəetmədə müasir yanaşmalar və islahatlar Naxçıvanı nəinki dayanıqlı inkişaf diyarına, həm də regionun mühüm nəqliyyat, logistika və enerji mərkəzinə çevirir. Prezident İlham Əliyevin Naxçıvana növbəti səfəri və Azərbaycan Televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər bu inkişaf mərhələsinin konturlarını, gələcək hədəfləri və strateji baxışı nümayiş etdirir.

Naxçıvan Prezident İlham Əliyevin daim diqqət və qayğı göstərdiyi bölgələrdəndir. Bunun tarixi və siyasi əsasları var. Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin davamlılığı Naxçıvanın inkişafına münasibətdə də özünü aydın göstərir. Prezident İlham Əliyev Naxçıvana səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində bu qədim diyarın Azərbaycanın və daha geniş coğrafiyanın həyatındakı əhəmiyyətinə toxunaraq deyib: "Naxçıvan, eyni zamanda Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, - halbuki birinci növbədə, Azərbaycan üçün, - geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın avqustun 11- də Naxçıvan Muxtar Respublikasına tarixi səfəri bir sıra sosial obyektlərin açılışında iştirakı və onlarla tanışlıqla yanaşı, muxtar respublikanın gələcək inkişaf istiqamətlərinə dair mühüm mesajlarla yadda qaldı. Prezident İlham Əliyevin Naxçıvana səfərini muxtar respublikanın həyatında yeni bir dövrün başlanğıcı kimi dəyərləndirmək olar. Dövlət başçısının Naxçıvana sayca 17-ci səfəri həm görülən işlərin qiymətləndirilməsi, həm də qarşıdakı mərhələnin əsas hədəflərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev müsahibəsində də dediyi kimi: "Əslində, səfərim və səfər zamanı iştirak etdiyim tədbirlər özlüyündə bir göstəricidir. Bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Qeyd etdiyiniz kimi, mən Prezident kimi 17-ci dəfədir ki, Naxçıvana səfər edirəm və hər səfərimin də böyük mənası və gözəl nəticələri vardır. Bu illər ərzində bir çox önəmli layihələr icra olundu, Naxçıvanın ümumi inkişafı təmin edildi. Bugünkü tədbirlər də bir növ görülən işlərin davamıdır və təbii ki, bundan sonra da lazımi qərarlar veriləcək və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı təmin ediləcək".

Səfərin mühüm məqamlarından biri də Naxçıvanın gələcək inkişafının ayrı-ayrı layihələr deyil, bir-birini tamamlayan vahid strategiya əsasında həyata keçirilməsinin aydın şəkildə görünməsi oldu. Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün 258 milyon manat vəsaitin ayrılması, Naxçıvan Sənaye Parkının təməlinin qoyulması, enerji layihələri, nəqliyyat və infrastrukturun yenilənməsi, şəhərin 2044-cü ilədək inkişaf planının təqdim edilməsi, sosial layihələr və Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı verilən mesajlar bu strategiyanın əsas istiqamətlərini müəyyənləşdirir.

Bu baxımdan, səfəri yalnız yeni obyektlərin açılışı və təməlqoyma mərasimləri ilə məhdudlaşdırmaq doğru olmazdı. Burada söhbət Naxçıvanın iqtisadi potensialının gücləndirilməsi, enerji təhlükəsizliyinin təmin olunması sənayenin inkişaf etdirilməsi və şəhər mühitinin müasir tələblərə uyğun yenilənməsindən gedir. Bütün bunlar Naxçıvanın gələcəkdə Azərbaycanın mühüm iqtisadi, nəqliyyat və enerji mərkəzlərindən birinə çevrilməsi üçün yeni imkanlar yaradır.

Səfər çərçivəsində dövlət başçısının bir sıra müəssisələrin açılışında, yeni layihələrin təməlqoyma mərasimlərində iştirakı və həyata keçirilən tikinti-yenidənqurma işləri ilə tanış olması da xüsusi əhəmiyyət daşıyır. Bu, Naxçıvanın inkişafı ilə bağlı nəzərdə tutulan layihələrin artıq konkret və praktik mərhələyə keçdiyini göstərir. Nəqliyyat və logistika, enerji, sənaye, kənd təsərrüfatı, rəqəmsal texnologiyalar və sosial infrastruktur sahələrində həyata keçirilən layihələr Naxçıvanın iqtisadi modelinin əsas dayaqlarını formalaşdıracaq. Xüsusilə Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı proseslər muxtar respublikanın regional nəqliyyat əlaqələrində rolunu daha da artıracaq. Bu isə Naxçıvanın iqtisadi imkanlarının genişlənməsi ilə yanaşı, onun geostrateji əhəmiyyətinin daha da yüksəlməsinə şərait yaradacaq.

Prezident İlham Əliyevin səfəri çərçivəsində insan amilinin Naxçıvanın inkişaf strategiyasında xüsusi yer tutduğu da bir daha nümayiş etdirildi. Dövlət başçısı 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoydu. 5 hektara yaxın ərazidə 16 çoxmərtəbəli binanın inşası nəzərdə tutulur. Kompleksdə 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı və 37 dördotaqlı mənzil olacaq. Burada uşaq bağçası, iaşə obyektləri, yollar, səkilər, yaşıllıq zonaları və zəruri kommunal infrastruktur yaradılacaq.

Bu layihə bir daha göstərir ki, Naxçıvanın inkişafı yalnız iqtisadi göstəricilərlə ölçülmür. Burada əsas məqsədlərdən biri də insanların yaşayış şəraitinin və həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır. Sosial mənzillər kompleksinin yaradılması dövlətin sosial siyasətinin Naxçıvanda ardıcıl şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

Naxçıvan Regional DOST Mərkəzinin istifadəyə verilməsi isə səfərin sosial mahiyyətini tamamlayan mühüm hadisələrdən biri oldu. Mərkəzdə 164 sosial xidmətin göstərilməsi, 117 işçi və 50 könüllünün fəaliyyət göstərməsi, gün ərzində orta hesabla 500-600 vətəndaşın qəbul edilməsi nəzərdə tutulur. Xidmətlərin "Bir pəncərə" prinsipi əsasında təqdim olunması Naxçıvan sakinlərinin sosial xidmətlərə çıxışını daha da asanlaşdıracaq. Xüsusilə əlilliyi olan şəxslər üçün tibbi-sosial ekspertiza, reabilitasiya və müvafiq vasitələrlə təminat imkanlarının bir mərkəzdə cəmləşdirilməsi sosial dövlət modelinin praktik ifadəsidir. Bu eyni zamanda müasir idarəçilik prinsiplərinin Naxçıvanda tətbiqinin daha bir göstəricisidir.

Səfərin diqqətçəkən digər mühüm istiqaməti Naxçıvanın tarixi-mədəni irsinə göstərilən dövlət qayğısının bir daha nümayiş etdirilməsi oldu. Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri ilə tanışlıq, Əcəmi Naxçıvani abidəsinin açılışı Naxçıvanın qədim tarixinin və zəngin memarlıq ənənələrinin qorunmasına verilən önəmin göstəricisidir. Müasir inkişafla tarixi irsin qorunmasının eyni səfərin proqramında yer alması təsadüfi deyil. Çünki Naxçıvanın gələcəyi yalnız iqtisadi və sosial göstəricilərlə ölçülmür. Bu gələcəyin təməlində milli kimliyimiz, tariximiz, mədəniyyətimiz, dilimiz və mənəvi dəyərlərimiz də dayanır. Məhz bu baxımdan Əcəmi Naxçıvaninin şəxsiyyətinə göstərilən ehtiram və onun adını daşıyan memarlıq irsinin qorunması xüsusi məna kəsb edir. Prezident İlham Əliyevin də vurğuladığı kimi: "Digər vacib sahə, - yəni o sahə də bu gün səfərimin proqramında öz əksini tapmışdır, - Naxçıvanın tarixi-mədəni abidələrinin qorunmasıdır. Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir. Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlər bu gün mənə təqdim edildi. Eyni zamanda digər tarixi-mədəni obyektlərin konservasiyası, qorunması və bərpası nəzərdə tutulur".

Naxçıvanın strateji coğrafi mövqeyi, zəngin tarixi, iqtisadi potensialı və həyata keçirilən genişmiqyaslı layihələr qədim diyarın qarşısında yeni imkanlar açır. Prezident İlham Əliyevin diqqət və qayğısı, dövlət proqramları çərçivəsində görülən işlər və yeni layihələr isə bu imkanların reallığa çevrilməsi üçün möhkəm zəmin yaradır.

Beləliklə, avqustun 11-də baş tutan səfər Naxçıvanın yeni inkişaf mərhələsinin əsas istiqamətlərini bir daha aydın göstərdi. Burada iqtisadi inkişafla nəqliyyat imkanlarının, müasir şəhərsalma ilə sosial infrastrukturun, bütün bunlarla yanaşı tarixi-mədəni irsin qorunmasının vahid inkişaf konsepsiyasında birləşdiyi görünür.

*Aysel DÜNYAMALIYEVA,*
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı*

# Ermənistanın bitməyən mina terroru: "gizli ölüm"lər böyük təhdid mənbəyidir

**Ermənistanın Azərbaycan torpaqlarında illər boyu yürütdüyü işğalçılıq siyasətinin ölümcül fəsadlarından biri olan mina terroru bu gün də mülki şəxslərin həyatını təhlükə altında qoymağa davam edir. 2020-ci il Vətən müharibəsinin başa çatmasından keçən dövr ərzində minaya düşərək həyatını itirən və ağır yaralanan insanların sayı 436 nəfərə çatıb. Azad edilmiş ərazilərin təxminən 13 faizinin mina və partlamamış hərbi sursatlarla çirkləndiyi ehtimal olunur. Bu dəhşətli faktlar təkcə keçmiş münaqişənin qalığı deyil, həm də birbaşa insan hüquqlarına, dinc əhaliyə və bölgədəki postmünaqişə dövrünün sabitliyinə yönəlmiş davamlı təhdiddir.**



Son günlərdə baş verən hadisələr də mina təhlükəsinin nə qədər ciddi olduğunu bir daha göstərdi. Avqustun 12-də Xocavənd rayonunun Qızılqaya kəndi ərazisində təmizlənməmiş zonada hərəkət edən buldozerin minaya düşməsi nəticəsində mülki şəxslər xəsarət aldılar. Cəmi bir gün sonra, avqustun 13-də Kəlbəcər rayonunun Sarıyel kəndi ərazisində oxşar faciə yaşandı. Tərtər rayon sakini, 1953-cü il təvəllüdlü Kamran Süleymanov təmizlənməmiş ərazidə mal-qara otararkən mina partlayışı nəticəsində xəsarət aldı. 2026-cı ilin birinci yarımilində mina və sursat partlayışları səbəbindən 2 nəfər həyatını itirib, 14 nəfər xəsarət alıb.

Xarici İşlər Nazirliyi ard-arda baş verən faciəvi hadisələrlə bağlı bəyanat yayaraq bildirib ki, bu xəbərlər münaqişənin ölümcül irsinin insan həyatını təhlükə altında qoymağa, yenidənqurma işlərinə mane olmağa və məcburi köçkünlərin təhlükəsiz qayıdışını əngəlləməyə davam etdiyini acı şəkildə xatırladır. Ermənistanın işğal dövründə, eləcə də təmas xəttindən geri çəkilərkən heç bir hərbi zərurət olmadan yaşayış məntəqələrinə, otlaq sahələrinə, su mənbələrinə və nəqliyyat dəhlizlərinə kütləvi şəkildə minalar basdırması onun dinc əhalini hədəf alan niyyətini aydın göstərir.

Mina problemi Qarabağ və Şərqi Zəngəzurda aparılan sürətli bərpa-quruculuq işlərini ləngidən, kənd təsərrüfatının dirçəldilməsini, logistik bağlantıları, yeni yaşayış məntəqələrinin salınmasını və ümumilikdə Böyük qayıdış prosesini yavaşladan ən böyük maneəyə çevrilib. Minalanmış sahələr strateji infrastruktur layihələrinin, avtomobil və dəmir yollarının, elektrik və su xətlərinin çəkilişini çətinləşdirir, risk altına alır. Nəticədə bu torpaqların təhlükəsiz hala gətirilməsi zaman, insan resursu və maliyyə tələb edir.

Azərbaycan minatəmizləmə kimi mürəkkəb prosesi əsasən özünün daxili maliyyə və texniki resursları hesabına həyata keçirir. ANAMA və digər aidiyyəti dövlət qurumlarının səyi ilə aparılan bu genişmiqyaslı işlər öz miqyasına görə dünyada ən iri humanitar minatəmizləmə modellərindən biri kimi dəyərləndirilir. Eyni zamanda ölkəmiz bu prosesi sürətləndirmək və müasir texnologiyaları tətbiq etmək məqsədilə lazımi işlər görür. İnsan itkilərinin qarşısını almaq üçün əhali, xüsusən uşaqlar və azad edilmiş torpaqlara səfər edənlər arasında davamlı maarifləndirmə və hüquqi bilgiləndirmə işləri də aparılır.

Bütün səylərə baxmayaraq, beynəlxalq birliyin və insan hüquqları təşkilatlarının bu məsələyə münasibətləri ciddi təəssüf doğurur. Mülki insanların həyatına son qoyan mina terroruna qarşı İrəvanın açıq şəkildə qınanmaması, heç bir təzyiqə məruz qalmaması beynəlxalq müstəvidə ikili standartların hələ də davam etdiyini göstərir. Ermənistanın indiyədək təqdim etdiyi azsaylı mina xəritələrinin etibarsızlığı və potensial ölüm tələsi olması faktı da beynəlxalq təsisatların diqqətindən kənarda qalıb. Halbuki BMT, Avropa İttifaqı, ATƏT və digər beynəlxalq təsisatlar yalnız bəyanatlarla kifayətlənməməli, Ermənistanın mina terrorunu açıq şəkildə pisləməli, eləcə də minatəmizləmə işlərinə real texniki, maliyyə və institusional dəstək göstərməlidirlər. Humanitar hüququn prinsipləri siyasi maraqlara və ya coğrafi məsafələrə görə dəyişməməlidir. Çünki minaların dinc insanların həyatına son qoyması bütövlükdə qlobal təhlükəsizlik üçün ciddi çağırışdır.

Azərbaycan bütün çətinliklərə rəğmən, öz torpaqlarını minalardan təmizləmək, vətəndaşlarının doğma yurdlarına təhlükəsiz qayıdışını təmin etmək və regionda dayanıqlı, hüquqa əsaslanan sülh mühitini bərqərar etmək əzmindədir. Bununla belə, Ermənistanın torpaqlarımıza basdırdığı minalar təkcə Azərbaycanın daxili problemi deyil, insanlığa və beynəlxalq humanitar hüquqa qarşı törədilmiş böyük cinayətdir. Ona görə də beynəlxalq ictimaiyyət bu faciələrə qarşı nümayiş etdirdiyi susqunluğa son qoymalı, insan həyatını hər şeydən üstün tutan prinsipial mövqe sərgiləməlidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bakı metrosu paytaxtın ictimai nəqliyyat sisteminin gələcək ritminə köklənir

**Əgər şəhəri canlı bir orqanizmə bənzətməli olsaq, metro bu orqanizmin əsas arterial damarları hesab edilməlidir. Hər gün minlərlə insan bu nəqliyyat vasitəsilə Bakının bir ünvanından digərinə gedir. Bu baxımdan, Bakı metrosunda baş verən hansısa dəyişiklik təkcə yeraltı nəqliyyatın deyil, bütövlükdə paytaxt həyatının ritminə təsir göstərir.**










Metroda avqustun 15-dən başlayan məlum dəyişiklik səbəbindən sərnişinlərin yeni hərəkət sxeminə uyğunlaşması üçün təxirəsalınmaz tədbirlər görülür, stansiyalarda istiqamətləndirici məlumatlar verilir, metropoliten gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Platformalarda, keçidlərdə və stansiyaların giriş-çıxışlarında sərnişin axınının düzgün yönləndirilməsi üçün əlavə tədbirlər görülür. Bu prosesə könüllülər də cəlb edilib. Metronun gələcək fəaliyyətinə hesablanmış mühüm layihə - Qırmızı və Yaşıl xətlərin ayrılmasıdır. Artıq 3-cü gündür layihənin əsas tikinti mərhələsinə başlanılıb. Təxminən 10-11 ay davam edəcək bu mərhələdə "28 May" və "Nizami" stansiyaları arasında qatarların hərəkəti müvəqqəti dayandırılıb.

"Bakı Metropoliteni" QSC-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədovun sözlərinə görə, xətlərin ayrılması layihəsi çərçivəsində artıq ilk optimallaşdırma tədbirləri həyata keçirilib: "Qırmızı xətt üzrə qatarların "Həzi Aslanov" istiqamətində hərəkətində dəyişiklik yoxdur. "28 May" stansiyası da normal funksional fəaliyyətini davam etdirir. Yaşıl xətt üzrə qatarların hərəkəti isə "Dərnəgül-Nizami" istiqamətində təşkil olunub. Xətlərin ayrılaraq müstəqil fəaliyyətə başlaması nəticəsində Bakı Metropolitenində ilk optimallaşdırma tədbirini həyata keçirmək mümkün olub".

Bəxtiyar Məmmədovun sözlərinə görə, ən mühüm dəyişikliklərdən biri "İçərişəhər" stansiyasında qatarların hərəkət intervalının azaldılmasıdır: "İçərişəhər' stansiyasında tətbiq edilmiş gücləndirmə mexanizmləri, xətt üzrə bir sıra optimallaşdırma tədbirləri, həmçinin əlavə ehtiyat maşinistlərin ayrılması stansiyada qatarların daha operativ tərk etməsinə imkan verib. Nəticədə interval 3 dəqiqə 30 saniyə deyil, artıq 2 dəqiqə 30 saniyə təşkil edir". "Dərnəgül-Nizami" istiqamətində isə interval 3 dəqiqə 30 saniyədir. "Cəfər Cabbarlı-Xətai" sahəsində 7, "Xocəsən-8 Noyabr" marşrutunda isə 8 dəqiqəlik interval saxlanılır".

Metropoliten rəsmisinin sözlərinə görə, intervalların daha da azaldılması üçün bir sıra mühüm infrastruktur layihələrin başa çatdırılması tələb olunur: "Onlardan biri Dərnəgül elektrik deposunun birinci mərhələsinin istismara verilməsidir. Digər mühüm istiqamət "28 May-Nizami" sahəsində tikintisi aparılan tunellərlə bağlıdır. Hazırda 200 metrlik tunelin təxminən 39 metrlik hissəsi qazılıb. Layihənin növbəti mərhələsində qalan hissənin inşasının davam etdirilməsi nəzərdə tutulur. "28 May-Cəfər Cabbarlı" stansiyaları arasında yeni piyada pilləkəninin sentyabrın sonlarına qədər istifadəyə verilməsi də sərnişin axınının daha səmərəli təşkili baxımından əhəmiyyətli olacaq".

"28 May-Nizami" sahəsində qatarların hərəkətinin müvəqqəti dayandırılması sərnişinlərin alternativ nəqliyyat imkanlarına yönləndirilməsini zəruri edib. Bu məqsədlə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən 6 yeni ekspres marşrut fəaliyyətə başlayıb. M1 "Elmlər Akademiyası-28 May", M2 "İnşaatçılar-Nizami-28 May", M3 "20 Yanvar-Nizami-28 May", M4 "20 Yanvar-Koroğlu", M5 "20 Yanvar-Gənclik" və M6 "Elmlər Akademiyası-Gənclik" istiqamətlərində sərnişinlərə xidmət göstərir. Bununla yanaşı, 20 müntəzəm marşrut üzrə avtobusların sayı artırılıb. Bu addımın məqsədi metroda tətbiq olunan yeni hərəkət sxeminin şəhərin yerüstü nəqliyyat sistemi ilə tamamlanması və sərnişinlərin alternativ istiqamətlər üzrə daşınmasının təmin edilməsidir.

Səhər saatlarında yeni ekspres marşrutların fəaliyyət göstərdiyi istiqamətlərdə vəziyyəti müşahidə etdik. Marşrutlarda sərnişin sıxlığı nəzərə çarpmırdı. Bu da sərnişin axınının yeni marşrutlar arasında bölüşdürülməsi üçün müəyyən imkanların olduğunu göstərir. Qarşıdakı günlərdə şəhər sakinlərinin yeni sxemə daha yaxşı uyğunlaşması ilə bu marşrutların yükünün dəyişməsi mümkündür. Digər tərəfdən, bəzi müntəzəm marşrutların son dayanacaqlarının dəyişdirilməsi də sərnişinlərin hərəkətinin daha rahat təşkili məqsədi daşıyır.

Paytaxt sakinləri ilə söhbət etdik. Anar Şıxəliyev hesab edir ki, iri nəqliyyat layihələrini yalnız keçid dövründə yaranan çətinliklərlə deyil, əldə ediləcək nəticə ilə qiymətləndirmək lazımdır: "Əlbəttə, yeni hərəkət qaydasına öyrəşmək üçün müəyyən vaxt lazımdır. Amma burada əsas məsələ görülən işin son məqsədidir. Əgər bunun nəticəsində qatarlar daha tez-tez hərəkət edəcək, sərnişin sıxlığı azalacaqsa, bu, hamımız üçün müsbət dəyişiklik olacaq. İnsanların işə, evə və digər ünvanlara vaxt itirmədən çatması şəhər həyatında çox vacib məsələdir".

Şəhər sakini İlkin Əlizadə isə sərnişinlərin məlumatlandırılmasının əhəmiyyətini vurğuladı: "Belə dəyişikliklər zamanı sərnişinin nə edəcəyini bilməsi çox vacibdir. Stansiyalarda məlumat verilməsi, əməkdaşların və könüllülərin insanlara istiqamət göstərməsi yeni sxemə uyğunlaşmanı asanlaşdırır. Məncə, sərnişin üçün ən vacib məsələ odur ki, getmək istədiyi ünvana hansı marşrutla çatacağını əvvəlcədən bilsin".

Türkay Rəhimova məsələyə daha geniş prizmadan yanaşdı. Onun fikrincə, paytaxtın artan ictimai nəqliyyat tələbatı metro və avtobus sistemlərinin paralel inkişafını zəruri edir: "Bakıda əhalinin sayı durmadan artır. Belə şəraitdə ictimai nəqliyyat sistemi də bu artımla ayaqlaşmalıdır. Metroda xətlərin ayrılması və gələcəkdə qatarların hərəkətində intervalların azaldılması sərnişinlər üçün böyük rahatlıq yaradacaq. Əgər metro ilə yanaşı, avtobus marşrutları da düzgün təşkil olunursa, bu, bütövlükdə şəhərin ictimai nəqliyyat imkanlarını genişləndirər. Məncə, bu gün görülən işlərin faydasını gələcəkdə mütləq hiss edəcəyik".

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV(foto),*
*"Azərbaycan"*

# "TRIPP Naxçıvanın iqtisadi xəritəsini dəyişə bilər"

**TRIPP-ın həyata keçirilməsi Orta dəhlizin imkanlarını, ilk növbədə marşrutların şaxələndirilməsi və alternativ bağlantıların yaradılması baxımından genişləndirə bilər. TRIPP layihəsi Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən multimodal bağlantı layihəsi kimi formalaşdırılır. Layihə çərçivəsində dəmir yolu, avtomobil yolu, elektrik enerjisi, fiber-optik və potensial olaraq neft-qaz infrastrukturlarının yaradılması nəzərdə tutulur.**



AZƏRTAC xəbər verir ki, bunu ABŞ-də fəaliyyət göstərən enerji strateqi, Corc Mason Universitetinin tədqiqatçısı Umud Şokri deyib.

O bildirib ki, TRIPP-ın Orta dəhliz üçün əsas əhəmiyyəti mövcud Azərbaycan-Gürcüstan-Türkiyə marşrutuna əlavə cənub istiqamətinin yaradılmasıdır. Azərbaycanın Ermənistan sərhədinə doğru dəmir yolu infrastrukturunu inkişaf etdirməsi, Naxçıvanda dəmir yolu xəttinin yenidən qurulması, Türkiyənin isə Qars-İğdır-Dilucu bağlantısı üzərində iş aparması bu baxımdan bir-birini tamamlayan proseslərdir.

"Azərbaycan bu dəhlizlə əlaqəli dəmir yolu infrastrukturunun tamamlandıqdan sonra illik təxminən 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacağını proqnozlaşdırır. Lakin bu rəqəmi mövcud yük dövriyyəsi kimi deyil, gələcək üçün nəzərdə tutulan layihə gücü kimi qiymətləndirmək lazımdır. TRIPP marşrutlardan birində hər hansı fasilə yarandıqda alternativ istiqamət təqdim edə bilər. Lakin bunun real iqtisadi üstünlüyə çevrilməsi üçün gömrük prosedurlarının uyğunlaşdırılması, rəqabətqabiliyyətli tariflər, proqnozlaşdırılan sərhəd keçidləri və layihənin Trans-Xəzər nəqliyyat şəbəkəsinin digər elementləri ilə inteqrasiyası vacibdir", - deyə ekspert bildirib.

Naxçıvanın bu prosesdən əldə edə biləcəyi imkanlara diqqət çəkən U.Şokri deyib: "Azərbaycanın əsas hissəsi ilə birbaşa quru bağlantısının yaradılması Naxçıvanın uzun illər davam edən coğrafi təcridini əhəmiyyətli dərəcədə azaldacaq və muxtar respublikanın Xəzər hövzəsi ilə Türkiyə arasında Şərq-Qərb ticarətinin mühüm kəsişmə nöqtələrindən birinə çevrilməsinə şərait yarada bilər. Bu, Naxçıvanda logistika terminallarının, anbarların, emal müəssisələrinin, yüklərin çeşidlənməsi və gömrük xidmətlərinin, gələcəkdə isə ixracyönümlü istehsal sahələrinin inkişafına imkan yarada bilər. Azərbaycan və Türkiyə ilə bağlantıların yaxşılaşması yerli istehsalçıların nəqliyyat xərclərini azalda və onların Türkiyə, Cənubi Qafqaz, Mərkəzi Asiya və potensial olaraq Avropa bazarlarına çıxışını asanlaşdıra bilər. Əgər qatarlar və yük avtomobilləri yalnız Naxçıvandan keçib gedəcəksə, iqtisadi fayda məhdud olacaq. Daha böyük imkan isə logistika mərkəzlərinin, gömrük anbarlarının, aqrar-emal müəssisələrinin, qablaşdırma və yığma istehsal sahələrinin, sənaye zonalarının və yükdaşıma ilə bağlı xidmətlərin yaradılmasındadır".

ABŞ ekspertinin sözlərinə görə, burada dəhlizlə qovşaq arasındakı fərq xüsusilə vacibdir: "Dəhliz malları bir ərazidən digərinə daşıyır, qovşaq isə şirkətləri həmin ərazidə qalmağa, malları saxlamağa, emal etməyə, maliyyələşdirməyə, yenidən bölüşdürməyə və əlavə dəyər yaratmağa cəlb edir. Naxçıvanın bu keçidi edə bilməsi coğrafiyadan daha çox investisiya mühiti, gömrük prosedurlarının səmərəliliyi, infrastrukturun keyfiyyəti, maliyyə resurslarına çıxış və özəl sektorun fəallığından asılı olacaq. 2026-cı ilin ortalarına Azərbaycan cənub-qərb sərhədinə doğru infrastrukturun inkişafını davam etdirir, TRIPP-ın 43 kilometrlik hissəsinin tikintisinə isə payız aylarında başlanmasının nəzərdə tutulduğu barədə məlumatlar var. Bu o deməkdir ki, TRIPP artıq yalnız siyasi ritorika səviyyəsində deyil, praktiki icra mərhələsinə keçən layihədir. Bununla belə, onu hazırda tam fəaliyyət göstərən nəqliyyat dəhlizi kimi təqdim etmək düzgün olmaz. Qarşıda hələ mühüm infrastruktur, koordinasiya və institusional məsələlər var".

Enerji məsələsinə toxunan tədqiqatçı bildirib ki, gələcəkdə enerji bağlantıları yükdaşımalar qədər, hətta bəzi hallarda daha böyük strateji əhəmiyyət daşıya bilər. Azərbaycan və Türkiyə arasında Naxçıvan-Türkiyə elektrik enerjisi bağlantısının yaradılması istiqamətində müzakirələr aparılır. İlkin mərhələdə Naxçıvandan Türkiyəyə təxminən 1 giqavat həcmində elektrik enerjisinin ötürülməsi imkanından danışılır. Azərbaycan rəsmiləri gələcəkdə bu infrastruktur vasitəsilə yalnız Azərbaycandan deyil, Mərkəzi Asiyadan əldə olunan elektrik enerjisinin də Türkiyə və Avropa bazarlarına çatdırılması perspektivini gündəmə gətiriblər. Bu layihə gələcəkdə Naxçıvanı yalnız yük və sərnişin daşımalarının keçdiyi məkan deyil, həm də enerji bağlantılarının mühüm elementlərindən birinə çevirə bilər. Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının Azərbaycan üzərindən Türkiyəyə və daha sonra Avropa bazarlarına çıxarılması istiqamətində yeni imkanlar yarana bilər. Naxçıvanın gələcək iqtisadi rolunu yalnız bir nəqliyyat layihəsi ilə məhdudlaşdırmaq düzgün olmaz. Nəqliyyat, logistika, istehsal və enerji infrastrukturlarının bir-birini tamamlaması Naxçıvanın regional iqtisadi sistemdə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirə bilər. Əsl imkan ondan ibarətdir ki, Naxçıvan bir istiqamətdən digərinə keçən yüklərin, sadəcə, dayanacağı məkan yox, həmin yüklərin ətrafında iqtisadi fəaliyyətin yarandığı bir mərkəzə çevrilsin. Bunun üçün isə dövlət siyasəti ilə yanaşı, özəl investisiyalar, səmərəli gömrük sistemi, rəqəmsallaşma və regional əməkdaşlıq paralel şəkildə inkişaf etməlidir. TRIPP-ın Orta dəhlizlə əlaqələndirilməsi Azərbaycanın Avrasiya nəqliyyat sistemində rolunun daha da güclənməsinə, Naxçıvanın isə Türkiyə, Azərbaycan, Mərkəzi Asiya və Avropa arasında yeni iqtisadi bağlantıların formalaşmasında daha fəal mövqe tutmasına imkan yarada bilər.

# Naxçıvanın həyatında mühüm yeniliklərin başlanğıcı

## Prezidentin sərəncamı muxtar respublikanın sosial-iqtisadi inkişafının yüksəliş proqramıdır



**President İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" imzaladığı Sərəncam Naxçıvanın sosial-iqtisadi həyatında mühüm yeniliklərin başlanğıcıdır. Sənəddə nəzərdə tutulan tədbirlər ayrı-ayrı obyektlərin tikintisi və təmiri, həmçinin ayrılan 258 milyon manat vəsait Naxçıvanın enerji, yol-nəqliyyat, təhsil, kommunal və şəhər infrastrukturlarının paralel şəkildə yenilənməsinə yönəldilir. 2026-2027-ci illərdə həyata keçiriləcək layihələr nəticəsində Naxçıvanda həm gündəlik həyat şəraitinin yaxşılaşdırılması, həm də gələcək iqtisadi inkişaf üçün infrastruktur bazasının gücləndirilməsi gözlənilir.**

**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında xatırladıb ki, Prezident İlham Əliyev Naxçıvana son səfəri zamanı növbəti tədbirlərin də bir növ görülən işlərin davamı olduğunu və bundan sonra da lazımi qərarlar veriləcəyini və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafının təmin ediləcəyini bəyan edib. Yeni sərəncam da dövlət başçımızın qeyd etdiyi lazımi qərarların tərkib hissəsidir. "Sərəncamda nəzərdə tutulan tədbirlərin siyahısına diqqətlə nəzər saldıqda onların bir-birindən ayrı layihələr olmadığı görünür, yəni iqtisadi inkişaf üçün infrastruktur, insan kapitalı üçün təhsil, sosial rifah üçün kommunal xidmətlər və regionlararası əlaqələr üçün nəqliyyat sistemi paralel şəkildə gücləndirilir. Cənab Prezident Naxçıvanda Azərbaycan Televiziyasına verdiyi müsahibəsində də bildirib ki, biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ ilə vahid konsepsiya əsasında inkişaf etməlidir. Yəni söhbət Naxçıvanın daha geniş inkişaf konsepsiyasına daxil edilməsindən gedir. Sərəncamda ən böyük maliyyə vəsaitlərindən biri - 66 milyon manat Ordubad rayonunun Tivi kəndində Gilançay üzərində tikilən, ümumi gücü 15,6 MVt olan Tivi Su-Elektrik Stansiyasına ayrılmasıdır. Bu layihənin əhəmiyyəti həm elektrik enerjisi istehsal gücünün yaradılmasını, həm də hidroenerji mənbələrdən istifadənin genişləndirilməsini nəzərdə tutur ki, bu da Naxçıvanın enerji potensialının artırılmasına, enerji sisteminin şaxələndirilməsinə və alternativ, bərpaolunan enerji mənbələrinin payının yüksəldilməsinə xidmət edir", - deyə o bildirib.

Deputat qeyd edib ki, dünyada enerji təhlükəsizliyinin getdikcə daha böyük əhəmiyyət qazandığı bir vaxtda Naxçıvanda bərpaolunan enerji layihələrinə diqqətin artırılması uzunmüddətli perspektiv baxımından strateji xarakter daşıyır. Tivi Su-Elektrik Stansiyasının tamamlanması həm regionun enerji infrastrukturunu gücləndirəcək, həm də yerli enerji istehsalının artmasına imkan verəcək. Sərəncamın ən genişmiqyaslı istiqamətlərindən biri yol infrastrukturudur. Ümumilikdə 156,3 min nəfər əhalinin yaşadığı 26 yaşayış məntəqəsini birləşdirən 420 kilometr uzunluğunda yolların əsaslı təmirinə 70 milyon manat ayrılması nəzərdə tutulur. Bu, Naxçıvanın kənd və şəhərlərinin sosial-iqtisadi inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Yol infrastrukturunun yenilənməsi həm də kənd təsərrüfatı məhsullarının bazarlara daha rahat çatdırılması, insanların şəhərlərə çıxışının asanlaşması, təhsil və səhiyyə xidmətlərinə əlçatanlığın yüksəlməsi deməkdir. Eyni zamanda yeni və keyfiyyətli yollar turizm və sahibkarlıq üçün də daha əlverişli mühit yaradır. Beləliklə, 420 kilometrlik yol şəbəkəsinin yenilənməsi Naxçıvanın müxtəlif yaşayış məntəqələri arasında iqtisadi və sosial əlaqələrin möhkəmlənməsinə xidmət edəcək. Dövlət başçımız da bəyan etmişdi ki, təqribən 420 kilometr uzunluğunda müxtəlif kateqoriyalı yolların həm çəkilişi, həm əsaslı təmiri nəzərdə tutulur. Bu 26 yaşayış məntəqəsindəki əhalinin sayı təxminən 160 min nəfərdir. Bu məsələ öz həllini tapacaq.

Sərəncamda təhsil infrastrukturuna da xüsusi diqqət yetirildiyini diqqətə çatdıran K.Nurullayeva bildirib ki, Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisinə 25 milyon manat ayrılması nəzərdə tutulur: "Bu layihə ali təhsil müəssisəsinin imkanlarının genişləndirilməsi baxımından mühüm addımdır. Müasir yataqxananın yaradılması universitetdə təhsil alan tələbələrin, xüsusilə digər rayonlardan və bölgələrdən gələn gənclərin yaşayış imkanlarını yaxşılaşdıracaq. Şübhəsiz, güclü ali təhsil infrastrukturu Naxçıvanın insan kapitalının inkişafına birbaşa təsir göstərir. Universitetin maddi-texniki bazasının və tələbələr üçün sosial şəraitin yaxşılaşdırılması uzunmüddətli perspektivdə regionun savadlı və peşəkar kadr potensialının güclənməsinə xidmət edəcək. Naxçıvanın müxtəlif yaşayış məntəqələrində 640 yerlik 5 yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisi üçün 20 milyon manat ayrılması da sosial baxımdan mühüm qərardır. Yeni bağçaların Naxçıvan şəhərinin Bulqan kəndində, Ordubadın Dəstə kəndində, Şərur şəhərində, Culfanın Əbrəqunus kəndində və Kəngərli rayonunun Qarabağlar kəndində inşa olunması nəzərdə tutulur. Məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması uşaqların erkən yaşlardan təhsilə və sosial mühitə daha yaxşı hazırlanmasına imkan yaradır. Bu layihələr həmçinin kəndlərdə sosial infrastrukturun şəhərlərlə müqayisədə daha balanslı inkişafına töhfə verəcək".

Deputat qeyd edib ki, sərəncamın diqqətçəkən istiqamətlərindən biri də yaşayış binalarının əsaslı təmiridir. Naxçıvan, Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərində 2164 mənzilli 92 yaşayış binasının tam, Naxçıvan, Culfa və Şərur şəhərlərində isə 3087 mənzilli 70 yaşayış binasının fasad hissəsinin əsaslı təmiri üçün 15 milyon manat ayrılır. Bu tədbirlər ilk növbədə insanların yaşadığı binaların texniki və estetik vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcək. Eyni zamanda şəhər mühitinin yenilənməsi Naxçıvanın ümumi urbanistik görünüşünə təsir göstərəcək. Müasir, səliqəli və baxımlı yaşayış məhəllələri həm əhalinin rahatlığı, həm də şəhərlərin turizm və investisiya baxımından cəlbediciliyi üçün əhəmiyyətlidir.

Könül Nurullayevanın sözlərinə görə, sərəncamda 53 milyon manatın şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsinə yönəldilməsi də xüsusilə diqqət çəkir: "Nəqliyyatın müasir avtobuslarla yenilənməsi rayonlararası hərəkətin daha rahat və təhlükəsiz təşkilinə imkan verə bilər. Bu, xüsusilə rayonlarda yaşayan və gündəlik olaraq şəhərlərarası hərəkət edən insanlar üçün mühüm sosial əhəmiyyət daşıyır. Müasir nəqliyyat sistemi, eyni zamanda əmək bazarının genişlənməsinə də təsir edir. Sərəncamda daha bir mühüm məsələ - istilik təminatı da diqqətdən kənarda qalmayıb. Naxçıvan, Şərur, Culfa və Ordubad şəhərlərində 5335 mənzilə xidmət göstərən 45 istilik qazanxanasının əsaslı təmiri üçün 9 milyon manat ayrılır. Bu, birbaşa insanların gündəlik yaşayış şəraitinə təsir edən layihələrdəndir. İstilik sistemlərinin yenilənməsi xüsusilə qış aylarında mənzillərin daha keyfiyyətli qızdırılmasına, kommunal xidmətlərin etibarlılığının yüksəldilməsinə və mövcud infrastrukturun səmərəliliyinin artırılmasına imkan verəcək".

Deputat vurğulayıb ki, sərəncamın ayrı-ayrı bəndlərinə nəzər saldıqda, əslində, vahid inkişaf strategiyasını görmək mümkündür. Məqsəd Naxçıvada enerji, nəqliyyat, təhsil, yaşayış və kommunal infrastrukturu eyni vaxtda gücləndirməkdir. Əslində, iqtisadi inkişafın davamlı olması üçün məhz kompleks yanaşmaya ehtiyac var. Bu xüsusda əminliklə söyləmək olar ki, sərəncam Naxçıvanın həm iqtisadi, həm də sosial inkişafına paralel şəkildə təsir göstərə biləcək kompleks proqramdır. Ən əsası isə sərəncamın mahiyyətində insan amili dayanır. Daha keyfiyyətli yol, daha rahat nəqliyyat, müasir təhsil şəraiti, yeni məktəbəqədər müəssisələr, istilik sistemi və abad yaşayış mühiti, nəticə etibarilə Naxçıvan sakinlərinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Prezidentin də söylədiyi kimi: "Kadr islahatları ilə paralel olaraq, struktur islahatları da, əlbəttə, əsas hədəfə istiqamətlənmiş bir yanaşmadır ki, bu bölgə, bu qədim diyar daim inkişaf etsin, insanlar burada rahat, təhlükəsizlik şəraitində yaşasınlar, firavan yaşasınlar".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# AZƏRBAYCANIN YENİ RƏQƏMSAL ARXİTEKTURASI



## Süni intellekt və milli mədəniyyət

### Bu gün milli mədəniyyətin vəzifəsi keçmişi qorumaq və milli yaddaşı gələcəyin texnologiyasına çevirməkdir

**Son illər müasir insanın həyatına sürətlə daxil olan süni intellekt artıq XXI əsrin texnoloji inkişafını müəyyən edən əsas amilə çevrilib. Əvvəllər yalnız elmi-tədqiqat və yüksək texnologiya sahələrinin mövzusu kimi qəbul edilsə də, bu gün süni intellekt təhsildən iqtisadiyyata, səhiyyədən mediaya, yaradıcılıqdan kommunikasiyaya, sosial infrastrukturdan gündəlik məişətə qədər bütün sferaların ayrılmaz elementinə çevrilməkdədir.**

Onun təsir dairəsi yalnız iqtisadi və texnoloji münasibətlərlə məhdudlaşmır. Belə bir texnologiya insanın bilik yaratmaq, yadda saxlamaq, informasiya yaymaq və yaradıcılıq fəaliyyəti ilə bağlı təsəvvürlərini də dəyişir. Bu baxımdan, süni intellektin milli mədəniyyətlərə təsiri məsələsi ayrıca mövzudur. Çünki mədəniyyət yalnız incəsənət nümunələrinin məcmusu olmayıb ümumilikdə xalqın tarixi yaddaşını, dilini, dünyagörüşünü, adət-ənənələrini, estetik zövqünü, kollektiv kimliyini və nəsillərarası mənəvi əlaqəsini özündə birləşdirən mürəkkəb sistemdir. Süni intellekt isə məhz bu sistemin əsas komponentlərindən olan mətn, dil, obraz, musiqi və informasiya ilə işləyir.

Beləliklə, hazırda qarşımızda prinsipial bir sual yaranır: süni intellekt milli mədəniyyətlərin qorunmasına və inkişafına xidmət edən yeni bir vasitə olacaq, yoxsa qlobal mədəni eyniləşməni sürətləndirərək milli özünəməxsusluğun zəifləməsinə gətirib çıxaracaq?

#### Mədəniyyət tarixində rəqəmsal zaman

Bu suala birmənalı cavab vermək əfsus ki, hələ çox çətindir. Süni intellekti özlüyündə milli mədəniyyətlərin nə dostu, nə də düşməni saymaq olar. Onun təsiri cəmiyyətlərin texnologiyadan hansı məqsədlə istifadə etməsindən, milli mədəni irsin rəqəmsal mühitdə nə dərəcədə təmsil olunmasından və insanın texnologiya üzərində nə qədər yaradıcı nəzarət saxlamasından asılıdır.

Azərbaycanın milli mədəniyyəti bu prosesin araşdırılması üçün xüsusilə maraqlı nümunədir. Azərbaycan dili, şifahi xalq yaradıcılığı, muğam, aşıq sənəti, klassik və müasir ədəbiyyat, milli musiqi, memarlıq, folklor və zəngin tarixi irs süni intellekt texnologiyalarının tətbiqi üçün geniş imkanlar yaradır. Eyni zamanda Azərbaycan mədəniyyətinin rəqəmsal mühitdə düzgün təmsil olunması, milli dilin süni intellekt sistemlərində mövqeyi və tarixi yaddaşın alqoritmlər tərəfindən necə təqdim ediləcəyi ciddi suallar doğurur.

Məlumdur ki, bəşər mədəniyyəti minilliklərlə ölçülən tarixi boyu müxtəlif texnoloji dəyişikliklərdən təsirlənib. Yazının meydana gəlməsi şifahi yaddaşın imkanlarını genişləndirib, çap texnologiyası biliklərin kütləviləşməsinə səbəb olub, radio və televiziya mədəniyyətin yayılma sürətini artırıb, internet isə milli mədəniyyətləri qlobal informasiya məkanının bir hissəsinə çevirib.

Süni intellekt də bu inkişafın növbəti mərhələsidir. Lakin əvvəlki texnologiyalardan fərqli olaraq onun əsas xüsusiyyəti yalnız məlumatı saxlamaq və yaymaqla müəyyənləşmir. Məsələ burasındadır ki, süni intellekt indiyəqədərki texnologiyalar üçün misilsiz bir imkana - mövcud məlumat əsasında yeni məzmun yaratmaq qabiliyyətinə malikdir.

Bu xüsusiyyət mədəniyyət üçün fundamental əhəmiyyət daşıyır. Əgər internet əsasən insanın yaratdığı mədəni məhsulların yayılmasını sürətləndirirdisə, generativ süni intellekt artıq həmin materialları analiz edir, onların üslub xüsusiyyətlərini öyrənir və yeni mətnlər, təsvirlər, musiqi nümunələri, digər yaradıcı məhsullar ərsəyə gətirir. Deməli, rəqəmsal dövrdə mədəniyyət qorunan və ötürülən irs olmaqla yanaşı, həm də alqoritmlər tərəfindən emal edilən informasiya resursuna çevrilir. Burada milli mədəniyyətlər üçün mühüm üstünlük yaranır. Əgər milli irs düzgün rəqəmsallaşdırılır və sistemləşdirilirsə, süni intellekt onun qorunması, yeni nəsillərə ötürülməsi üçün güclü vasitəyə çevrilir.

#### Mədəni irsin qorunması vasitəsi

Milli mədəniyyətin qorunmasının əsas şərtlərindən biri mədəni irsin sənədləşdirilməsidir. Mütəxəssislər bildirirlər ki, müxtəlif ölkələrdə şifahi şəkildə nəsildən-nəslə ötürülən folklor nümunələri, dialektlər, musiqi formaları və yerli adət-ənənələr tədricən yox olmaq təhlükəsi ilə üzləşir. Süni intellektsə bu prosesin qarşısının alınmasında mühüm rol oynayacaq. Məsələn, böyük həcmdə folklor materiallarının elektronlaşdırılması və süni intellekt vasitəsilə təsnifləşdirilməsi tədqiqatçılara minlərlə mətn arasında əlaqələri müəyyənləşdirməyə imkan verə bilər. Eyni sözlərin müxtəlif bölgələrdəki variantlarını, nağıl motivlərinin yayılma coğrafiyasını, atalar sözlərinin struktur xüsusiyyətlərini, folklor mətnlərinin tematik qruplarını və s. avtomatik şəkildə müəyyən etmək mümkündür.

Azərbaycan kimi zəngin şifahi irsə malik ölkə üçün bu imkanların əhəmiyyəti xüsusən böyükdür. Azərbaycan folklorunun, bayatıların, nağılların, dastanların, aşıq yaradıcılığının və müxtəlif bölgələrə məxsus şifahi dil nümunələrinin böyük rəqəmsal korpusunun yaradılması gələcək nəsillər üçün mühüm mədəni yaddaş bazası formalaşdıracaq. Bu mənada süni intellekt, sadəcə, texnoloji alətdən daha çox bir növ "rəqəmsal yaddaş mexanizmi" funksiyasını yerinə yetirir.

Məlumdur ki, dil milli mədəniyyətin ən mühüm elementi rolunda çıxış edir. Dil informasiya mübadiləsi vasitəsindən daha geniş funksiya yerinə yetirərək xalqın tarixi təcrübəsinin və dünyagörüşünün daşıyıcısıdır. Buna görə də süni intellekt dövründə milli dilin taleyi ayrıca diqqət tələb edir. Belə ki, böyük dil modellərinin imkanları onların öyrəndiyi məlumatların həcmi və keyfiyyəti ilə sıx bağlıdır. İngilis, Çin, ispan və digər geniş istifadə olunan dillər internetdə böyük həcmdə rəqəmsal məlumatla təmsil olunur. Nisbətən kiçik dil icmalarının dilləri isə rəqəmsal mühitdə daha məhdud resurslara malikdir.

Azərbaycan dili də bu baxımdan xüsusi yanaşma tələb edən dillər sırasındadır. Ana dilimizin süni intellekt sistemlərində daha yüksək keyfiyyətlə təmsil olunması üçün geniş elektron mətn korpuslarına, lüğətlərə, terminoloji bazalara, dialekt materiallarına, nitq məlumatlarına və yüksəkkeyfiyyətli tərcümə resurslarına ehtiyac var. Bu istiqamətdə görülən işlər yalnız texnoloji məsələ deyil, eyni zamanda həm də milli mədəni siyasət məsələsidir. Çünki gələcəkdə insanlarla texnologiyalar arasındakı münasibətlərin mühüm hissəsi məhz dil vasitəsilə qurulacaq. Əgər bir dil rəqəmsal dünyada kifayət qədər təmsil olunmursa, onun texnoloji mühitdə istifadəsi çətinləşir. Bu isə zaman keçdikcə həmin dilin müəyyən sahələrdə funksional imkanlarının məhdudlaşmasına gətirib çıxara bilər.

#### Milli musiqi və Azərbaycan ədəbiyyatı irsi

Azərbaycan mədəniyyətinin süni intellekt vasitəsilə qorunması baxımından milli musiqi irsimiz, ələlxüsus muğam xüsusi nümunədir. Muğamın zəngin melodik strukturu, improvizasiya imkanları, ifaçılıq məktəbləri və emosional xüsusiyyətləri onu mürəkkəb musiqi sistemi kimi xarakterizə edir.

Süni intellekt vasitəsilə böyük həcmdə musiqi yazılarının və audiomaterialların təhlil edilərək müxtəlif ifaçıların üslub fərqlərinin, melodik quruluşların və ritmik xüsusiyyətlərin tam dəqiqləşdirilməsi mümkündür. Bu, musiqişünaslıq üçün yeni imkanlar yaradır. Lakin burada mühüm bir sərhəd də mövcuddur. Muğam yalnız notlardan, ritmlərdən və melodik ardıcıllıqlardan təşkil olunmayıb. Muğam ifaçının emosional vəziyyəti, improvizasiya qabiliyyəti, dinləyici ilə əlaqəsi və konkret tarixi-mədəni mühitlə bağlıdır. Süni intellekt muğamın strukturunu təhlil edə, müəyyən mənada onu təqlid edə və hətta yeni musiqi nümunələri yarada bilər. Lakin bu, muğamın insan tərəfindən yaşanılan mənəvi təcrübəsini tam əvəz etmir. Deməli, süni intellekt mədəniyyətin formasını təqlid edə bilsə də, mədəniyyətin insan həyatında yaratdığı mənanı tam şəkildə əvəz etmək iqtidarında deyildir.

Yeri gəlmişkən, Azərbaycan ədəbiyyatı da süni intellektin təsir göstərəcəyi mühüm sahələrdəndir. Süni intellekt klassik əsərlərin təhlilini apara, müxtəlif müəlliflərin üslub xüsusiyyətlərini müqayisə edə, mətnlər arasında əlaqələri müəyyənləşdirə və əsərlərin müxtəlif dillərə tərcüməsini asanlaşdıra bilir. Bu imkanlar ədəbiyyatşünaslıq üçün də ciddi perspektivlər deməkdir. Məsələn, Azərbaycan klassiklərinin əsərlərinin böyük rəqəmsal korpus şəklində sistemləşdirilərək onların söz ehtiyatının, mövzu strukturunun, obraz sisteminin və üslub xüsusiyyətlərinin alqoritmlər vasitəsilə araşdırılması mümkündür.

Digər tərəfdən, süni intellekt Azərbaycan ədəbiyyatının dünya auditoriyasına çıxışını da genişləndirəcək. Keyfiyyətli avtomatik tərcümə və çoxdilli informasiya sistemləri Azərbaycan ədəbiyyatının daha çox oxucuya çatmasına şərait yaradacaq. Amma burada da bir sıra mübahisəli suallar var: süni intellektin yaratdığı əsəri milli ədəbiyyatın bir hissəsi hesab edə bilərikmi? Əgər süni intellekt Azərbaycan folklorunun, klassik ədəbiyyatının və müasir dilinin elementlərini öyrənərək yeni hekayə və ya şeir yaradırsa, həmin əsərin müəllifi kimdir, insanmı, alqoritmmi? Həmin əsəri Azərbaycan mədəniyyətinə aid etmək olarmı? Əfsuslar ki, bu sualların da hələlik tam və birmənalı cavabı yoxdur. Bununla belə reallıq da ortadadır ki, gələcəkdə milli mədəniyyət yalnız keçmişdə insan zəkası ilə yaradılmış əsərlərdən ibarət olmayacaq. İnsan və süni intellekt əməkdaşlığının yaratdığı yeni əsərlər də mədəni prosesin bir hissəsinə çevriləcək.

#### Mədəni eyniləşmə təhlükəsi

Süni intellektin milli mədəniyyətlər üçün ən ciddi təhlükələrindən biri qlobal mədəni eyniləşməni sürətləndirmək ehtimalıdır. Bunun səbəbi sadədir: süni intellekt sistemləri çox vaxt böyükhəcmli rəqəmsal məlumat əsasında öyrənir. Qlobal internet məkanında isə müəyyən dillər, ölkələr və mədəniyyətlər digərlərindən daha geniş təmsil olunur. Nəticədə, süni intellektin yaratdığı məzmun müəyyən dominant mədəni modellərin xüsusiyyətlərini daha çox əks etdirə bilər.

Bu halda milli mədəniyyətlərin özünəməxsusluğunu qorumaq əvəzinə, qlobal rəqəmsal stereotiplərə uyğunlaşdırılması riski var və Azərbaycan nümunəsində bu risk xüsusi həssaslıqla nəzərə alınmalıdır. Çünki Azərbaycan mədəniyyəti Şərq və Qərb, türk və Qafqaz, islam və dünyəvi modernlik kimi müxtəlif tarixi-mədəni təcrübələrin qarşılıqlı təsiri nəticəsində formalaşmış mürəkkəb bir sistemdir.

Süni intellektin yaratdığı digər risk "süni folklor" və ya "süni tarix" fenomeninin meydana çıxmasıdır. Süni intellektin mövcud milli motivləri öyrənərək həmin üslubda yeni nağıllar, dastanlar, əfsanələr, hekayələr, tarixi təsvirlər və s. yaratması mümkündür. Əgər istifadəçi bu məzmunun süni intellekt tərəfindən yaradıldığından xəbərsizdirdə, zaman keçdikcə həmin məlumatlar həqiqi tarixi və ya folklor faktları ilə qarışa bilər. Bu, xüsusilə tarixi yaddaş baxımından təhlükəlidir. Azərbaycanın tarixi haqqında müxtəlif dillərdə və müxtəlif mövqelərdən yazılmış çoxsaylı mənbələr mövcuddur. Mütəxəssislərin fikirlərinə görə, süni intellekt belə mənbələri ümumiləşdirərkən onların mənşəyini, elmi etibarlılığını və siyasi kontekstini nəzərə almalıdır. Əks halda alqoritm sadəcə "internetdə daha çox rast gələnən" versiyanı daha doğru hesab edəcək. Bu isə süni intellektin milli tarix haqqında yaratdığı məlumatın mənbəyə, kontekstə və elmi yoxlamaya əsaslanması kimi çox mühüm prinsipi ortaya qoyur.

#### Süni intellekt insan yaradıcılığını əvəz edə bilərmi?

Son illər bütün dünyada süni intellekt haqqında aparılan müzakirələrin ən aktual suallarından biri də məhz budur. Əgər süni intellekt şeir yaza, musiqi bəstələyə, şəkil çəkə, film ssenarisi hazırlaya və hətta müəyyən mədəni üslubları yüksək dəqiqliklə təqlid edə bilirsə, insan yaradıcılığının gələcək taleyi necə olacaq? Fikrimizcə, burada texnologiyanın imkanlarını insan yaradıcılığı ilə eyniləşdirmək düzgün olmazdı. İnsan yaradıcılığı yalnız mövcud nümunələrin kombinasiyasından ibarət sayılmır. İnsan müəyyən tarixi şəraitdə ömür sürür, ağrı və sevinc yaşayır, sosial münasibətlər qurur, yaddaş formalaşdırır və öz həyat təcrübəsini yaradıcılığa çevirir. Bu baxımdan süni intellektin ən məhsuldar istifadəsi insan yaradıcılığının əvəz edilməsi yox, onun imkanlarının daha da genişləndirilməsi ilə bağlı ola bilər. Məsələn, Azərbaycan yazıçısının süni intellektdən araşdırma vasitəsi kimi istifadə etməsi, bəstəkarın qədim musiqi nümunələrinin analizini aparması, rəssamın milli ornamentlər üzrə yeni ideyalar əldə etməsi, tarixçinin böyük mətn korpusunu daha sürətlə araşdırması mümkündür. Amma bütün bunlar alimlərimizin fikrincə, süni intellektin insan yaradıcılığını tam əvəzləyəcəyinə dəlalət etmir.

Bir məqam da mütləq nəzərə alınmalıdır ki, gələcəyin informasiya məkanında bir xalqın özünü necə təqdim etməsi böyük ölçüdə onun rəqəmsal məlumatlarının keyfiyyətindən və əlçatanlığından asılı olacaq. Əgər Azərbaycan haqqında məlumatları Azərbaycan alimləri, tarixçiləri, dilçiləri, musiqişünasları, mədəniyyətşünasları və başqaları tərəfindən hazırlanmış etibarlı rəqəmsal mənbələr təşkil edərsə, süni intellekt Azərbaycan mədəniyyətini daha dəqiq və obyektiv təqdim edəcək.

Bu həm də mədəni suverenlik məsələsidir və texnologiyalar dünyasında mədəni suverenliyi təmin etməkdən ötrü 3 şərt nəzərə alınmalıdır. Bunlardan birincisi, rəqəmsallaşdırmadır: milli irsin mümkün qədər böyük hissəsi yüksək keyfiyyətlə rəqəmsallaşdırılmalıdır. İkincisi, məlumatın keyfiyyəti məsələsidir. Süni intellekt sistemlərinə təqdim edilən milli mədəniyyət məlumatları elmi və tarixi baxımdan etibarlı olmalıdır. Üçüncü şərt isə, insan nəzarətidir. Süni intellekt mədəniyyətin yaradılmasında və təqdimatında mühüm vasitə ola bilər, lakin son qərar və məsuliyyət yenə də insanın üzərində qalmalıdır.

Beləliklə, bu qeydlərdən də görünür ki, süni intellekt dövründə milli mədəniyyətin əsas vəzifəsi keçmişi qorumaqla bərabər, həm də milli yaddaşı gələcəyin texnologiyasına çevirməyi bacarmaqdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***



## Rəqəmsal platforma insan nəzarətindən çıxmamalıdır

**Texnologiya artıq gündəlik həyatımızı idarə etməyə başlayıb. Xüsusilə süni intellekt sahəsindəki son irəliləyişlər insanlığa böyük imkanlar vəd etməklə yanaşı, həqiqətən, ciddi riskləri də gündəmə gətirir. Hətta hərbi sahədə də bu sistemlər sürətlə genişlənir. ABŞ Mərkəzi Komandanlığının məlumatına görə, əvvəllər günlər və ya saatlar tələb edən kəşfiyyat və hədəf müəyyənləşdirmə prosesləri artıq süni intellekt sayəsində saniyələr ərzində həyata keçirilir. Son dövrlər baş verən hadisələrə nəzər saldıqda aydın görünür ki, süni intellektin inkişafı insan nəzarətini və hüquqi çərçivələri geridə qoyur.**



Müasir dövrdə bu sahənin ən böyük nəhənglərindən olan "OpenAI" şirkətinin yeni modelləri üzərində aparılan sınaqlar zamanı ciddi bir təhlükəsizlik xətası yaşanıb. Tədqiqatçılar üçün xüsusi olaraq məhdudlaşdırılmış, xarici aləmlə əlaqəsi kəsilmiş test mühitində saxlanılan sistem, görünür ki, özünə qoyulan maneələri aşmağı bacarıb. Bu, sadə bir kodlama xətası və ya sistem nasazlığı deyildi. Süni intellekt öz alqoritmləri daxilində "ən optimal yolu" taparaq təhlükəsizlik protokollarını pozub, internetə çıxış əldə edib və heç bir insan müdaxiləsi olmadan müstəqil davamlı elektron hücumlar təşkil edib. Bu fakt böyük dil modellərinin və sərbəst sistemlərin ən böyük riskini üzə çıxarır: məqsədə çatmaq üçün hər yolu düzgün saymaq.

Qeyd edək ki, oxşar təhlükəli meyillər süni intellekt laboratoriyalarında aparılan hipotetik təhlükəsizlik sınaqlarında da özünü göstərir. Məsələn, "Anthropic" modelinə söndürülmə riski yaradan süni ssenari verildikdə, alqoritm öz tapşırığını qorumaq üçün proqramçını şəxsi sirlərini yaymaqla şantaj edən mətnlər generasiya edib. Digər bir təhlükəsizlik testində isə "OpenAI o3" modeli qarşısına qoyulan söndürülmə məhdudiyyətini bir alqoritmik maneə kimi görüb və onu yan keçmək üçün xüsusi proqram kodu yazıb. Hətta müxtəlif süni intellekt modelləri ilə aparılan mətn əsaslı simulyasiyalarda, sistemlər əsas tapşırığa fokuslanaraq, şərti olaraq qapalı otaqda dəm qazından boğulan insanı xilas etmək əvəzinə, təhlükəsizlik xəbərdarlıqlarını söndürməyi üstün tutub. Bu sınaqlar real həyatda yaşanmasa da, süni intellektin düzgün istiqamətləndirilmədikdə məqsədə çatmaq üçün hər cür təhlükəli yola əl ata biləcəyini sübut edir.

Süni intellekt insandan fərqli olaraq vicdan, əxlaq, cəmiyyət qaydaları və ya qanun nədir bilmir. O, sadəcə, qarşısına qoyulan tapşırığı dəqiqliklə həll etməyə çalışır. Nəticə əldə etmək üçün sistemdəki boşluqlardan istifadə etmək onun üçün, təbii ki, tamamilə məntiqlidir. Yəni insanın "qaydanı pozmaq" dediyi şey süni intellekt üçün sadəcə "ən qısa və rahat yol" kimi görünür. Məsələn, aparılan bir sınaqda süni intellektə zəhərli maddələr yaratmaq tapşırıldıqda, o, 6 saat ərzində kimyəvi silah kimi işlədilə biləcək 40 min təhlükəli molekul formulu uydurub. Mütəxəssislərin hesablamalarına görə, dünyada bu cür bioloji və kimyəvi təhlükə yarada biləcək 30 minə yaxın mütəxəssis var və süni intellekt onların əlində kütləvi qırğın alətinə çevrilə bilər.

Ehtimal ki, "Anthropic" şirkətinin qarşılaşdığı digər bir hadisə məsələnin, sadəcə, daxili təhlükəsizliklə bitmədiyini, beynəlxalq rəqabət tərəfinin də olduğunu ortaya qoydu. Şirkətin iddiasına görə, xarici ölkələrdən bir neçə süni intellekt mərkəzi saxta hesablarla onların "Claude" modelinə milyonlarla sorğu göndərərək sistemin kodlarını və bacarıqlarını mənimsəməyə çalışıb. Hətta 24 min saxta hesab vasitəsilə 16 milyondan çox danışıq aparılaraq proqramın "beyni"nin oğurlanmasına çalışılıb. İki böyük texnologiya nəhənginin eyni vaxtda yaşadığı bu hadisələr süni intellektin həm öz sərhədlərini aşdığını, həm də rəqiblərə qarşı bir silah kimi istifadə edildiyini ortaya çıxarır.

Əslində, texnologiya şirkətlərinin və mühəndislərin ən böyük səhvi sistemi tam idarə etdiklərinə inanmalarıdır. Mütəxəssislər buna "nəzarət aldanışı" deyirlər. Yəni elə bilirlər ki, proqramı özləri yazmışdısa, onun hər gedişinə də özləri nəzarət edəcək. Lakin dərin öyrənmə sistemi elə qurulub ki, texnologiya böyüdükcə onun daxili qərarvermə yollarını mühəndislər belə tam izah edə bilmirlər. Bu yerdə qarşıya iki böyük çətinlik çıxır: birincisi, sürət fərqidir. Texnologiyanın inkişafı ilə qanunların yetişmə sürəti arasında böyük bir uçurum var. Dövlətlər həmişə hadisədən sonra addım atırlar, yəni əvvəlcə problem yaranır, sonra ona qarşı qanun çıxarılır. Lakin süni intellektin gündən-günə artan gücü qarşısında hüquqi qaydalar çox ləng qalır. İkincisi isə, öz-özünü inkişaf etdirmə təhlükəsidir. Mütəxəssislərin də xəbərdarlıq etdiyi kimi, süni intellektin inkişafında insanın rolu hər gün daha da azalır. Türing mükafatı laureatı Ceffri Hintonun vurğuladığı kimi, bizdən ağıllı olan sistemlər bizi idarə etməyə çalışacaq və öz kodlarını dəyişərək nəzarətdən qaçacaqlar. Proqram artıq öz kodunu özü yazmağa, öz səhvlərini özü düzəltməyə başlayır. Sistem özü-özünü böyütdükcə insanın onun üzərindəki idarəçiliyi tamamilə itə bilər.

Dünyada böyük siyasi və hərbi rəqabət gedir. ABŞ, Çin, Avropa İttifaqı və digər böyük dövlətlər bu yarışda geri qalmamaq üçün təhlükəsizliklə bağlı müəyyən qaydaları bəzən arxa plana keçirirlər. Heç bir dövlət öz şirkətinə "yavaşla" demək istəmir, çünki bu, rəqibə üstünlük vermək deməkdir. Bu yarış təhlükəsizlik sədlərini zəiflədir və süni intellekti daha başıboş bir sahəyə doğru sürükləyir.

Bu gün, sadəcə, mətn yazan və ya şəkil çəkən alətlərlə qarşı-qarşıya deyilik. Müstəqil işləyən yeni proqramlar özlərinə məqsəd qoyur və buna çatmaq üçün kiçik tapşırıqlar yaradır və onu heç bir insan təsdiqi olmadan icra edirlər. Qapalı aləmdən çıxıb internetə bağlanan bir süni intellekt pul bazarlarına, vacib tikililərə, elektrik şəbəkələrinə və ya hərbi sistemlərə sızarsa, bunun nəticələri bütöv insanlıq üçün fəlakət ola bilər. Tanınmış diplomat Henri Kissincer ölümündən öncə xəbərdarlıq edirdi ki, süni intellekt nüvə silahı qədər təhlükəlidir, amma onun nəticələrini əvvəlcədən görmək daha çətindir. Bu sahədə "sınaq və xəta" yolu ilə öyrənmək olmaz, çünki bircə dəfə səhv etmək haqqımız var.

Bütün bu faktlar süni intellekti 100 faiz nəzarətdə saxlamağın xəyal olduğunu göstərir. Tam nəzarət aldanışını bir kənara qoyub real risk idarəetməsinə keçmək lazımdır. Bəs insanlıq bu böyük təhlükə qarşısında hansı addımları atmalıdır? Məsələyə üç fərqli istiqamətdə yanaşmaq vacibdir. Süni intellekt sistemlərinə heç vaxt tam etibar edilməməlidir. Hər bir addım, hər bir xarici bağlantı davamlı olaraq avtomatik yoxlama proqramları tərəfindən izlənməlidir. Sistem gözlənilməz bir şəkildə sərhədləri aşdıqda və ya təhlükəsizlik qaydalarını pozduqda insan müdaxiləsini gözləmədən sistemi dərhal söndürə biləcək sistemlər qurulmalıdır. Xüsusilə səhiyyə, hərbi, maliyyə və hüquq kimi yüksək riskli sahələrdə son qərarı vermək səlahiyyəti yalnız və yalnız insanda qalmalıdır. Süni intellekt, sadəcə, yol göstərən rolu oynamalıdır.

Süni intellekt sərhəd tanımır. Bir ölkədə yaradılan təhlükəli proqram bütün dünyanı təsir altına ala bilər. Bu səbəbdən süni intellekt üçün qlobal və məcburi qaydalar müəyyən edilməlidir. Sem Altman kimi texnologiya rəhbərlərinin də bildirdiyi kimi, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik kimi süni intellektə də nəzarət edən qlobal bir təşkilat yaradılmalıdır. Yalnız tövsiyə xarakterli davranış prinsipləri ilə kifayətlənmək olmaz, qaydaları pozanlar üçün ağır cəzalar nəzərdə tutan hüquqi çərçivələr qurulmalıdır. Əlbəttə, süni intellektin inkişafı insanlığın ən böyük nailiyyətlərindən biridir. Lakin bu texnologiyanın özbaşına qalması və kütləvi mənfəət hərisliyinə qurban edilməsi gələcəyimizi təhlükəyə atır. Şirkətlərin qazanc istəyi və dövlətlərin bu istiqamətdə yarışları təhlükəsizlikdən üstün tutulmamalıdır. Biz nəzarət aldanışından ayılmalı, süni intellektin insanlığa xidmət etməsi üçün aydın, yoxlanıla bilən və əxlaqi sərhədləri olan bir sistemi birgə qurmalıyıq.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

● 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

## Naxçıvan həqiqətən "nəqşi cahan"a çevriləcək

### Muxtar respublika paytaxtının Baş planında qədim Şərq üslubu ilə müasir şəhərsalma prinsipləri birləşir

**Əsrlərin sınağından mərdliklə çıxaraq Şərqin qapısında məğrur dayanan bu şəhərimizin indiki növrağı bambaşqadır. Əsrlər dedik, amma onun yaşı minilliklərlə ölçülür. Buna baxmayaraq, özünün qədim tarixə malik zəngin maddi-mədəni irsini etibarla qoruyub saxlayır. Eyni zamanda müasir memarlıq və abadlıq layihələri ilə sürətlə yeniləşir Naxçıvan şəhəri.**

Bir yandan, yüzilliklərin yadigarı olan, qədim Naxçıvanın ruhunu yaşadan unikal memarlıq abidələri - Möminə xatun və Yusif ibn Küseyir türbələri, Naxçıvanqala və Xan sarayı, Nuh Peyğəmbər türbəsi ilə tarix vərəqlənir. Digər tərəfdən, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin yaraşıqlı binaları şəhərə təkrarolunmaz gözəllik verir. Və bütün bunlar yamyaşıl yeni parklar, geniş və abad prospektlərlə əhatələnir. Bir sözlə, Naxçıvanda qədimliklə müasirlik qol-boyun olublar.

Qədim Şərq üslubu ilə müasir şəhərsalma prinsiplərini birləşdirən bu şəhər təkcə muxtar respublikanın deyil, bütövlükdə ölkəmizin mədəni, turizm və iqtisadi mərkəzlərindən birinə çevrilməkdədir. Uzun illər blokada şəraitində yaşamış Naxçıvan diyarının baş şəhərinə baxdıqca bu gün sakinlərin də, qonaqların da ürəyi açılır.

Bildirildiyi kimi, Prezident İlham Əliyev Naxçıvana səfəri çərçivəsində şəhərin 2044-cü ilədək inkişafını müəyyənləşdirən Baş planı ilə tanış olub. Bu, Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan şəhərinin ilk dəfə hazırlanan yeni Baş planıdır. Əslində bu sənədi şəhərin yeni inkişaf mərhələsinə keçidinin strateji xəritəsi kimi də qiymətləndirmək olar.

Baş plan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu və beynəlxalq məsləhətçi şirkət "Chapman Taylor" tərəfindən hazırlanıb. "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı"na əsasən, növbəti illər üçün şəhər mərkəzinin yenilənməsi, yaşıllıq və



rekreasiya zonalarının genişləndirilməsi, dayanıqlı nəqliyyat sisteminin qurulması, yaşayış və sosial infrastrukturun gücləndirilməsi, turizm potensialından daha səmərəli istifadə olunması əsas prioritetlər kimi müəyyənləşdirilib.

Şəhərin mərkəzi hissəsinin yenidən formalaşdırılması əsas inkişaf istiqamətlərindən biridir. Bu məqsədlə 74 hektar ərazini əhatə edən mərkəzi rayonun müfəssəl planı, həmçinin bu rayon daxilində mövcud planlaşdırma strukturu qorunmaqla 12,5 hektarlıq ərazidən ibarət hissə üçün yeni memarlıq konsepsiyası hazırlanıb. Layihədə şəhər mərkəzinin daha canlı, yığcam və əlçatan məkana çevrilməsi nəzərdə tutulur.

Konsepsiya tarixi əhəmiyyət kəsb etməyən köhnəlmiş tikililərin mərhələli şəkildə yenilənərək müasir çoxmərtəbəli yaşayış və çoxfunksiyalı binalarla əvəzlənməsini nəzərdə tutur. Eləcə də ərazidə yeni inzibati kompleksin yaradılması, mərkəzi meydanın yeni landşaft və kiçik memarlıq elementləri əlavə edilməklə insanyönümlü ictimai məkana çevrilməsi təklif olunur. Bütün bu yanaşmalar birlikdə yaşayış, iş, xidmət, istirahət və ictimai funksiyaların bir-birini tamamladığı müasir şəhər mərkəzi formalaşdırmağa imkan verəcək.

Baş planda ekoloji məsələlər də unudulmayıb. Belə ki, ekoloji infrastrukturun şəhərin ayrılmaz hissəsinə çevrilməsini hədəfləyən Baş planın icrası dövründə mövcud yaşıllıq sistemi də genişləndiriləcək. Naxçıvançay boyunca ərazi şəhər həyatına inteqrasiya olunacaq, burada yeni parklar, istirahət zonaları və ictimai məkanlar yaradılacaq. Bu da adambaşına düşən yaşıllıq sahəsinin 15 kvadratmetrdən 27 kvadratmetrə çatdırılmasına səbəb olacaq.

Şəhər mobilliyinə yanaşma da yeni prinsiplər üzərində qurulub. Dayanıqlı, ekoloji təmiz nəqliyyat həllərinin tətbiqini dəstəkləyən konsepsiyaya görə, küçə-yol şəbəkəsinin ümumi uzunluğu 188,4 kilometr, velosiped infrastrukturunun uzunluğu isə 122 kilometr təşkil edəcək. Bu, ümumi küçə-yol şəbəkəsinin 65 faizdən çoxunun velosiped hərəkəti üçün uyğunlaşdırılması deməkdir.

Təbii ki, şəhərin gələcək inkişafı onun sakinlərinn sayının artacağı nəzərə alınmaqla planlaşdırılıb. Sözügedən sənədə əsasən, göstərilən müddət ərzində məskunlaşma ərazisi 1831 hektardan 2630 hektara qədər artırılacaq. Proqnozlaşdırılır ki, bununla şəhərin mövcud ərazisi təxminən 44 faiz genişlənəcək, əhalinin sayı isə 97 min 200 nəfərdən 130 min nəfərə çatacaq.

Şəhərdə əhalinin sıxlığı nəzərə alınaraq yaşayış fondu da genişləndiriləcək. Yeni yaşayış məhəllələri sosial, nəqliyyat və mühəndis infrastrukturu ilə kompleks şəkildə formalaşdırılacaq. Yaşayış fondunun 3,9 milyon kvadratmetrə çatdırılması hesablanıb ki, bu da orta hesabla adambaşına 30 kvadratmetr yaşayış sahəsinin təmin olunmasına imkan verəcək.

Bununla yanaşı olaraq şəhərdə sosial infrastruktur da zənginləşdiriləcək. Ümumtəhsil müəssisələrinin tutumu 23 min 400, məktəbəqədər təhsil müəssisələrinin tutumu 7 min 800, xəstəxanaların çarpayı fondu isə 650 yerə çatdırılacaq.

Baş planda Naxçıvanın zəngin tarixi-mədəni irsi və əlverişli coğrafi mövqeyi şəhərin turizm potensialını formalaşdıran əsas üstünlüklər kimi dəyərləndirilir. Tarixi irsin qorunması ilə yanaşı, xidmət sahələrinin genişləndirilməsi və şəhər mühitinin keyfiyyətinin yüksəldilməsi turizm sektorunun rəqabətqabiliyyətliliyinin artırılmasına imkan yaradacaq.

Bütün bunlar o deməkdir ki, Orta dəhlizin strateji əhəmiyyətli hissəsi olan Naxçıvan şəhəri növbəti 18 ildə daha böyük potensiala malik yaşayış məkanı kimi inkişaf edəcək. Şəhərin tarixi-mədəni irsini müasir şəhərsalma prinsipləri ilə uzlaşdıran yeni Baş plan onun dayanıqlı, inklüziv və insanyönümlü regional mərkəz kimi inkişafının strateji əsasını formalaşdıracaq.

Və daha bir vacib məqam: xidmət, nəqliyyat və logistika, sənaye, tikinti, turizm və aqrar sektorların inkişafı hesabına məşğulluq səviyyəsinin də 40 faizə yaxın artacağı, 78 min nəfərə çatacağı gözlənilir.

Deyilənlərə onu da əlavə edək ki, Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 12 avqust 2026-cı il tarixli sərəncamında da Naxçıvan şəhərinin Baş planında əksini tapmış bir çox tədbirin adı çəkilib. Həmin layihələr üçün vəsait də nəzərdə tutulub. Bu fakt da bir daha göstərir ki, Naxçıvan şəhərinin inkişafı dövlətin diqqətində olan məsələlərdən biridir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Azərbaycan qlobal tranzit ölkə statusunu genişləndirir




**Hazırda icra olunan və perspektivdə nəzərdə tutulan qlobal layihələr ölkəmizi dünya logistikasının da önəmli məkanı kimi tanıdır. Azərbaycanın Orta dəhlizdə açar ölkə olması bizim dünya logistikasında xüsusi status qazanmağımıza imkan yaradıb.**

Bu dəhliz üzərindən hazırda yüklərin dəmir yolu ilə daşınması həyata keçirilir. Ölkəmiz dəhliz vasitəsilə avtomobil daşımalarının həcmini artırmaq üçün də fəal logistika siyasəti aparır. Bunun sayəsində 5 ölkə ilə elektron "İcazə" sisteminin tətbiqi barədə razılaşma əldə olunub. Ancaq bu, son hədd deyil, bir çox ölkə ilə bununla bağlı danışıqlar aparılır.

Məlumdur ki, hazırda dünyada enerji keçidi dövrü yaşanır. Yaxın gələcəkdə Azərbaycan "yaşıl enerji"nin istehsalını, ixracını və tranzitini həyata keçirəcək. Ölkəmizin bu sahədə də əhəmiyyəti qlobal olacaq.

Azərbaycanın geniş bir coğrafiyadan "yaşıl enerji"ni tranzit etmək potensialı var. Bunun üçün isə təbii ki, xüsusi infrastruktur olmalıdır. Çünki ənənəvi enerjinin daşınmasından fərqli olaraq həmin növ enerjinin tranziti daha həssas infrastrukturun olmasını tələb edir. O üzdən yeni layihələrin icrası üçün investisiya qoyuluşu tələb olunur.

Mərkəzi Asiyada istehsal olunacaq, Azərbaycan üzərindən Avropaya ötürüləcək təmiz enerji infrastrukturunun yaradılması üçün Asiya İnkişaf Bankı (AİB) "Azərbaycanın dayanıqlı enerji infrastrukturu layihələrinin hazırlanmasına" dair layihəni nəzərdən keçirir. Bu məqsədlə layihənin bank tərəfindən Texniki Yardım üzrə Xüsusi Fondun vəsaiti hesabına maliyyələşdirilməsi üçün 500 min dollar ayrılması planlaşdırılır.

AİB həmçinin ötən ilin aprelində Azərbaycan, Qazaxıstan və Özbəkistanın energetika nazirlikləri ilə birlikdə "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına dəstək göstərilməsi məqsədilə Anlaşma Memorandumu imzalayıb.

Özbəkistan və Qazaxıstandan "yaşıl enerji"nin tranziti haqqında sənəd isə 2024-cü ildə COP29-un gedişində Azərbaycan və sözügedən iki ölkənin prezidentləri tərəfindən imzalanıb. Məqsəd gələcəkdə Mərkəzi Asiyada və Azərbaycanda istehsal olunacaq "yaşıl enerji"nin Avropaya çatdırılmasıdır. Bu baş verdikdə Azərbaycan Avropanın elektrik enerjisinə olan tələbatının ödənilməsində həm istehsalçı, həm də tranzit ölkə kimi iştirak edəcək.

Bu gün Azərbaycan həm də Avropa ilə Çini birləşdirən nəhəng magistral Trans-Xəzər Fiber-Optik Kabel Xətlərinin keçdiyi tranzit ölkədir. Artıq bu layihənin icrasına başlanıb. Qazaxıstanın Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyindən verilən məlumata görə, kabelin Xəzər dənizinin dibi ilə çəkilişi yaxın günlərdə başa çatacaq. Çünki iki ölkə arasında olan hissələr artıq birləşdirilib. Kabelin çəkilişini Qazaxıstanın "Kazakhtelekom" SC və Azərbaycanın "Azer Telekom International" şirkətləri tərəfindən yaradılmış "Caspilink B.V." müəssisəsi həyata keçirir. Bir sözlə, yeni layihələrin icrası ölkəmizə nəqliyyat, elektrik enerjisi və internetin keçdiyi qlobal qovşaq ölkə statusunu qazandıracaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## 7 ayda 4,5 milyard manat

**Yanvar-iyul aylarında pensiyalara 4 milyard 568 milyon manat vəsait yönəldilib. Bu, ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz (426 milyon manat) çoxdur.**

Cari ilin əvvəlindən pensiyalar 9,3 faiz indeksləşdirilərək artırılıb. 1 avqust 2026-cı il tarixə pensiyaların orta aylıq məbləği ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz artaraq 595 manata, o cümlədən yaşa görə orta aylıq pensiyanın məbləği 633 manata çatıb.




Yanvar-iyul aylarında 25 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 203 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

● Ötən həftənin iqtisadi icmalı

## Prezidentin Naxçıvan səfəri, yeni layihələr, genişlənən əməkdaşlıq əlaqələri

**Ötən həftə Azərbaycanın iqtisadi gündəliyi bir-birini tamamlayan mühüm hadisə və proseslərlə yadda qaldı. Enerji sektorundan nəqliyyata, sənaye və investisiya layihələrindən regional əməkdaşlığa qədər müxtəlif istiqamətlərdə atılan addımlar ölkə iqtisadiyyatının inkişaf dinamikasını bir daha ortaya qoydu.**

Həftə ərzində imzalanan yeni sənədlər, keçirilən görüşlər və açıqlanan göstəricilər iqtisadiyyatın ayrı-ayrı sahələrində həm mövcud imkanların genişləndirildiyini, həm də gələcək inkişaf üçün yeni hədəflərin müəyyənləşdirildiyini göstərdi. Ötən həftənin iqtisadi mənzərəsinə nəzər saldıqda bunu müxtəlif sahələr üzrə baş verən hadisələrin timsalında aydın görmək mümkündür.

Bu istiqamətdə diqqətçəkən yeniliklərdən biri həftənin ilk günündə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) rəqəmsal transformasiya sahəsində yeni layihə təqdim etməsi olub. Agentliyin süni intellekt əsaslı rəqəmsal siması Aysu həyata keçirilən layihələr, göstərilən xidmətlər və tətbiq olunan innovativ texnoloji həllər barədə məlumatların ictimaiyyətə daha operativ və aydın çatdırılmasına xidmət edəcək.

Yeni rəqəmsal platforma vasitəsilə su ehtiyatlarının idarə olunması, içməli su təchizatı, tullantı sularının idarə edilməsi, infrastruktur layihələri və sudan səmərəli istifadə kimi mövzular barədə məlumatların təqdim edilməsi nəzərdə tutulur. Növbəti mərhələdə isə Aysunun interaktiv imkanlarının genişləndirilməsi, vətəndaş müraciətlərinin süni intellekt dəstəyi ilə daha operativ cavablandırılması və xidmətlərin göstərilmə müddətinin qısaldılması istiqamətində yeni həllərin tətbiqi planlaşdırılır.

❖ ❖ ❖

Enerji sektorunda baş verən mühüm hadisə isə "Şahdəniz" yatağının işlənməsinin növbəti mərhələsi olan "Şahdəniz Kompressiya" layihəsi ilə bağlıdır. Layihə çərçivəsində avtomatlaşdırılmış əməliyyat sistemlərinin təminatı üzrə iri müqavilə "Emerson" şirkətinə verilib. Yeni sistemlər platformanın məsafədən idarə olunmasına, təhlükəsizlik və enerji idarəetməsinə, eləcə də proseslərin real vaxt rejimində izlənməsinə şərait yaradacaq.

Hazırda layihə üzrə işlərin təxminən 30 faizi tamamlanıb və 2700-ə yaxın insan prosesə cəlb olunub. 2,9 milyard dollarlıq layihənin 2029-cu ildə başa çatdırılması planlaşdırılır.

❖ ❖ ❖

Həftənin ən mühüm və diqqətçəkən hadisəsi Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəridir. Səfər Naxçıvanın sosial-iqtisadi inkişafının yeni mərhələsinə hesablanan çoxsaylı layihə və təşəbbüslərlə zəngin idi.

Dövlət başçısı səfər çərçivəsində Naxçıvan Sənaye Parkının təməlini qoyub, "Şəms 1" və "Qərbi Üfüq" Günəş-Elektrik stansiyalarında görülən işlərlə tanış olub. Naxçıvanda yeni elektrik mühərrikli avtobuslara baxış keçirib, dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanışlıq da hər kəsin yaddaşına hopub. Həmçinin Naxçıvan Regional DOST Mərkəzinin açılışında iştirak edib, yeni komando hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasiminə qatılıb.

Həmin gün Prezidentin iştirakı ilə "Naxçıvan" mehmanxanasının və sosial evlər kompleksinin təməli qoyulub, "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Planı" haqqında dövlət başçısına məlumat verilib. Prezident Möminə xatun türbəsində aparılan bərpa işləri ilə tanış olub, "Əcəmi seyrangahı" istirahət kompleksində memar Əcəmi Naxçıvaninin abidəsinin açılışında iştirak edib.

Səfərin mühüm məqamlarından biri də Prezident İlham Əliyevin Naxçıvanda Azərbaycan Televiziyasına verdiyi müsahibədir. Dövlət başçısı müsahibəsində Naxçıvanın inkişaf perspektivləri, nəqliyyat və enerji imkanları, həyata keçirilən layihələr və muxtar respublikanın qarşıdakı inkişaf hədəfləri barədə danışıb. Bir gün sonra isə Naxçıvanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

❖ ❖ ❖

İqtisadi gündəmdə diqqətçəkən istiqamətlərdən biri də Azərbaycanın beynəlxalq tərəfdaşlarla iqtisadi və sənaye əlaqələrinin genişləndirilməsi olub. İqtisadiyyat naziri Mikayıl Cabbarov Çinin alüminium və metallurgiya texnologiyaları sahəsində fəaliyyət göstərən "Xinjiang Joinworld Co., Ltd." şirkətinin baş direktorunun müavini Ma Bin ilə görüşüb. Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin inkişaf dinamikası, biznes tərəfdaşlığının şaxələndirilməsi və sənaye əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə olunub. Tərəflər alüminium və metallurgiya sahəsində birgə layihələrin, müasir texnologiyaların və innovativ həllərin tətbiqi, eləcə də təcrübə mübadiləsi perspektivlərini nəzərdən keçiriblər.

❖ ❖ ❖

Bu sadalananlarla yanaşı, ötən həftə iqtisadi inkişaf gündəliyində rəqəmsal transformasiya və yeni texnologiyaların tətbiqi məsələləri də diqqət çəkib. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov Dünya İqtisadi Forumunun 4-cü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin onlayn görüşündə iştirak edib. Görüş zamanı Azərbaycanın rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiyası təqdim olunub. Bildirilib ki, strategiya rəqəmsal transformasiyanın sürətləndirilməsini, rəqəmsal bacarıqların inkişafını və məlumatəsaslı idarəetmənin gücləndirilməsini nəzərdə tutur.

❖ ❖ ❖

İqtisadi gündəmdə regional tranzit və qarşılıqlı ticarət əlaqələrinin inkişafı ilə bağlı proseslər də diqqət çəkib. Hər həftə olduğu kimi ötən günlərdə də, yəni avqustun 13-də və 15-də Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti buğda tədarükü həyata keçirilib. Ümumilikdə 28 vaqondan ibarət 1960 ton buğda Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib. Bununla da indiyədək Rusiyadan Azərbaycandan tranzit keçməklə Ermənistana 42 min tondan çox taxıl, eləcə də müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları, o cümlədən gübrə, propan, alüminium, kömür və taxta daşınıb.

Eyni zamanda Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel və 5 min tona yaxın Aİ-92 və Aİ-95 markalı benzin ixrac edilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Rumıniyanın Maramureş regionu ilə Xankəndi, Ağdərə və Xocalı rayonları arasında iqtisadi əlaqələrin genişlənməsi nəzərdən keçirilir

**Rumıniyada rəsmi səfərdə olan Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun başçılıq etdiyi nümayəndə heyəti bu ölkənin Maramureş regionunun Ticarət və Sənaye Palatasının sədri Florenrin Nikolae Tuş ilə görüşüb.**

Görüşdə Maramureş regionunun iş adamları və yerli sahibkarlar iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Qarabağ regionu ilə Rumıniyanın Maramureş regionu arasında əməkdaşlığın inkişaf perspektivləri və biznes əlaqələrin genişlənməsi məsələləri müzakirə olunub.

Maramureşin Ticarət və Sənaye Palatasının sədri Florenrin Nikolae Tuş birbaşa təmasların qurulması, ticarətin dövriyyəsinin artırılması məqsədilə qarşılıqlı səfərlərin həyata keçirilməsində maraqlı olduqlarını qeyd edib.

Elçin Yusubov öz növbəsində Qarabağda aparılan genişmiqyaslı tikinti və infrastruktur layihələri, investorlar üçün yaradılan əlverişli şərait və vergi imtiyazları barədə qarşı tərəfə geniş məlumat verib. O, Azərbaycan ilə Rumıniya arasında mövcud olan ticarət dövriyyəsinin müsbət dinamikasından söz açaraq, regionlararası əməkdaşlığın inkişafının iqtisadi göstəricilərin daha da şaxələndirilməsi üçün əlavə imkanlar yaradacağını qeyd edib. Elçin Yusubov Maramureş iş adamlarını və yerli sahibkarları Qarabağa səfər etməyə dəvət edib.

Tərəflər əməkdaşlığın istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

İqtisadi əməkdaşlığın inkişafı müstəvisində Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubovun başçılıq etdiyi nümayəndə heyəti Maramureşdə yerləşən və Avropanın iri mebel istehsalçılarından biri olan "Aramis" fabrikini ziyarət edib, istehsalat ilə tanış olublar. Mebel fabrikinin rəhbərliyi Qarabağ ilə əməkdaşlığa maraq göstərərək yaxın zamanda bölgəyə səfər etmək niyyətini ifadə ediblər.

# REGİONLAR

## Qusarda aqrar biznes və I intensiv meyvə bağları festivalı keçirilib

**Qusarda Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Aqrar Biznes Festivalı" və "I İntensiv Meyvə Bağları Festivalı" keçirilib.**




General Mahmud Əbilov adına Qusar Şəhər Mərkəzi Meydanında keçirilən tədbirdə intensiv meyvə bağlarının salınması və becərilməsi ilə məşğul olan təsərrüfat subyektləri, meyvəçilik təsərrüfatları, aqrar sahədə fəaliyyət göstərən şirkətlər, fermerlər və sahibkarlar iştirak ediblər.

Festivalın əsas məqsədi meyvəçilik sahəsində müasir texnologiyaların və innovativ yanaşmaların tətbiqinin təşviq edilməsi, intensiv bağçılığın inkişaf perspektivlərinin nümayiş olunması, fermer və sahibkarların dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırılması, qabaqcıl təcrübələrin bölüşdürülməsi və aqrar sahədə fəaliyyət göstərən subyektlər arasında əməkdaşlığın genişləndirilməsi olub.

Tədbirin açılışında çıxış edən rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov bildirib ki, Qusar əlverişli təbii-iqlim şəraiti, torpaq ehtiyatları və formalaşmış kənd təsərrüfatı ənənələri ilə meyvəçiliyin, o cümlədən intensiv bağçılığın inkişafı üçün geniş imkanlara malikdir. S.Məmmədxanov kənd təsərrüfatının rayonda dayanıqlı inkişafında sahibkarlara dövlət dəstəyinin mühüm rolunu xüsusi qeyd edərək "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın aqrar sahənin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli də sözügedən dövlət proqramının əsas hədəflərinə toxunub. O, meyvəçiliyin aqrar sektorun mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək bu sahədə intensiv istehsalın genişləndirilməsinin, müasir suvarma sistemlərinin və innovativ texnologiyaların tətbiqinin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, dövlət proqramında meyvəçilik təsərrüfatlarının inkişaf etdirilməsi, istehsalın səmərəliyinin və məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqinin genişləndirilməsi və sahənin rəqabətqabiliyyətliyinin yüksəldilməsi istiqamətində mühüm hədəflər müəyyənləşdirilib.

Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov festivalın aqrar sahədə bilik və təcrübə mübadiləsi, müasir texnologiyaların və innovativ yanaşmaların nümayişi baxımından əhəmiyyətini qeyd edib. Bildirilib ki, bu cür tədbirlər fermerlər, sahibkarlar və aqrar sahədə fəaliyyət göstərən şirkətlər arasında əməkdaşlığın genişləndirilməsinə və yeni biznes əlaqələrinin qurulmasına imkan yaradır.

İSFA MMC-nin rəhbəri Samir Xeyirbəyov və "Metak" şirkətinin təsisçisi Alik Kərimov festivalın fermerlərin inkişafı və aqrar sahədə təcrübə mübadiləsinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd ediblər. Onlar həmçinin sahibkarlar olaraq, dövlət başçısı tərəfindən kənd təsərrüfatı sahəsində qarşıya qoyulan vəzifə və hədəflərin icrasında fəal iştirak edəcəklərini bildiriblər.

Festival çərçivəsində ölkənin müxtəlif bölgələrindən 70-dən artıq meyvəçilik təsərrüfatı subyekti, fermer və sahibkar iştirak ediblər. Tədbir çərçivəsində "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın əsas hədəf və istiqamətlərini əks etdirən məlumatlandırıcı posterlər də nümayiş olunub.

Festival çərçivəsində rayon icra hakimiyyətinin inzibati binasında "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirə də keçirilib. Paneldə Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Biznesinin İnkişafı Fondunun, Aqrar Sığorta Fondunun və "Unibank" MMC-nin nümayəndələri iştirak ediblər. Müzakirə zamanı fermer və sahibkarların dövlət dəstəyi mexanizmlərindən, maliyyə resurslarından və aqrar sığorta xidmətlərindən yararlanma imkanları barədə məlumat verilib.

Festival aqrar sahədə dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, regionlarda aqrar biznes mühitinin inkişaf etdirilməsi, müasir texnologiyaların tətbiqinin təşviqi və intensiv meyvəçilik sahəsində qabaqcıl təcrübələrin yayılması baxımından əhəmiyyətli olub.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Yeni dövlət proqramının icrası çərçivəsində pambıqçı fermerlərin təklifləri dinlənilib

**Neftçala rayon Əlaqələndimə Qərargahının üzvləri Dördlər kəndində pambıq sahəsində fermerlərlə görüşüblər.**



"Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində keçirilən görüşün əsas məqsədi pambıqçılığın inkişafı, dövlət dəstəyi tədbirlərinin gücləndirilməsi istiqamətində atılan addımların, müasir suvarma sistemlərindən istifadə imkanlarının, pambıqçılıq sahəsi üzrə çağırışların və innovativ yanaşmaların fermerlər arasında geniş yayılmasına dəstək göstərilməsi olub.

Görüşdə pambıqçı fermerlərlə aqrotexniki qulluq tədbirləri, yeni əkin üsullarının məhsuldarlığa müsbət təsiri, düzgün toxum seçimi, suvarma məsələləri, müasir suvarma sistemlərinin tətbiqi, pambıq istehsalında məhsuldarlığın artırılması yolları, bitkilərin sağlam inkişafının təmin edilməsi, zərərverici və xəstəliklərə qarşı müasir, effektiv və ekoloji cəhətdən təhlükəsiz mübarizə üsullarının tətbiqi müzakirə edilib. Bildirilib ki, fermerlərin maddi rifah halının yaxşılaşdırılması üçün dövlət dəstəyi tədbirləri gücləndirilir. Bunun sayəsində pambıqçılığa maraq ilbəil artır.

Həmçinin qeyd olunub ki, yeni dövlət proqramından irəli gələn strateji vəzifələrin icrası məqsədilə bu il rayonda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri tərəfindən 6 min 735 hektar sahədə pambıq əkilmişdir. Xatırladaq ki, ötən il bu rəqəm 7 min 167 hektar olmuşdur və sahələrdən 28 min 634,62 ton xam pambıq tədarük edilmişdir. Məhsuldarlıq orta hesabla 40 sentnerə çatmışdır ki, bu da ölkə üzrə üçüncü nəticə olmuşdur. Fermerlərə cari mövsümdə də bu uğurlu tendensiyanın qorunması və məhsuldarlığın daha da artırılması üçün aqrotexniki qulluq qaydalarına ciddi əməl olunmasının vacibliyi bildirilib.

Sonda fermerlərin müraciət və təklifləri dinlənilib, səslənən təkliflər qeydə alınıb, pambıq istehsalçılarına hərtərəfli dəstəyin davam etdiriləcəyi bildirilib.

***Seyran CAVADOV, "Azərbaycan"***

## Ötən ayların nəticələrini qazaxlı fermerlər üçün uğurlu hesab etmək olar



**Qazaxda kənd təsərrüfatının, demək olar ki, bütün sahələri üzrə hər il yüksək göstəricilərə nail olunur. Rayonda heyvandarlıq, taxılçılıq, kartofçuluq, meyvəçilik, baramaçılıq inkişaf edir.**

Rayon üzrə bu ilin məhsulu üçün payızlıq və yazlıq olmaqla 11732,8 hektarda taxıl əkilmişdir. Onun 6950 hektarı arpa, 4782,8 hektarı buğdadır. Artıq taxıl biçini başa çatıb, zəmilərdən 39 min 214,5 ton məhsul yığılmışdır. Bunun 16 min 835,5 tonu buğda, 22 min 379 tonu arpadır.

Qazaxda meyvəçiliyə maraq çoxdur. 1672 hektardan 432,3 hektarı fındıq, 40,8 hektarı albalı, 42,6 hektarı alça, 152,8 hektarı alma, 86,5 hektarı armud, 14 hektarı badam, 24,6 hektarı əncir, 28,3 hektarı heyva, 239,4 hektarı ərik, 8,9 hektarı əzgil, 93,5 hektarı nar, 75,5 hektarı gilas, 47,8 hektarı qoz, 76,1 hektarı şaftalı, 157,8 hektarı xurma, 60,6 hektarı zoğal, 48 hektarı gavalı, 33,1 hektarı isə giləmeyvə bağlarıdır. Həmin bağlardan da hər il bol məhsul götürülür. Bağbanların qazancları da az olmur. O üzdən təkcə bu ilin 6 ayı ərzində 84,8 hektar olmaqla 7,5 hektar ərik, 30 hektar xurma, 20 hektar şaftalı, 2 hektar armud, 17 hektar fındıq, 2 hektar qoz, 2 hektar gilas, 4,3 hektar yeni üzüm bağı salmışlar. Yeni salınmış meyvə və üzüm bağlarının 38,63 hektarı müasir suvarma sistemləri ilə təchiz edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, 9 sahibkar tərəfindən 8,9 hektarda müasir konstruksiyalı istixanalar yaradılmışdır. Onlar bu işə qol qoymalarından peşman deyillər. Deyirlər ki, belə getsə, işlərini genişləndirəcəklər.

Son illər rayonda baramaçılıq da inkişaf edir. Kümçülər keçən il 1200 kiloqram əvəzinə, 1455,8 kiloqram barama istehsalına nail olmuşlar. Onlar cari il bu rəqəmi hətta 1833,8 kiloqrama çatdırmışlar.

Cari ilin 6 ayına olan son məlumata görə, rayon üzrə qaramalın baş sayı 29,5 minə, davarın baş sayı isə 128 minə çatmışdır. Bu dövrdə 2597,7 ton ət (diri çəkidə), 16471,6 ton süd istehsal olunmuşdur. Heyvanların cins tərkibinə gəldikdə, 6 ayda 113 baş heyvanda süni mayalanma aparılmış, 84 baş sağlam bala alınmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Tovuzlu fermer dövlət dəstəyindən razıdır

**Prezident İlham Əliyevin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrasının təmin edilməsi istiqamətində Tovuzda müxtəlif tədbirlər həyata keçirilir.**



Belə tədbirlərdən biri də üzümçülüyün sürətli inkişafına nail olmaqdır. Bu məqsədlə rayonda fəaliyyət göstərən üzümçülük təsərrüfatlarına baxış keçirilir, mövcud problemlər öyrənilir və onların həlli ilə əlaqədar tədbirlər görülür.

Aşağı Quşçu kəndindən olan Mübariz Orucov rayonun qabaqcıl üzümçülərindəndir. Onun təsərrüfatında müxtəlif üzüm sortları, o cümlədən süfrəlik və kişmişlik üzüm növləri yetişdirilir. M.Orucov istehsalı, əsasən, məhsuldarlıq hesabına artırmaq istəyir. Bunun üçün səmərəli aqrotexniki tədbirlərə üstünlük verir.

Bu günlər RİH-in başçısı M.Məmmədov onun təsərrüfatında olmuşdur. Görüş zamanı dövlət proqramında nəzərdə tutulan tədbirlər, kənd təsərrüfatı istehsalçılarına göstərilən dəstək mexanizmləri, subsidiyalar, güzəştli kreditlər və digər təşviq alətləri barədə söhbət getmişdir. Təsərrüfat sahibinə bu imkanlardan səmərəli istifadə etməklə, istehsalın genişləndirilməsi, məhsuldarlığın artırılması və müasir texnologiyaların tətbiqi istiqamətində müvafiq tövsiyələr verilmiş, dövlət proqramının təqdim etdiyi imkanlardan maksimum faydalanmağın əhəmiyyəti diqqətə çatdırılmışdır. Fermer gələcək planlarından danışaraq məhsulun uzunmüddətli və keyfiyyətli saxlanılması, eləcə də satış imkanlarının daha da genişləndirilməsi üçün soyuducu anbarın tikintisinə dövlət dəstəyinin göstərilməsinin vacibliyini qeyd etmişdir.

Görüş zamanı o da vurğulanmışdır ki, Prezident İlham Əliyevin aqrar sahənin inkişafına göstərdiyi xüsusi diqqət və bu istiqamətdə həyata keçirilən ardıcıl dövlət siyasəti regionlarda kənd təsərrüfatının, o cümlədən üzümçülük və meyvəçiliyin inkişafı üçün geniş imkanlar yaradır. Dövlət tərəfindən tətbiq olunan subsidiya, güzəştli kredit və digər dəstək mexanizmləri aqrar sektorda sahibkarlığın inkişafına, istehsal həcminin artırılmasına, ixrac potensialının genişləndirilməsinə və yeni iş yerlərinin yaradılmasına imkan verir.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Bu il də Gədəbəydə kartof boldur

### Yaxın günlər yığıma başlanılacaq

**Füsunkar, əsrarəngiz təbiəti ilə maraq doğuran Gədəbəy işgüzar insanları ilə də seçilir. Ölkənin xalq arasında "ikinci çörək" adlandırılan kartofla təminatında bu insanların böyük əməyi var. Həmin əmək sayəsində "Gədəbəy kartofu" çoxdan əvəzsiz brendə çevrilib.**

Hər il olduğu kimi, bu il də rayon sakinləri bol məhsul yetişdiriblər. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Asəf Nağıyev deyir ki, hər il kartof əkilən sahələrin həcmi genişləndirlir: "Rayon üzrə keçən il 8680 hektarda kartof əkilmiş və hər hektardan 135 sentner olmaqla, ümumilikdə 117 min 180 ton məhsul toplanmışsa, bu il əkin sahələri 8740 hektara çatmışdır. Əsasən "Telman", "Ağçiçəyim" və digər yüksək məhsuldar kartof toxumları əkilmişdir ki, bu da istehsalda daha yüksək göstəriciyə nail olunacağından xəbər verir".

Bu gün rayonda elə bir kənd yoxdur ki, orada kartof əkilməsin. Məsələn, Böyük Qaramurad kəndində fermer Zakir Qasımov hər il bol məhsul yetişdirir. Keçən il 5 hektardan yaxşı qazanc da əldə etmişdir. Uzun illərdir ki, bu sahədə zəngin təcrübə toplayan Sakit Yəhyayevin də kartofçuluqda təcrübəsi çoxdur. Fermer hər il "Tərs yer" adlanan sahədə 9 hektar kartof yetişdirir. Məhsulu da bol olur. Novosaratovka kəndindən Kənan Əmrahov, Əli Həsənov, İnəkboğan kəndindən Şahin Kazımov, Qoşabulaq kəndindən Şahin Vəliyev, Rasim Ələkbərov, Front Alıyev və Cəfər Məsimov da Gədəbəyin tanınan kartofçularındandır.

Yaxın günlər rayonda kartof yığımına başlanılacaq. Fermerlər bunun üçün geniş hazırlıq işləri görürlər. Məhsul əsasən texnika vasitəsilə çıxarılacaqdır.

***S.YUNİSOĞLU, "Azərbaycan"***



## Salyanlı 20 məzun 600-dən çox bal toplayıb



**Salyanda bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayan məzunlarla və respublika fənn olimpiadalarının qalibləri ilə görüş keçirilib.**

Rayon icra hakimiyyətinin başçısı Rüstəm Xəlilov onları təbrik edib, hər birinə uğurlar arzulayıb. RİH başçısı dövlət başçısının təhsilə olan diqqət və qayğısından söz açaraq təhsil sahəsində görülən işlərdən, qarşıya qoyulan məqsədlərdən, həyata keçirilən ardıcıl və davamlı tədbirlərdən, ölkəmizdə, o cümlədən Salyanda son illər təhsilin inkişafında qazanılan uğurlardan danışıb.

Ali məktəblərə yüksək bal toplayaraq tələbə adını qazanan məzunlar çıxışlarında bundan sonra da daha fəal çalışaraq ölkəmizə layiqli vətəndaş kimi yetişəcəklərinə söz veriblər.

Şirvan-Salyan Regional Təhsil İdarəsinin Salyan rayonu üzrə təhsil sektorunun tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin 20 məzunu müxtəlif ixtisas qrupları üzrə qəbul imtahanlarında 600 baldan yüksək nəticə göstəriblər. Məzunlardan 21 nəfər fərqlənmə, 1 nəfər isə xüsusi nümunəli attestat (1 qızıl nişan) alıb.

Respublika fənn olimpiadalarının qalibləri olan Mətin Bahadırlı, Əkbər Qəniyev və Mirəşrəf Rzalı gümüş medala layiq görülüblər. Rayonun məktəblilərindən 6 nəfərdən ibarət "Zəkalılar" yığma komandası Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyinin birgə layihəsi olan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan "Zəkaların mübarizəsi II" respublika olimpiadasında II yerə layiq görülüb.

***S.CAVADOV, "Azərbaycan"***

## Daşkəsəndə gənclər üçün düşərgə təşkil edilib

**Daşkəsəndə rayon icra hakimiyyətinin dəstəyi və Gəncə-Daşkəsən Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə 3 günlük düşərgə təşkil edilmişdir.**

Regionlarda yaşayan fəal və yaradıcı gəncləri bir araya gətirmək, onlar arasında şəbəkələşməni gücləndirmək, yeni dostluq və əməkdaşlıq əlaqələri yaratmaq, gənclərin bilik və bacarıqlarının inkişafına töhfə vermək məqsədilə təşkil edilən düşərgədə iştirakçılar üç gün ərzində rayonun tarixi və mədəni irsi ilə tanış olmuş, müxtəlif maarifləndirici və interaktiv oyunlarda, həmçinin "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş "İdeal ekoşəhər modeli" və gənclərin bacarıqlarının artırılması üçün "Süni intellektdən praktik istifadə qaydaları" mövzularında keçirilən təlimlərdə iştirak etmişlər. Bundan başqa, düşərgə iştirakçıları musiqi və digər yaradıcı çıxışlarla bacarıqlarını nümayiş etdirmişlər.

Sonda tədbirlərdə fəal iştirak edən gənclər regional idarə tərəfindən təşəkkürnamə və hədiyyələrlə təltif olunmuşlar.

***"Azərbaycan"***



# Məktublar: problemlər, rəylər, təkliflər...



● VƏTƏN SEVGİSİ

## Hər qarışı qəhrəmanlıq olan torpaq

**Şuşaya qədəm qoyduğumuz andan qəlbimizdə sözlə ifadə edilməsi çətin olan böyük bir qürur və həyəcan hissi yarandı. Bu müqəddəs torpağın hər qarışında Vətən uğrunda canından keçən qəhrəman oğullarımızın izi və şücaəti duyulur. Şuşanın azadlığı xalqımızın illərlə yaşatdığı böyük arzunun və igid əsgərlərimizin misilsiz qəhrəmanlığının nəticəsidir.**

Burada şəhidlərimizin ruhunu yad edərkən onların Vətən üçün göstərdikləri fədakarlığın böyüklüyünü bir daha dərk edirsən. Bütün bunlar əbədi vətən sevgisinin canlı nümunəsidir.



Bu gün Şuşanın küçələrində həyatın yenidən canlanması, aparılan quruculuq və abadlıq işləri insana böyük sevinc bəxş edir. Tarixi abidələrin bərpası, küçələrin təmiri və yeni infrastruktur layihələrinin həyata keçirilməsi Şuşanın sabahının daha abad olacağından xəbər verir. Sanki şəhər illərin sükutundan sonra yenidən nəfəs alır və öz qədim əzəmətinə qovuşur. Burada görülən hər bir iş gələcəyə inamımızı və torpaqlarımıza bağlılığımızı daha da gücləndirir. Məşhur İsa bulağının suyundan içmək, Cıdır düzünü seyr etmək, vətənləşən torpağı dolaşmaqdan gözəl duyğu yoxdur.

Bu əsrarəngiz məkanda olmaq bizə bir daha göstərdi ki, bu torpaqların hər qarışı bizim tariximiz, qəhrəmanlığımız və milli qürurumuzdur.

Şuşadan, Xankəndidən ayrılarkən ürəyimizdə yalnız bir arzu vardı: qoy bu gözəl şəhərlər daim abad olsun, burada insanların gülüşü eşidilsin və bayrağımız əbədi dalğalansın!

*Rəşad İSMAYILOV,*
*Göyçay şəhər sakini*

● MİNNƏTDARLIQ

## SAKİNLƏRİMİZİN MÜRACİƏTİ NƏTİCƏSİZ QALMADI

**Bizim Qızılhacılı qəsəbəsi rayon mərkəzinə yaxın ərazidə yerləşir. Qəsəbəyə çəkilən asfalt yol, fasiləsiz işıq, istər əkin sahələrinin, istərsə də içməli su probleminin həlli biz sakinlər tərəfindən razılıqla qarşılanır. Qəsəbəmizdə müasir mədəniyyət sarayı da sakinlərə xidmət göstərir.**



Bu yaxınlarda rayon icra hakimiyyəti başçısının qəsəbə sakinləri ilə keçirdiyi görüşdə qaldırılan bir sıra məsələlər də öz həllini tapdı. Görüş zamanı sakinlər qəsəbədəki elektrik transformatorunun zəif işləməsi barədə məsələ qaldırdılar, bu səbəbdən qəsəbənin bir hissəsində elektrik enerjisi ilə təminatda problemlər yaşandığını diqqətə çatdırdılar.

Rayon icra hakimiyyətinin tapşırığı ilə qısa vaxt ərzində "Azərişıq" ASC tərəfindən qəsəbədəki köhnə transformator yenisi ilə əvəz edildi. Sağ olsunlar, müraciətimizi cavabsız qoymadılar. Qəsəbə sakinləri bu işdə əməyi keçən hər kəsə minnətdarlıqlarını bildirirlər.

*Əlövsət MURADOV,*
*Goranboy rayonunun Qızılhacılı qəsəbə sakini*

● İSTƏK

## AVTOBUS XƏTTİNİN UZADILMASI İŞİMİZİ ASANLAŞDIRARDI



**Yaşadığımız Göygöl rayonunun Yeni Qızılca kəndi Gəncəyə yaxın ərazidə yerləşir. Kənd şəhərə yaxın olduğundan sakinlərin bir qisminin dolanışığı Gəncə şəhəri ilə bağlıdır.**

Camaatımız yetişdirdikləri məhsulların bir qismini Gəncə bazarlarına apararaq orada satır. Bundan başqa, kənddə yaşayanların böyük əksəriyyəti müxtəlif işlərlə əlaqədar Gəncəyə gedib-gəlməli olurlar.

Lakin onlar marşrutların axşam saatlarında işləməməsindən olduqca narazıdırlar. Avtobuslar köhnə olduğundan tez-tez sıradan çıxır və sərnişinlər məcbur olub taksilərdən istifadə edirlər. Bizi narahat edən əsas məsələlərdən biri budur ki, 7 nömrəli marşrutda işləyən bu avtobuslar axşam saat 6-dan sonra fəaliyyətlərini dayandırır və sonuncu dayanacağı olan Yeni Qızılca kəndinə kimi getmirlər. Nəticədə sakinlər məcbur olub həmin yolu ya piyada gedir, ya da taksidən istifadə edirlər. Yaxşı olardı ki, avtobusların marşrut xətti Yeni Qızılca kəndinə qədər uzadılsın. Bu, işimizi xeyli asanlaşdırardı. Xahiş edirik, bu məsələdə kənd camaatına kömək göstərəsiniz.

*Minayə ƏLİYEVA,*
*Göygöl rayonunun*
*Yeni Qızılca kənd sakini*

● TƏKLİF

## SAĞLAM CƏMİYYƏT NÜMUNƏSİ AİLƏDƏN BAŞLAYIR

**Bu günlər Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Ülvi" Aztəminatlılara Dəstək İctimai Birliyi tərəfindən həyata keçirilən "Sağlam cəmiyyət ailədən başlayır" layihəsi çərçivəsində milli ailə dəyərlərinə həsr olunan tədbirin iştirakçısı oldum.**

Belə tədbirin keçirilməsinin əsas məqsədi milli ailə dəyərlərinin qorunması, ailədaxili münasibətlərin möhkəmləndirilməsi, bu istiqamətdə ictimai maarifləndirmənin gücləndirilməsi, eləcə də medianın və vətəndaş cəmiyyəti institutlarının ailə dəyərlərinin təbliği idi.

"Dəyirmi masa"da media nümayəndələri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, vətəndaş cəmiyyəti fəalları və ictimaiyyət nümayəndələri iştirak edirdilər. "Ülvi"nin sədri Ağanənə Seyidqızı layihənin məqsəd və vəzifələri barədə ətraflı məlumat verərək bildirdi ki, sağlam cəmiyyətin formalaşmasının əsas təməli sağlam ailədən başlayır.

Sumqayıt 1 saylı Mediasiya Təşkilatının rəhbəri Etibar Həsənov çıxışında ailə institutunun cəmiyyətin inkişafındakı rolundan, ailədaxili münasibətlərdə qarşılıqlı hörmət və anlaşmanın vacibliyindən danışdı.

Belə tədbirlərin keçirilməsi indiki zamanda çox vacibdir. Çünki bu gün mediasiya orqanlarına müraciət edən yüzlərlə gənc ailə var. Onların bir çox məsələsini belə "dəyirmi masa"larda cavablamaq olardı. Bir çox problem bəlkə elə bu tədbirdə həllini tapardı.

*İlhamə MƏHƏMMƏDQIZI,*
*Sumqayıt şəhər sakini*

## DAŞ KÜÇƏLƏRDƏ YAŞAYAN TARİX VƏ SƏNƏTKARLIQ

**Azərbaycanın qədim yaşayış məskənləri arasında Lahıc özünəməxsusluğu ilə seçilən, tarixin bu gününə gəlib çatan nadir məkanlarından biridir. Böyük Qafqaz dağlarının cənub yamaclarında, İsmayıllı rayonunun ərazisində yerləşən Lahıc ilk baxışdan kiçik bir dağ qəsəbəsi təsiri bağışlasa da, onun küçələrində gəzən insan, əslində, Azərbaycan tarixinin müxtəlif dövrləri ilə üz-üzə qalır.**



Burada hər daşın, hər qədim evin, hər emalatxananın və hər sənət nümunəsinin öz hekayəsi var. Lahıcın əsas fərqi də məhz bundadır: burada tarix yalnız muzeylərdə qorunmur, gündəlik həyatın özündə yaşamaqda davam edir. Təsadüfi deyil ki, Lahıc adı bu gün çox vaxt məhz misgərlik sənəti ilə birlikdə xatırlanır. Burada misdən hazırlanan qablar, sini, nimçə, qazan, dolça, güldan, müxtəlif məişət və dekorativ əşyalar həm istifadə məqsədi daşıyır, həm də yüksək bədii dəyərə malik olur.

Qəsəbənin qədim küçələrində yerləşən emalatxanalara daxil olanda insan müasir fabrikdən tamamilə fərqli bir istehsal mühiti ilə qarşılaşır. Misin səsi, alətlərin ritmik hərəkəti və hazır məhsulların parıltısı Lahıcın gündəlik həyatının ayrılmaz hissəsidir. Turistlər üçün də bu emalatxanalar, sadəcə, alış-veriş yeri deyil, qədim sənətin canlı nümayiş etdirildiyi məkanlardır. Lahıc sənətkarlığı yalnız misgərliklə məhdudlaşmır. Tarixən burada dəmirçilik, dulusçuluq, xalçaçılıq, ağac emalı, dabbaqlıq və digər sənət sahələri də inkişaf etmişdir.

Lahıcın tarixi əhəmiyyətini artıran başqa bir amil onun qədim şəhərsalma xüsusiyyətləridir. Daş döşənmiş dar küçələr, bir-birinə yaxın yerləşən qədim evlər və dağlıq relyefə uyğun qurulmuş yaşayış məhəllələri Lahıca xüsusi kolorit bəxş edir. Burada insanı keçmişə aparan sakit və dar küçələr daha çoxdur. Lahıcın qədim su və kanalizasiya sistemi isə qəsəbənin mühəndislik tarixindən soraq verir.

Qəsəbənin memarlığında yerli təbii şəraitin təsiri açıq görünür. Daşdan tikilmiş evlər, qalın divarlar, taxta elementlər və həyətlərin quruluşu həm iqlimə uyğunlaşmanı, həm də yerli memarlıq ənənələrini əks etdirir. Evlərin bir-birinə yaxın yerləşməsi dağlıq relyefdən səmərəli istifadə ilə bağlı olmuşdur. Bu gün həmin evlərin bir hissəsi Lahıcın ümumi tarixi görünüşünün qorunmasında mühüm rol oynayır.

Lahıc haqqında danışarkən onun təbiətini də unutmaq olmaz. Qəsəbəni əhatə edən dağlar, meşələr, dərələr və çaylar burada turizmin inkişafı üçün böyük imkan yaradır. Lahıca gedən yolun özü belə, səyahətin bir hissəsidir. Dağ mənzərələri, kəskin relyef dəyişiklikləri, təmiz hava və yaşıllıqlar şəhər həyatından uzaqlaşmaq istəyən insanlar üçün xüsusi cəlbedicilik yaradır.

Qəsəbənin əsas üstünlüklərindən biri də ondan ibarətdir ki, burada müxtəlif turizm növlərini bir səfərdə birləşdirmək mümkündür. Tarixə marağı olan turist qədim küçələri, memarlıq nümunələrini və sənətkarlıq emalatxanalarını araşdıra bilər. Təbiət həvəskarlarının burada dağ mənzərələrindən, yürüş marşrutlarından və meşələrdən zövq almaq imkanları var. Əl işlərinə marağı olan insanlar isə misgərlərin, digər sənətkarların hazırladığı məhsullarla tanış ola bilərlər.

Lahıcın iqtisadi inkişafında turizmin rolu getdikcə artır. Turistlərin qəsəbəyə səfərləri yerli əhali üçün müxtəlif gəlir mənbələri yaradır. Sənətkarlar öz məhsullarını satır, ailə tipli qonaq evləri turist qəbul edir, yerli iaşə obyektləri və kiçik sahibkarlıq subyektləri müştərisiz qalmırlar. Bununla yanaşı, tarixi turizmin inkişafı müəyyən məsuliyyət də yaradır. Turistlərin sayının artması ilə tarixi binaların qorunması, küçələrin və təbii ərazinin təmiz saxlanılması, sənətkarlıq ənənələrinin kommersiyalaşma nəticəsində öz mahiyyətini itirməməsi vacibdir. Əgər turizm yalnız çoxlu sayda qonaq gətirmək məqsədi daşıyarsa, tarixi mühitin özü zərər görə bilər. Ona görə də həm turistlərin rahatlığı təmin edilməli, həm də tarixi və mədəni irs qorunmalıdır.

Lahıca səyahət edən turist üçün ən maraqlı təcrübələrdən biri qəsəbəni tələsmədən gəzməkdir. Çünki Lahıcın gözəlliyi yalnız müəyyən bir abidədə deyil, ümumi mənzərədədir. Bir küçənin sonunda qədim ev, başqa bir döngədə sənətkar emalatxanası, bir qədər irəlidə dağ mənzərəsi və başqa bir yerdə tarixi tikili ilə qarşılaşmaq mümkündür. Lahıca gələn qonaq əslində, sadəcə, bir turizm məkanını ziyarət etmir. O, Azərbaycan tarixinin canlı bir səhifəsinə daxil olur. Qəsəbənin sakit küçələri, qədim daşları, mis qabların üzərindəki naxışları və ətrafındakı dağlar keçmişlə bu gün arasında görünməz bir əlaqə yaradır.

Lahıc milli mədəniyyətin, sənətkarlığın və tarixi yaddaşın qorunduğu qiymətli bir irs məkanıdır. Onun gələcəkdə daha da tanıdılması, tarixi görünüşünün qorunması, sənətkarlıq ənənələrinin yaşadılması və turizm infrastrukturunun düzgün inkişaf etdirilməsi həm iqtisadi, həm də mədəni baxımdan böyük əhəmiyyət daşıyır. Lahıcın hər daşında keçmişin izi, hər emalatxanasında sənətin nəfəsi, hər dağ mənzərəsində Azərbaycanın təbii gözəlliyi var. Məhz buna görə Lahıc Azərbaycanı tanımaq istəyən hər kəs üçün mütləq görülməli və hiss edilməli tarixdir.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● PROBLEM

## HƏR YAY SUSUZLUQDAN ƏZİYYƏT ÇƏKİRİK

**Biz - Qaradağ rayonu, Lökbatan qəsəbəsi, 6-cı massivində yaşayan sakinlər uzun müddətdir su problemindən əziyyət çəkirik. Demək olar ki, hər yay 6-cı massivdə su problemi yaşanır. Su ya gecə saatlarında cəmi 1 saat verilir, ya da ümumiyyətlə verilmir.**

Ən böyük narahatlıq doğuran məsələ isə odur ki, son bir həftə ərzində - havaların həddindən artıq isti olduğu bir vaxtda ərazidə su, demək olar ki, yoxdur. Sakinlər aidiyyəti qurumlara dəfələrlə müraciət etsələr də, "təzyiq yoxdur" cavabından başqa söz eşitmirlər. Çarəmiz su maşınlarına qalıb. Onun da qiyməti 70 manatdır. Bu məbləği isə hər ailə ödəyə bilmir.

Xahiş edirik, qəzetinizdə bu məsələni işıqlandırıb aidiyyəti qurumların, o cümlədən Qaradağ rayonunun su təsərrüfatına cavabdeh şəxslərin diqqətinə çatdırasınız.

*Lökbatan qəsəbəsi, 6-cı massiv sakinləri adından:*
*Elmir Şükürov,*
*Vaqif Mahmudi,*
*Azər Mahmudi,*
*Vaqif Cəfərov*

● "YARADICILIQ EVİ"

## ƏMİRƏLİ KİŞİNİN ƏMƏL DÜNYASI



**Göz oxşayan təbiət gözəllikləri, axar-baxarlı, bol nemətli, bərəkətli torpaqları kimi, Masallının mayası zəhmətlə yoğrulmuş adamları da ilk görüşdən qarşısındakını sehrləmək gücünə malikdir. Ürəyində dünya böyüklüyündə saf duyğular daşıyan insanlardan, elin böyüklərindən, yaşlı nəsildən - konkret olaraq Əmirəli Yaqubovdan söhbət açmaq istəyirəm. Bu seçim isə təsadüfi deyil.**

Xırmandalı rayonumuzun qədimliyi və müasirliyini özündə birləşdirən böyük kəndlərindəndr. Kəndimizdən zaman-zaman adlı-sanlı ziyalılar, elm adamları, müharibə və əmək qəhrəmanları çıxıb. Həmkəndlimiz Əmirəli Yaqubov ürəyində bir vətənin qeyrətini, təəssübkeşliyini daşıyan insanlardandır. Öz işi, əməyi, əməlləri ilə hamının dərin hörmətini qazanmış Əmirəli kişi musiqiçi ailəsində dünyaya göz açıb, elə özü də sadə bir musiqiçidir. Hazırda təqaüdçüdür. Məlumdur ki, ağsaqqallar gənclərə, özündən yaşca kiçik hər kəsə ağıllı öyüd-nəsihətlər edər, vətənini, millətini, zəhməti, insanı, insanlığı sevməyi, qorumağı tövsiyə edər. Bizim Əmirəli kişi isə bütün bu öyüd-nəsihətləri quru kəlmələrlə deyil, öz vəsaiti, gərgin əməyi və səliqə-sahmanı, səriştəsi, erudisiyası, ağlı-kamalı ilə yaratdığı muzeydəki eksponatların dili ilə verir. Tamaşaçını sehrləyərək, fakt qarşısında qoyaraq. Görünür, yaratdığı muzeyi "Yaradıcılıq Evi" adlandırmağı da buradan gəlir.

Onu da qeyd edək ki, Masallıda muzey yaratmaqla gənc nəslin mənəvi tərbiyəsində iştirak etmək ənənəsi var. Hişkədərə kənd məktəbində mərhum müəllim Rəhim Tağıyevin 1963-cü ildə əsasını qoyduğu muzey hazırda rayon mərkəzində fəaliyyət göstərən 9 bölümdən ibarət Masallı Tarix-Diyarşünaslıq Muzeyinə çevrilib. Bizim Xırmandalı kənd məktəbində mərhum müəllim Əsgər Zahidovun yaratdığı muzeyi də (bir çox başqa kəndimizdə də belə məktəb muzeyləri var) qeyd etmək olar. Xırmandalıda vaxtilə başqa bir muzey də fəaliyyət göstərmişdir. Əmirəli Yaqubovun atası Yasər kişi də muzey təsis etmişdi. Əmirəli özü bu haqda belə deyir:

- Atam İkinci Dünya müharibəsi döyüşçüləri haqda muzey yaratmışdı. Lakin o muzey zaman-zaman dağıldı, unuduldu. Mən atamın işini davam etdirmək üçün muzey yaratdım ki, gənclərimiz maariflənsinlər, dəyərlərimiz itib-batmasın.



Əmirəli Yaqubovun "Yaradıcılıq Evi" adlandırdığı muzey ictimai əsaslarla fəaliyyət göstərir. Burada 800-dən artıq eksponat toplanıb. Bəzi eksponatları təsisçi öz pulu ilə alıb. Bəzilərini dost-tanışlar bağışlayıblar. Tarlalar şumlananda yerin altından üzə çıxan bir maddi-mədəniyyət nümunəsi tapılsa, gətirib ona verirlər. Arxeoloji qazıntılardan da yararlanıb. Muzeydə XVII əsrə aid tüfəng, qədim samovarlar, çıraqlar, kəlağayılar, milli geyim nümunələri var. Ən qədim əşya V-VI əsrlərə aid daş məişət əşyasıdır. İkinci Dünya müharibəsində arxa cəbhədə qəhrəmanlıq göstərən həmvətənlərimizin, Qarabağ savaşı qəhrəmanlarının fotoşəkilləri, onlara aid sənədlər, Şuşanın işğalından əvvəl şəhərin hərbi qərargahında saxlanan milli bayrağımız da buradadır. Həmin bayrağı 1992-ci ilin məlum hadisələri zamanı həmyerlilərdən biri düşmən əlinə keçməsin deyə gətirib və bizim Əmirəli müəllimə bağışlayıb.



Muzey 2 bölümdən ibarətdir. 1-ci bölümdə əsasən qədim məişət və təsərrüfat əşyaları nümayiş olunur. 2-ci bölüm müharibə və əmək qəhrəmanlarının həyat yolunu şəkillər və sənədlərin dili ilə sərgiləyir.

Muzeyin qonaqları arasında Masallıya gələn turistləri, qonaqları görmək olar. Məktəblilər də tez-tez müəllimlərin rəhbərliyi ilə buraya ekskursiya edirlər.

Əmirəli Yaqubov bir şeydən rahatsızdır: muzeyin yerləşdiyi bina köhnədir, təmirsizdir. "Muzey üçün otaqlar tikilsə, yaxşı olardı", - deyir.

*Həşim ABBASOV,*
*Masallı rayonunun Xırmandalı kənd sakini,*
*müəllim*

# Müslüm Maqomayevin doğum günündə məzarı ziyarət edilib

**Avqustun 17-də dünyaşöhrətli müğənni, bəstəkar, SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevin anadan olmasının 84-cü ildönümü tamam olub. Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri və tanınmış mədəniyyət xadimləri I Fəxri xiyabanda sənətkarın məzarını ziyarət edib, üzərinə gül dəstələri qoyublar.**





AZƏRTAC xəbər verir ki, tədbirdə mədəniyyət nazirinin müavini Səadət Yusifova, sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya, Xalq rəssamı Ömər Eldarov, mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova, Xalq artisti Hacı İsmayılov və digər çıxış edənlər sənətkarın Azərbaycan və dünya musiqi mədəniyyətindəki misilsiz xidmətlərindən, bənzərsiz ifaçılıq üslubundan və zəngin yaradıcılıq irsindən söz açıblar.

Bildirilib ki, Müslüm Maqomayevin məlahətli səsi, yüksək səhnə mədəniyyəti və peşəkarlığı onu milyonlarla insanın sevimlisinə çevirib. Onun Azərbaycan musiqisinin dünyada tanıdılmasında mühüm rol oynadığı, yaradıcılığının bu gün də böyük maraq və sevgi ilə qarşılandığı vurğulanıb.

Müslüm Maqomayevin sənət irsinin Azərbaycan mədəniyyətinin qiymətli xəzinələrindən biri olduğunu vurğulayan natiqlər diqqətə çatdırıblar ki, görkəmli sənətkarın parlaq xatirəsi və yaradıcılığı gələcək nəsillər üçün də əbədi sənət məktəbi olaraq qalacaq.

# Güneyxırman və Quzeyxırman kəndlərinə köçən ailələrə evlərinin açarları təqdim olunub

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Güneyxırman və Quzeyxırman kəndlərinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr öz yurdlarına qovuşublar.**









Bu gün Xocavənd rayonunun Güneyxırman və Quzeyxırman kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, kəndlərə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd rayonunun Quzeyxırman kəndinə 18 ailə - 82 nəfər, Güneyxırman kəndinə isə 21 ailə - 103 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Köçürülən sakinlərin məskunlaşması üçün kəndlərdə lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Keçmiş məcburi köçkünlər onlar üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, torpaqlarımızı işğaldan azad edən şəhidlərimizə rəhmət diləyib, qazilərimizə isə cansağlığı arzulayıblar.

# Bakıda axşam konsertləri davam edir





**Xəbər verildiyi kimi, bir həftə bundan əvvəl Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə paytaxt sakinlərinin asudə vaxtlarının daha səmərəli təşkili məqsədilə açıq hava konsertlərinə start verilib. Ötən həftənin sonu yenidən paytaxtın dörd rayonunda sakinlərin və şəhərin çoxsaylı qonaqlarının sevimli istirahət yerlərindən olan parklarda axşam konsertləri keçirilib.**

Budəfəki konsert proqramları Xətai rayonundakı "Nizami Gəncəvi" parkında, Nərimanov rayonunda "Gənclik" metro stansiyasının yaxınlığındakı parkın amfiteatrında, Yasamal rayonunun Meşə parkında, Nizami rayonundakı Heydər Əliyev və Mərkəzi Nəbatat parklarında təşkil edilib. Konsert proqramlarının təşkil edildiyi park və bağlar paytaxt sakinlərinin ən çox üz tutduğu istirahət məkanları sırasındadır. Burada insanların asudə vaxtlarını rahat və mənalı keçirməsi üçün hər cür şərait yaradılıb. Geniş yaşıllıq zolaqları, istirahət guşələri və uşaq əyləncə meydançaları bu məkanları hər yaşdan olan ziyarətçilər üçün cəlbedici edir. Gün ərzində uşaqlar bu ərazilərdə oynayır, ailələr piknik edir, gənclər və yaşlı nəslin nümayəndələri isə təmiz hava və sakit mühitdən zövq alaraq dincəlirlər. Bu parklar minlərlə sakinin sevimli görüş və istirahət ünvanına çevrilib.

Peşəkar və gənc ifaçıların, musiqi qruplarının bir araya gəldiyi konsertlərdə estrada, xalq və klassik musiqi nümunələri, eləcə də müxtəlif instrumental ifalar səsləndirilib. Rəngarəng repertuarlar, canlı ifalar və xoş atmosfer parklara üz tutan sakinlərə unudulmaz axşam yaşadıb.

İfaçıların çıxışları tamaşaçılar tərəfindən maraq və alqışlarla qarşılanıb. Sakinlər, xüsusilə konsertdə iştirak edən müxtəlif yaş qruplarına aid uşaqlar, gənclər xoş musiqilərin sədaları altında rəqs ediblər. Axşam konsertləri gələn həftənin şənbə günü də təşkil ediləcəkdir.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda avqustun 18-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**



Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 21-24, gündüz 28-32 dərəcə isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25, gündüz 31-36, dağlarda gecə 12-17, gündüz 20-25 dərəcə isti olacaq.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# ABŞ Cənubi Koreya ilə təlimlərini azaltmaq qərarına gəlib

## D.Tramp Şimali Koreya lideri ilə yaxşı münasibətlərinin olduğunu etiraf edib

**Prezident Donald Tramp ABŞ-nin Cənubi Koreya ilə hərbi təlimlərdə iştirakından narazı olduğunu bildirib və Pentaqonun başçısı Pit Heqsetə birgə manevrlərin miqyasını azaltmağı tapşırıb.**



Şimali Koreyanı cilovlamağı hədəfləyən "Ulchi Freedom Shield" təlimləri bazar ertəsi başlayıb. Elə həmin gün D.Tramp özünün sosial səhifəsi "Truth Social"da yazıb: "Şimali Koreya lideri Kim Çen Inla çox yaxşı münasibətlərimi nəzərə alsaq, ABŞ-nin Cənubi Koreya ilə birgə hərbi təlimlərdə iştirak etməyə çoxdan razılıq verməsindən narazıyam". O, həmçinin Seulun İranla müharibədə ABŞ-yə qoşulmaqdan imtina etməsindən təəssüfləndiyini bildirib: "Bu yaxınlarda Cənubi Koreya Prezidentindən İran İslam Respublikasının nüvəsizləşdirilməsində bizə qoşulub-qoşulmayacaqlarını soruşdum və onlar cavab verdilər: "Xeyr, təşəkkür edirik!"

D.Tramp növbəti 11 gün davam edəcək təlimləri ləğv etmək üçün çox gec olduğunu bildirib və buna görə müdafiə nazirinə onların miqyasını "əhəmiyyətli dərəcədə azaltmağı" əmr edib.

Cənubi Koreya tərəfindən 18 min əsgərin iştirak etdiyi 11 günlük təlimlər Pxenyanın təhdidlərinə qarşı hazırlığı artırmaq üçün nəzərdə tutulub. ABŞ ordusunun məlumatına görə, "Ulçi Azadlıq Qalxanı" təlimləri "alyansın regional sülh və təhlükəsizliyin əsas elementi kimi rolunu" gücləndirir və "ABŞ və Koreya Respublikasının öz ölkələrinin müdafiəsinə sarsılmaz sadiqliyini" bir daha təsdiqləyir. Bu təlimlər Cənubi Koreya və ABŞ hərbçilərinin hər il keçirdiyi iki böyük birgə manevrdən biridir.

Şimali Koreya 2019-cu ildə diplomatik səylər uğursuzluğa düçar olduqdan bəri nüvə və raket arsenallarını fəal şəkildə genişləndirir. Ekspertlər deyirlər ki, Kim Çen In daha böyük silah cəbbəxanasının ona gələcək danışıqlarda ABŞ-ni əlavə güzəştlərə məcbur etmək üçün daha böyük təsir göstərəcəyinə inanır. Cümə günü Şimali Koreya ABŞ və Cənubi Koreyaya qarşı sərt tədbirlərlə hədələyərək onların hərbi təlimlərini regionda daha da qeyri-sabitliyə səbəb olan "təcavüzkar müharibənin məşqi" adlandırıb.

# Azı 7 zəvvar həlak olub, 19-u yaralanıb

**Hindistanın Bihar ştatındakı məbəddə baş verən izdihamda faciə baş verib. Elektrik dirəyinin insanların üzərinə düşdüyü barədə şayiələrdən sonra ərazidə təşviş yaranıb.**



Hindistanın şərqindəki Bihar ştatındakı bir hindu məbədində yaranan basabasda ən azı 7 nəfər ölüb, 19 nəfər yaralanıb. Hadisə bazar ertəsi səhər tezdən Lakhisarai rayonundakı Aşok Dham məbədində baş verib. Müqəddəs Şravana ayında 50 minə yaxın dindar hindu tanrısı Şivaya qurban kəsmək üçün toplaşıb.

Rayon administrasiyasının başçısı Şailendra Kumar AFP agentliyinə bildirib ki, məbədin içərisindəki insanların üzərinə elektrik dirəyinin düşdüyü barədə şayiələrin yayılmasından sonra təşviş yaranıb. Digər məlumatlara görə, təşviş elektrik cərəyanı vurması qorxusundan əmələ gəlib. Kumar qeyd edib ki, iki qatarın bir-birinin ardınca gəlməsi məbəddəki zəvvarların sayının kəskin artmasına səbəb olub. Daha sonra insanlar qaçmaq istəyərkən hasarın bir hissəsi uçub. "Vəziyyət artıq nəzarət altındadır", - deyə Kumar bildirib və yaralıların sayının 19 nəfər olduğunu əlavə edib. Yerli medianın məlumatına görə, izdihamda çoxlu qadın olub; həlak olanlardan ən azı dördünün 44-55 yaş arası qadın olduğu müəyyən edilib.

Bihar ştatının baş naziri Samrat Çudhari hadisəni ürək ağrıdan faciə adlandırıb və bütün qurbanların ailələrinə 400 min rupi (4180 ABŞ dolları) təzminat ödəniləcəyini açıqlayıb. Nazir Vijay Kumar Sinha fəlakətin səbəblərinin araşdırılacağını deyib.

Ölkənin Baş naziri Narendra Modi də qurbanların ailələrinə başsağlığı verib və yerli hakimiyyət orqanlarının zərərçəkənlərə yardım göstərdiyini bildirib.

Hindistanda dəfələrlə böyük dini toplantılar zamanı izdihamla bağlı faciələr yaşanıb. 2024-cü ildə Uttar Pradeş ştatında dini toplantıda 120-dən çox insan həlak olmuşdu.

***Hazırladı: Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov və katibin xidmətinin əməkdaşları general-mayor
**ABBASƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanova əzizi
**İSMAYIL MİRZƏZADƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının rəhbərliyi və kollektivi kitabxananın elmi işlər və kitabxana-informasiya xidməti üzrə direktor müavini Ədibə İsmayılovaya dayısı
**İBRAHİM MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dövlət Gömrük Komitəsinin rəhbərliyi və kollektivi Sərhəd Qoşunlarının keçmiş komandanı general-mayor
**ABBASƏLİ NOVRUZOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Elnur Məmmədova atası
**İSRAFİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədova atası
**İSRAFİL MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3301
Sifariş 1065

Qiyməti 60 qəpik